RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 251 (9996) 27 noyabr 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# İndi sülhə daha yaxınıq

## Bu tarixi nailiyyət İlham Əliyevin siyasi iradəsinin və prinsipial qətiyyətinin nəticəsidir

Qalib Komandan, Prezident İlham Əliyev isə sülh danışıqlarını qiymətləndirərkən qeyd edib ki, 2020-ci il 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz, həmçinin 2023-cü ildə qətiyyətli antiterror tədbirləri nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu. Bununla da ölkəmizin ərazi bütövlüyü və əzəli torpaqlarımız üzərində suverenliyi bərpa olundu. Bu tarixi nailiyyət yalnız Azərbaycanın milli iradəsinin və əzmkar mübarizəsinin təntənəsi deyil, eyni zamanda bölgədə ədalətin, sülhün və sabitliyin bərqərar olunmasına mühüm töhfədir: "Vaşinqtonda, Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazı sülh məkanına çevirəcək. Vaşinqton Zirvəsi çərçivəsində, eyni zamanda ATƏT-in Minsk qrupunun və əlaqədar strukturların bağlanması üçün edilmiş birgə müraciətə uyğun olaraq, sentyabrın 1-də ATƏT tərəfindən qəbul edilmiş qərarla keçmiş münaqişənin bu qalıqları da aradan qaldırıldı. Beləliklə, atdığımız addımlar Azərbaycanın irəli sürdüyü sülh gündəliyini bir daha təsdiq etdi".

Prezident vurğulayıb ki, sülh, regional bağlantılar və iqtisadi inkişafla əlaqəli olan digər mühüm istiqamət enerji təhlükəsizliyidir. Ölkəmiz bu məqsədlərin qlobal səviyyədə təmin edilməsində fəal rol oynayır. Azərbaycan bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləyib.

Onu da qeyd edək ki, artıq tərəflər arasında sülhün təşviqi üçün yaradılan "Sülh Körpüsü" Təşəbbüsünün ilkin mərhələsi təqdirəlayiq hesab edilib. Belə ki, noyabrın 21-22-də "Sülh Körpüsü" Təşəbbüsü çərçivəsində Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət qrupun Azərbaycana səfəri baş tutub. Onların keçirdikləri görüşlərdə Azərbaycan və Ermənistan arasında sülh prosesinin dinamikası, vətəndaş cəmiyyətinin dialoqun bərpasındakı rolu və yaxın gələcəkdə icra olunacaq birgə layihələr müzakirə olunub, həmçinin sülh prosesi ilə bağlı hər iki cəmiyyəti maraqlandıran aktual mövzulara da toxunulub. Bundan əlavə, media məkanında birgə fəaliyyətin intensivləşdirilməsi, ekspert qrupları arasında birbaşa əlaqələrin qurulması, Azərbaycan və Ermənistan vətəndaş cəmiyyətlərinin sülh prosesinə daha geniş şəkildə cəlb edilməsi barədə razılıq əldə olunub.

"Sülh Körpüsü" Təşəbbüsü çərçivəsində işgüzar səviyyədə əlaqələrin və hər iki ölkəyə qarşılıqlı səfərlərin davam etdirilməsi də qərara alınıb.

Səfər zamanı "Sülh Körpüsü" Təşəbbüsü üzvləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə də görüşüblər. Səmimi şəraitdə keçən fikir mübadiləsi zamanı Vaşinqton görüşündən sonra Azərbaycan və Ermənistan tərəfindən sülh gündəliyinin möhkəmləndirilməsi istiqamətində atılan addımlar müzakirə olunub. Hikmət Hacıyev təşəbbüs üzvlərinin suallarını cavablandırıb.

4

## Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilən VI İslam Həmrəyliyi Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikası idmançılarının, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilən VI İslam Həmrəyliyi Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikası idmançılarının, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 1900 000 (bir milyon doqquz yüz min) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi:

2.1. idmançılar arasında rəqabətin səviyyəsi, ən yüksək nəticələrə görə medalların sayı, fərdi və ya komanda yarışlarında iştirakı nəzərə alınmaqla idmançıların, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması üçün nəzərdə tutulmuş vəsaitin bölgüsünə, habelə vəsaitin ödənilməsinə dair qaydanı 10 (on) gün müddətində hazırlayıb təsdiq etsin;

2.2. bu Sərəncamın 1-ci hissəsi ilə ayrılmış vəsaitin həmin Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş qaydaya uyğun olaraq ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2025-ci il*

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin aşağıdakı əməkdaşlarına III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin:

Abiddin Qabil oğlu Hüseynov - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Toğrul Aydın oğlu Hüseynov - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2025-ci il*

## Azərbaycanın məqsədi sülhü təmin etməkdir



Hərbi gücümüz hər hansı dövlətə qarşı yönəlməyib. Azərbaycan üçün müharibə bitib. Torpaqlarımız işğaldan azad olunub, ərazi bütövlüyümüz bərpa edilib. Qarabağ savaşı artıq keçmişdə qalıb. Azərbaycanın hərbi gücü yalnız sülhə xidmət edir. Malik olduğumuz üstün hərbi imkanlar regionda sülhün qorunmasında və təmin edilməsində respublikamızın rolunu daha da möhkəmləndirir. Prezident İlham Əliyev avqust ayında Kəlbəcər şəhər sakinləri ilə görüşdə bildirdi ki, biz bundan sonra heç kimlə müharibə aparmaq fikrində deyilik. Lakin dövlətimizin başçısının qeyd etdiyi kimi, əgər bizə qarşı hər hansı bir təhlükə yaranarsa, onda yenə də "dəmir yumruğ"umuzu hər kəs görəcək.

4



## Azərbaycan TDT-nin güclənməsinə xüsusi önəm verir

Hazırda ölkəmizin Türk Dövlətləri Təşkilatı ilə əməkdaşlığı bir çox sahəni əhatə edir. İndi isə vətəndaş cəmiyyəti seqmenti də bu sahədə əməkdaşlığı gücləndirir. Ölkəmizdə keçirilən Türk Dövlətləri Təşkilatına üzv olan dövlətlərin vətəndaş cəmiyyəti təşkilatlarının həmrəylik forumunda 8 ölkədən QHT-lər təmsil olunur. Türk dövlətləri ilə hazırki münasibətlərin dinamikası bu əlaqələrin gələcəkdə daha da güclənəcəyini göstərir. Etnik oxşarlıqlar, ortaq dil, din, mədəni və tarixi köklər Azərbaycan və Mərkəzi Asiya platformasını altılıq konseptinə gətirib. Prezident İlham Əliyevin xüsusi xidmətlərinə görə Türk Dövlətləri Təşkilatı artıq vahid platforma kimi çıxış edir. Dövlət başçısı TDT-nin həm ideoloji, həm də institusional baxımdan güclənməsinə mühüm töhfə verib. Şuşa və Budapeştdə keçirilən qeyri-rəsmi Zirvə görüşlərində, eləcə də bu il Qəbələdə keçirilmiş TDT 12-ci Zirvə görüşündə ölkə rəhbərinin təşəbbüsləri türk dövlətləri arasında əməkdaşlığın strateji istiqamətlərini müəyyənləşdirib.

5

## Ələt Azad İqtisadi Zonasının həm ərazisi, həm də fəaliyyəti genişlənəcək

Ölkəmiz son iki onillik ərzində iqtisadi inkişaf və islahatlar sahəsində mühüm addımlar atmışdır. Bu addımlardan biri də ölkə iqtisadiyyatını diversifikasiya etmək, qeyri-neft sektorunu inkişaf etdirmək və xarici investisiyaları cəlb etmək məqsədilə azad iqtisadi zonaların yaradılmasıdır. Bu kontekstdə Ələt Azad İqtisadi Zonası Azərbaycanın iqtisadi strategiyasının ən mühüm sütunlarından birinə çevrilmişdir.

Bu zona üçün məkan nə üçün məhz Ələtdə seçilib? Bu barədə Prezidentimiz belə deyib: "Ələt qəsəbəsinin ərazisində böyük boş torpaq sahələri var və bu torpaq sahələrinin mütləq əksəriyyəti kənd təsərrüfatı üçün yararsız torpaqlardır. Digər tərəfdən, Ələt qəsəbəsi Bakı şəhərinə yaxındır. Bu da vacib şərtlərdən biridir. İnfrastruktur layihələrinin icrası üçün artıq bütün ilkin şərtlər vardır. Səngəçalda 300 meqavat gücündə elektrik stansiyası mövcuddur və infrastruktur layihələrinə qoyulan xərclər də nisbətən az olacaq. Burada beynəlxalq dəniz limanı yerləşir. Bu da iqtisadi zonanın fəaliyyəti üçün önəmli amillərdən biridir. Hesab edirəm ki, Ələtin inkişaf perspektivi də çox uğurlu ola bilər. Əgər bu zona istədiyimiz kimi formalaşsa, - mən buna əminəm, - bu bölgənin inkişaf dinamikası ümumi inkişafımıza da böyük müsbət təsir göstərəcək. Bax, bu amillər bu yerin seçilməsində əsas rol oynamışdır. Eyni zamanda buradan bizim beynəlxalq dəhlizlərimiz də keçir. "Şərq-Qərb" dəhlizi, "Şimal-Cənub" dəhlizi Ələtin ərazisindən keçir. Ona görə logistika, nəqliyyat baxımından bu yer çox əlverişlidir.

10





## Xəzərin suyu çəkilməkdə davam edir

Dəniz suyunun azalması onun biomüxtəlifliyinə də təsir edir. Belə ki, bəzi növlərin populyasiyası zəiflədiyi halda, bəziləri isə yox olmaq təhlükəsi ilə üz-üzə qalır. Bu da dəniz sahilində yerləşən əhalinin sosial-iqtisadi həyatına mənfi təsir göstərir. Ümumilikdə Xəzərin üzləşdiyi problem ekosistemə ciddi zərbə vurmaqla yalnız dənizin fauna və florasına deyil, həm də cəmiyyətin yaşayışına neqativ təsir edir.

Elm və Təhsil Nazirliyinin Həsən Əliyev adına Coğrafiya İnstitutunun Xəzər dənizinin sahillərinin və dibinin geomorfologiyası şöbəsinin müdiri professor Əmir Əliyev qəzetimizə açıqlamasında bildirdi ki, hazırda Xəzər dənizinin səviyyəsi enmə dövründədir. Dənizin səviyyəsi 1995-ci ildən bu günə qədər təxminən 2,1 metr aşağı düşüb. O qeyd etdi ki, ötənilki məlumata görə, təxminən 18 sm, ondan əvvəlki ildə isə 20 sm enmə müşahidə olunub. Amma səviyyənin düşmə tempi son illər azalıb. Xəzərin səviyyəsinin dəyişməsi periodikdir və təbii proseslə bağlıdır. Dənizin səviyyəsi 200-250 il qalxır, daha sonra bu müddətdə enir.

11

# Baş nazir Əli Əsədov "Rusiya Dəmir Yolları"nın baş direktoru ilə görüşüb



**Azərbaycanın Baş naziri Əli Əsədov "Rusiya Dəmir Yolları"nın baş direktoru, İdarə Heyətinin sədri Oleq Belozyorovla görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə müxtəlif sahələrdə Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığının mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Nəqliyyat və logistika, o cümlədən dəmir yolları arasında qarşılıqlı əlaqələrə xüsusi diqqət yetirilib. Regionun tranzit potensialının artırılması üzrə birgə səylərin davam etdirilməsinin vacibliyi qeyd edilib. Bu kontekstdə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi boyunca infrastrukturun inkişafı və bu marşrut üzrə yük daşımalarında davamlı artımın qorunması üzrə işlərin sinxron aparılmasının zəruriliyi vurğulanıb.

Görüşdə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov iştirak edib.

# Baş nazirin müavini Şahin Mustafayev Rusiya hökuməti sədrinin müavini Aleksandr Novak ilə görüşüb

**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev noyabrın 26-da Rusiya Federasiyası hökuməti sədrinin müavini Aleksandr Novak ilə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə cari il oktyabrın 9-da Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında keçirilmiş görüşün iki ölkə arasında bütün istiqamətlərdə münasibətlərə təkan verdiyi vurğulanıb.

Azərbaycan ilə Rusiya arasında iqtisadi əlaqələrin dinamik inkişaf etdiyi və yaxşı imkanlar vəd etdiyi qeyd olunub.



Görüş zamanı ticarət-iqtisadi, energetika və nəqliyyat sahələrində ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə olunub.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 5 fevral tarixli 28 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan və ya qaçqın statusu almış əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nda, 2017-ci il 11 iyul tarixli 285 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət qulluğuna qəbul üzrə müsahibədə iştirak etmək üçün müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu Qaydaları"nda və 2024-cü il 30 iyul tarixli 368 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 342** **Bakı şəhəri, 24 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət qulluqçularının reyestrinin aparılması ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 may tarixli 395 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 5 fevral tarixli 28 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 109 (Cild I); 2024, № 1, maddə 113) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayanvə ya qaçqın statusu almış əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nın on birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Dövlət qulluqçularının reyestri (Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi).".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 iyul tarixli 285 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1482 (Cild I); 2025, № 2, maddə 206, № 5 maddə 507) ilə təsdiq edilmiş "Dövlət qulluğuna qəbul üzrə müsahibədə iştirak etmək üçün müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu Qaydaları"nın 3.3-cü bəndində "Azərbaycan Respublikası Dövlət Qulluqçularının Reyestri" sözləri "Dövlət qulluqçularının reyestri" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 368 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 929; 2025, № 5, maddə 507, № 9, maddələr 858, 870) ilə təsdiq edilmiş "Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası"nın 8.2.4-cü yarımbəndində "Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrində" sözləri "Dövlət qulluqçularının reyestrində" sözləri ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli 186 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 343** **Bakı şəhəri, 26 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında", "Dövlət rüsumu haqqında", "İxrac nəzarəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında", "Elektroenergetika haqqında" və "Energetika haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli 186 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 667 (Cild I); 2024, № 8, maddə 995, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə"yə aşağıdakı məzmunda 8.1-1-ci, 8.6-1-ci və 8.6-2-ci bəndlər əlavə edilsin:

"8.1-1. Sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 18.77-1-ci maddəsi ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.";

"8.6-1. İdarəedici təşkilat sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumunu ödəmək vəzifəsi barədə 2 (iki) iş günü müddətində ərizəçiyə şifahi və ya yazılı formada məlumat verir. Ərizəçi tərəfindən məlumat alındığı tarixdən 5 (beş) iş günü müddətində sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumu ödənilir və ödənişi təsdiq edən sənəd idarəedici təşkilata təqdim edilir.

8.6-2. Ərizəçi tərəfindən dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edildikdən sonra sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsi 2 (iki) iş günündən gec olmayaraq ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd bu Əsasnamənin 8.6-1-ci bəndində nəzərdə tutulan müddətdə təqdim edilmədikdə idarəedici təşkilat tərəfindən sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsi ləğv edilir və bu barədə məlumat 2 (iki) iş günü müddətində ərizəçiyə göndərilir.".

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan və Avropa İttifaqı arasında siyasi, iqtisadi əməkdaşlıq məsələləri müzakirə olunub

**Niderland Krallığının ölkəmizdəki səfiri Marian de Yonq noyabrın 26-da Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, bu barədə səfirliyin "Feysbuk" səhifəsində paylaşım edilib.

Bildirilib ki, görüşdə Azərbaycan və Avropa İttifaqı arasında siyasi, iqtisadi əməkdaşlıq, həmçinin regional məsələlər müzakirə olunub. Tərəflər eyni zamanda Niderland və Azərbaycan arasında ikitərəfli münasibətlərin daha da gücləndirilməsi perspektivlərini nəzərdən keçiriblər.



# Görüşdə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rol qeyd edilib

**Xarici işlər naziri Ceyhun Bayramov İtaliyaya rəsmi səfəri çərçivəsində İtaliya Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Lorenzo Fontana ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, görüş zamanı Azərbaycanla İtaliya arasında ikitərəfli, çoxtərəfli əməkdaşlıq məsələləri, habelə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət müzakirə olunub. Tərəflər mövcud çoxölçülü strateji tərəfdaşlıq münasibətlərinin inkişafında yüksəksəviyyəli təmaslar, səfərlər və dialoqla yanaşı, parlament diplomatiyasının əhəmiyyətli rolunu qeyd ediblər.



Strateji tərəfdaşlığın əsas dayaqlarından biri kimi parlament diplomatiyasının, parlament sədrlərinin və nümayəndələrinin qarşılıqlı səfərlərinin vacibliyi qeyd olunub.

Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi, enerji, ticarət, nəqliyyat, kommunikasiya və humanitar sahələrdə uğurla davam etdirilən əməkdaşlığın təqdirəlayiq olduğu bildirilib. Enerji sahəsində uzunmüddətli əməkdaşlıq, xüsusilə də Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rol xüsusi qeyd olunub. Bununla yanaşı, ikitərəfli münasibətlərdə böyük əhəmiyyətə malik Azərbaycan-İtaliya Universitetinin təsis edilməsinin strateji tərəfdaşlığa əlavə təkan verdiyi vurğulanıb.

Görüşdə nazir Ceyhun Bayramov keçmiş Ermənistan-Azərbaycan münaqişəsi, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, tarixi Vaşinqton görüşünün nəticələri, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ceyhun Bayramov İtaliya Senatının sədri ilə görüşüb

**Xarici işlər naziri Ceyhun Bayramov İtaliya Respublikasına rəsmi səfəri çərçivəsində İtaliya Senatının sədri İqnasio La Russa ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, görüş zamanı tərəflər Azərbaycanla İtaliya arasında strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş münasibətlərin dinamik şəkildə inkişaf etdiyini məmnunluqla qeyd ediblər. Son illər ərzində qarşılıqlı etimada, ümumi maraqlara və fəal siyasi dialoqa əsaslanan ikitərəfli əlaqələrin daha da dərinləşdiyi diqqətə çatdırılıb.



Söhbət zamanı Azərbaycan-İtaliya əməkdaşlığının siyasi, müdafiə və təhlükəsizlik, iqtisadi və ticarət, enerji və bərpaolunan enerji, humanitar, turizm, mədəniyyət və təhsil sahələri də daxil olmaqla çoxşaxəli istiqamətlərdə inkişafından məmnunluq ifadə olunub.

Görüşdə İtaliya Prezidentinin Azərbaycan-İtaliya Universitetinin açılış mərasimində iştirakı, İtaliyanın Baş nazirinin ölkəmizdə COP29 liderlər sammitinə qatılması, iki ölkə liderləri arasında yüksəksəviyyəli təmasların münasibətlərə əlavə təkan verdiyi vurğulanıb.

Tərəflər parlamentlərarası əlaqələrin gücləndirilməsinin və davamlı siyasi dialoqun münasibətlərin gələcək inkişafı üçün həlledici əhəmiyyət daşıdığını bildiriblər. Bu kontekstdə parlament diplomatiyasının iki ölkə arasında əməkdaşlığın institusional əsaslarının möhkəmləndirilməsi, həmçinin regional və beynəlxalq parlament platformalarında qarşılıqlı dəstəyin artırılması baxımından əhəmiyyəti xüsusi qeyd olunub.

Görüşdə nazir Ceyhun Bayramov qarşı tərəfə keçmiş Ermənistan-Azərbaycan münaqişəsindən irəli gələn postmünaqişə reallıqları, bölgədə sülh və sabitliyin təmin olunması istiqamətində atılan addımlar, o cümlədən işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa, yenidənqurma və reinteqrasiya prosesləri və İtaliya şirkətlərinin bu prosesdə iştirakı barədə ətraflı məlumat verib.

Tərəflər həmçinin regional təhlükəsizlik mühiti, çoxtərəfli əməkdaşlıq formatları, beynəlxalq gündəlikdə duran məsələlər və qarşılıqlı maraq doğuran digər mövzular üzrə fikir mübadiləsi aparıblar.

# Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsi BMT-nin sənədi kimi yayımlanıb

**Sentyabrın 21-də "Terror aktları və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının birgə fəaliyyəti" mövzusunda keçirilmiş III Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsi və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciəti BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədi kimi qeydiyyata alınaraq yayımlanıb.**

Bu əlamətdar hal Bakı Təhlükəsizlik Forumunun təhlükəsizlik sahəsində artan əhəmiyyətindən, beynəlxalq institusional-hüquqi perspektivindən xəbər verir.

Forumun builki plenar iclası Bakı Təhlükəsizlik Forumunun Əsasnaməsinin və Bəyannaməsinin qəbul edilməsi, həmçinin ümumi razılıq əsasında dünyada ilk dəfə xüsusi xidmət və təhlükəsizlik orqanları arasında 24/7 rejimli Antiterror İnformasiya Mübadiləsi Sisteminin yaradılmasının qərara alınması ilə yadda qalıb.

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin təşkilatçılığı, 90-a yaxın xarici xüsusi xidmət orqanının rəhbərlərinin və yüksəksəviyyəli nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbirin iştirakçılarına Prezident İlham Əliyevin ünvanladığı müraciətdə bildirilir ki, forum qlobal və regional təhdid və risklərin müəyyənləşdirilməsi, onların neytrallaşdırılması yollarının araşdırılması baxımından unikal formata malik beynəlxalq tədbirdir. Dünyanın bütün qitələrindən müxtəlif ölkələri təmsil edən xüsusi xidmət orqanı rəhbərlərinin və təhlükəsizlik məsələləri üzrə ekspertlərin ümumi təhdidlərlə mübarizə məqsədilə hər il Bakıda toplaşması ənənəsinin yaranması forumun timsalında Bakının qarşılıqlı etimad və əməkdaşlıq məkanı olmasının bariz nümunəsidir.

Forumun Bəyannaməsində iştirakçı dövlətlər beynəlxalq hüququn təməl prinsiplərinə sadiqliklərini bildirərək, xüsusi xidmət və təhlükəsizlik orqanları tərəfindən transmilli mütəşəkkil cinayətkarlıq, beynəlxalq terrorçuluq və qlobal təhlükəsizliyə təhdid sayılan digər hallarla mübarizədə səylərin birləşdirilməsinin, qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsinin, təcrübə və məlumat mübadilələrinin fasiləsiz, aktiv və operativ şəkildə aparılmasının və beynəlxalq təhlükəsizliyin etibarlı təmin olunması üçün davamlı olaraq birgə qətiyyətli addımların atılmasının vacibliyini bəyan etmişlər.

Qeyd edək ki, forumda həmçinin BMT-nin təhlükəsizlik sahəsində aidiyyəti strukturları təmsil olunub, Forumun Bəyannaməsinin və Azərbaycan Respublikası Prezidentinin müraciətinin BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədi kimi qeydiyyata alınaraq yayımlanması Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsinin müraciəti əsasında olub.

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Kuba Respublikasına səfər edib

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov, partiyanın Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdiri Hülya Məmmədli və İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərovdan ibarət nümayəndə heyəti Kuba Respublikasına səfər edib.**







Kuba Kommunist Partiyasının (KKP) dəvəti əsasında baş tutan səfər çərçivəsində Kuba Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi, Kuba Respublikasının Prezidenti Migel Mario Dias-Kanel Bermudes nümayəndə heyətini qəbul edib.

Qəbul zamanı Azərbaycan ilə Kuba arasında münasibətlərin tarixi köklərə əsaslandığı qeyd olunaraq xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Kubanın Ali Baş Komandanı Fidel Kastronun bu istiqamətdə müstəsna xidmətləri vurğulanıb. Bu gün ölkələrarası münasibətlərin səmimi dostluq və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə əsaslanmaqla uğurla inkişaf etdiyi bildirilib. Fəal siyasi dialoq şəraitində iqtisadi, ticari, mədəni, tibb, təhsil, turizm, aqrar və digər sahələrdə genişmiqyaslı əməkdaşlıq üçün mühüm potensialın mövcud olduğu qeyd edilib. İstər Azərbaycan, istərsə də Kubanın müasir beynəlxalq münasibətlər sisteminin fəal subyekti kimi milli maraqlara əsaslanan müstəqil siyasət yürütməsinin əhəmiyyəti nəzərə çatdırılıb. Vurğulanıb ki, mürəkkəb qlobal problemlərlə müşayiət olunan və yeni geosiyasi reallıqların meydana çıxdığı müasir dövrdə iki dost ölkənin prinsipial mövqe sərgiləməklə beynəlxalq müstəvidə, o cümlədən BMT, Qoşulmama Hərəkatı kimi təşkilatlar səviyyəsində səmərəli işbirliyini davam etdirməsi dövlət mənafelərinin qorunması baxımından böyük əhəmiyyət daşıyır.

Kubaya qarşı iqtisadi, ticarət və maliyyə embarqosuna son qoyulmasının zəruriliyinə dair BMT Baş Assambleyasında müzakirəyə çıxarılan qətnamə layihələrinin lehinə Azərbaycanın hər zaman səs verdiyi, həmçinin Kubanın ölkəmizin regionda sülh, sabitlik və təhlükəsizlik məsələlərinə dair haqlı və ədalətli mövqeyini bölüşdüyü xatırladılaraq iki ölkənin beynəlxalq hüquq normalarına əsaslanmaqla bir-birinin ərazi bütövlüyü və suverenliyinə birmənalı dəstək verdikləri xüsusi vurğulanıb.

Azərbaycan-Kuba münasibətlərinin gələcək inkişafında hakim partiyalar - Yeni Azərbaycan Partiyası ilə Kuba Kommunist Partiyasının rolu diqqətə çatdırılıb, təmaslar və qarşılıqlı səfərlərin faydalı təcrübə mübadiləsinin aparılması, eləcə də məhsuldar işbirliyinin gücləndirilməsi nöqteyi-nəzərindən önəmi qeyd olunub.

Nümayəndə heyətinin Xalq Hakimiyyəti Milli Assambleyasının və Dövlət Şurasının sədri Xuan Esteban Lazo Hernandes ilə də görüşü keçirilib. Görüşdə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Kuba Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi, Kuba Respublikasının Prezidenti Migel Mario Dias-Kanel Bermudesin iki ölkə arasında əlaqələrin inkişafına böyük önəm verdikləri bildirilib. Siyasi partiyalar və parlamentlər arasında əlaqələrin Azərbaycan-Kuba münasibətlərinin inkişafı xüsusunda əhəmiyyəti qeyd olunub.

Görüş zamanı istər Azərbaycan, istərsə də Kubanın milli maraqlar və beynəlxalq hüquq normalarını əsas götürərək dövlətlərarası münasibətlərin konstruktiv müstəvidə inkişafının tərəfdarı olduğu bildirilib. Yeni geosiyasi reallıqlar fonunda müstəqil siyasət yürüdən dövlətlərə qarşı ikili standartlara əsaslanan siyasətin beynəlxalq təhlükəsizlik və əməkdaşlığa təhdid yaratdığı vurğulanaraq bu hallara qarşı qətiyyətli mübarizənin önəmi qeyd olunub, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

KKP Mərkəzi Komitəsi Katibliyinin üzvü Xose Ramon Monteaqudo Ruiz və Kuba Respublikasının xarici işlər nazirinin birinci müavini Herardo Penyalver Portalın görüşləri zamanı isə YAP nümayəndə heyətinin dost ölkəyə səfərinin önəmi vurğulanaraq qarşılıqlı fikir mübadiləsinin əlaqələrin mövcud vəziyyəti və perspektiv imkanların müzakirəsi baxımından son dərəcə əhəmiyyətli olduğu qeyd edilib.

Səfər çərçivəsində Yeni Azərbaycan Partiyası ilə Kuba Kommunist Partiyası arasında Əməkdaşlıq Sazişi də imzalanıb. Sazişi YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və KKP Mərkəzi Komitəsi Katibliyinin üzvü Xose Ramon Monteaqudo Ruiz imzalayıblar.

Partiyalar arasında çoxşaxəli işbirliyinin əsas istiqamətlərini və mühüm prioritetləri müəyyənləşdirən əməkdaşlıq sazişinin imzalanmasının dövlətlər arasındakı əlaqələrin mühüm tərkib hissəsi kimi partiyalararası münasibətlərdə yeni mərhələnin əsasını qoyacağı və çoxşaxəli əməkdaşlığa xidmət edən siyasi-hüquqi əsasları möhkəmləndirəcəyi vurğulanıb. İki dost ölkənin maraqlarının və hakim partiyaların ortaq hədəflərinin əks olunduğu sazişdən irəli gələn vəzifələrin icra olunması nəticəsində ortaq hədəflərin gerçəkləşdiriləcəyinə əminlik ifadə olunub.

Nümayəndə heyəti Fidel Kastro Mərkəzini də ziyarət edib.

# Sülh prosesi konstruktiv gündəlik üzrə irəliləyir

**Son dövrlərdə Azərbaycan ilə Ermənistan arasındakı sülh prosesinə nəzər yetirərkən görürük ki, hər şey ölkəmizin ilk gündən müəyyənləşdirdiyi gündəlik üzrə gedir. Məsələ ondan ibarətdir ki, Azərbaycan bu işdə diktə siyasətinə deyil, xalqların marağına, birgə yaşamasına, regionun hərtərəfli inteqrasiyasına və münasibətlərin düşmənçilikdən çıxaraq sülh üzərində qurulmasına istiqamət verir.**



Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, 8 avqust tarixli Vaşinqton görüşündən başlayaraq sülhə doğru konkret addımlar atılır. Ağ Evdə imzalanan sənədlər gələcəyə doğru istiqamətlənmiş və heç bir halda qarşısı alınmayacaq müqavilələrdir. Bu müqavilələrlə regionda sülh və təhlükəsizlik daha dayanıqlı əsaslarla təmin olunacaq. Zəngəzur dəhlizi (TRIPP) layihəsinin reallaşması isə sadəcə Azərbaycana iqtisadi dividendlər gətirməyəcək. Bu, təkcə ABŞ-nin və onun biznes ictimaiyyətinin maraqlarına deyil, həm də regionun, eyni zamanda Ermənistanın maraqlarına cavab verən məsələdir.

A.Badamov bildirib ki, Azərbaycan yalnız Ermənistanla münasibətləri yoluna qoymur, digər regional aktorları da balanslaşdırmağı, lazım gələndə neytrallaşdırmağı da bacarıb. Biz İranın da, Rusiyanın da iqtisadi layihələrdə maraqlı olduğunu görürük. Başqa bir məsələ ondan ibarətdir ki, Azərbaycan-Ermənistan münasibətlərinə kökündən zərbə vurmağa çalışan Fransanı da Azərbaycan tam neytrallaşdırmağı bacarıb və bu gün Fransa tərəfindən müsbət addımları müşahidə etməkdəyik.

Deputat vurğulayıb ki, sülh prosesinə zərbə vurmaq istəyən qüvvələrin olmasına baxmayaraq, bu istiqamət üzrə bütün məsələlər konstruktiv gündəlik üzrə irəliləyir: "Burada sadəcə dövlət təsisatları və institutları arasında deyil, həm qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti institutları arasında da intensivləşən münasibətlərin şahidiyik. Bu yanaşmanın özü də sülh prosesinin dayanıqlı əsaslarla inkişafına zəmin yaradır.

Ermənistanda bir qrup insan var ki, heç bir halda Azərbaycanın zəfərini qəbul etmək istəmir, çünki Qarabağ məsələsi onların əlində siyasi alət idi. Qarabağ münaqişəsindən istifadə edərək öz hakimiyyətlərinin müddətini uzadır, hakimiyyətdə oturduqları müddətdə konfliktdən də, resurslardan da öz xeyirləri naminə istifadə edirdilər. Bu qüvvələr sülh prosesinə kölgə salmaq və əldə olunan nəticələri geriyə aparmaq üçün var gücləri ilə çalışırlar. Lakin artıq çox gecdir, xalqlar hər mənada ayılıb".

A.Badamov deyib ki, istər Ermənistanın Baş naziri Nikol Paşinyanın, istərsə də onun komandasına daxil olan insanların bu istiqamətdə qətiyyətli davrandığı göz önündədir. Düzdür, həm Paşinyana, həm də onun komanda üzvlərinə siyasi təzyiqlər göstərənlər, cəmiyyəti onların üstünə qaldırmaq istəyənlər var. Amma Paşinyanın da olduqca düşünülmüş siyasət yürütdüyünü deyə bilərik: "Paşinyanın Qazaxıstana səfəri də məhz bununla bağlıdır. Birincisi, Baş nazir Ermənistanın resurs tələbatını təmin etmək istiqamətində addımlar atır. İkincisi isə qlobal iqtisadi layihələrdə pay sahibi olmaq istəyir. Azərbaycan ötən illər ərzində Ermənistana tranzit ölkə olmaq şanslarını bir neçə dəfə xatırladıb, amma İrəvan işğal siyasətindən əl çəkə bilmədiyi üçün həmin layihələrdən kənarda qalıb. Bu gün artıq tarixi bir məqam yetişib, bunu əldən vermək demək olar ki, dövlət olaraq legitimliyi itirməyə bərabərdir".

Deputat düşünür ki, həm dövlət qurumları, həm QHT, vətəndaş cəmiyyəti institutları, həm də fərd olaraq hər kəs bu işi şüurlu şəkildə dərk etməli, buna müqabil yanaşma ortaya qoymalıdırlar: "Prezident İlham Əliyev tariximizi heç zaman unutmamalı olduğumuzu xalqımız qarşısında yaddaş kitabçası olaraq müəyyənləşdirib. Odur ki, siyasi, iqtisadi və ideoloji baxımdan güclü olmaqla inkişaf yolundan dönməməliyik".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Azərbaycan nümayəndə heyəti Avstriyada rəsmi səfərdə olub

**Avstriya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Tahir Mirkişilinin rəhbərlik etdiyi nümayəndə heyəti Avstriyada rəsmi səfərdə olub.**



Səfər Avstriya Parlamentində Avstriya-Türkiyə, Azərbaycan parlamentlərarası işçi qrupunun rəsmi dəvəti əsasında baş tutub.

Səfər çərçivəsində nümayəndə heyəti noyabrın 25-də Avstriya Parlamentinin spikeri Valter Rozenkrants ilə görüşüb. Görüşdə Azərbaycan və Avstriya arasında ikitərəfli münasibətlərin mövcud vəziyyəti yüksək qiymətləndirilib, parlament diplomatiyasının bu münasibətlərin inkişafına töhfəsi vurğulanıb. Görüşdə həmçinin Avropanın enerji təminatında Azərbaycanın oynadığı rol və Avstriya ilə enerji sahəsində əməkdaşlıq imkanları barədə də fikir mübadiləsi aparılıb.

Görüşdə qarşı tərəfə Vaşinqtonda əldə olunmuş razılaşmalar və davamlı sülhün bərqərar olması istiqamətində növbəti addımlar barədə ətraflı məlumat verilib. Parlament sədri Azərbaycanın sülh gündəliyini təqdir edərək, sülh sazişinin qısa bir zamanda imzalanmasına ümidvar olduğunu vurğulayıb.

Səfər zamanı Avstriya Parlamentində Azərbaycan-Avstriya parlamentlərarası işçi qrupların görüşü keçirilib. Görüşdə Azərbaycanın yerləşdiyi regionda yeni reallıqlar, sülh gündəliyi, "yaşıl enerji"yə keçid, Mərkəzi Asiya ölkələri formatının genişlənməsi və Azərbaycanın bu formata qoşulması ilə yaranan yeni perspektivlər, Avropa və Asiya arasında kommunikasiya imkanlarının inkişafında Azərbaycanın əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb. Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında oynadığı vacib rol və Orta dəhliz üzrə Şərq-Qərb yük daşımalarının artırılması baxımından strateji əhəmiyyəti vurğulanıb. Coğrafi yerləşməsi baxımından Azərbaycanı Avropa ilə Mərkəzi Asiya arasında vacib körpü rolu oynayan bir ölkə kimi qiymətləndirən Avstriya tərəfi enerji və nəqliyyat sahələrində ikitərəfli əsasda da əməkdaşlığın genişləndirilməsinə xüsusi maraq ifadə edib.

Görüşdə həmçinin Avstriya ilə müxtəlif sahələr üzrə əlaqələrin inkişafı perspektivləri və bu əlaqələrin inkişafı üçün ikitərəfli sahədə parlamentlərarası qrupların qarşılıqlı səfərləri müzakirə edilib.

Görüşlərdə Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli və Avstriya ilə parlamentlərarası işçi qrupunun üzvü Azər Kərimli də iştirak ediblər.

***"Azərbaycan"***

# Pakistan və Azərbaycan arasında ikitərəfli münasibətlərin prioritet istiqamətləri müzakirə olunub

**Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif bu ölkədə səfərdə olan iqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, qəbul zamanı Azərbaycan-Pakistan strateji tərəfdaşlığının müxtəlif istiqamətlər üzrə intensiv inkişaf etdiyi və iqtisadi əməkdaşlığa mühüm töhfələr verdiyi vurğulanıb.



Qeyd edilib ki, yüksəksəviyyəli qarşılıqlı səfərlər, keçirilən görüş və tədbirlər, imzalanan sənədlər hər iki ölkə üçün faydalı işbirliyi baxımından mühüm önəm kəsb edir. Bununla yanaşı, investisiya üzrə birgə fəaliyyət, eləcə də digər iqtisadi istiqamətlər üzrə əməkdaşlıq üçün geniş potensial var.

Tərəflər ikitərəfli münasibətlərin prioritet istiqamətləri və biznes əlaqələrinin şaxələndirilməsi barədə fikir mübadiləsi aparıblar.

# Azərbaycanla Polşa arasında minatəmizləmə sahəsində mümkün əməkdaşlıq perspektivləri müzakirə edilib

**Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyəti sədrinin birinci müavini Şamil Rzayev və sədrin müavini Samir Poladov Polşa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Pavel Radomski ilə görüş keçirib. Bu barədə ANAMA-nın Mətbuat xidmətindən məlumat verilib.**



Bildirilib ki, görüşdə ölkəmizin üzləşdiyi mina problemi və onun miqyası, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi istiqamətində görülən işlər barədə səfirə məlumat verilib.

Görüş zamanı Azərbaycanda həyata keçirilən humanitar minatəmizləmə fəaliyyətinə Polşa tərəfindən dəstək imkanları, mümkün əməkdaşlıq perspektivləri, habelə qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan, İran və Rusiya arasında Anlaşma Memorandumu imzalanıb

**Azərbaycan, İran və Rusiya arasında üçtərəfli Anlaşma Memorandumu imzalanıb.**

AZƏRTAC xəbər verir ki, memorandumun imzalanması üçtərəfli əməkdaşlığın uzunmüddətli inkişafında və "Şimal-Cənub" marşrutunun qərb istiqamətinin effektivliyinin artırılmasında mühüm addım olacaq.



Sənəd tarif yanaşmalarının uzlaşdırılmasını, vahid kompleks tarifin formalaşdırılmasını, müntəzəm blok-qatarların buraxılmasını və daşımalar üzrə prosedurların təkmilləşdirilməsini nəzərdə tutur. Bu mexanizmlərin həyata keçirilməsi Rusiya, Azərbaycan və İran arasında proqnozlaşdırıla bilən, sürətli və iqtisadi cəhətdən daha səmərəli logistika zəncirinin qurulmasına imkan verəcək. Ümumilikdə, bu razılaşma tərəflərin beynəlxalq nəqliyyat dəhlizlərində etibarlı iştirakçı kimi mövqelərini gücləndirir və regionda tranzit axınlarının davamlı artırılması üçün əlverişli şərait yaradır.

# RİNN-də Beynəlxalq Əmək Təşkilatı ilə görüş keçirilib

**Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov Beynəlxalq Əmək Təşkilatının (BƏT) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Ofisinin direktoru Mixail Puşkin ilə görüşüb.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən (RİNN) AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycanın 2006-cı il Dənizçilik Əmək Konvensiyasının (Maritime Labour Convention, MLC) həyata keçirilməsi istiqamətində atdığı addımlar, bu prosesin ölkəmiz üçün yaradacağı imkanlar və gözlənilən nəticələr müzakirə olunub.

Tərəflər konvensiyanın ratifikasiyası və səmərəli icrası üçün tələb olunan beynəlxalq standartların tətbiqi ilə bağlı mövcud çağırışlar ətrafında fikir mübadiləsi aparıblar. Beynəlxalq Əmək Təşkilatı bu istiqamətdə Azərbaycana texniki və institusional dəstək göstərməyə hazır olduğunu bildirib.

Görüşdə həmçinin dəniz nəqliyyatının rəqəmsallaşdırılması, bu sahədə insan kapitalının gücləndirilməsi və qabaqcıl beynəlxalq təcrübənin tətbiqi üzrə əməkdaşlıq perspektivləri nəzərdən keçirilib.

# Azərbaycanın xarici siyasətinin uğurları

# İndi sülhə daha yaxınıq



**İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni tarixi-siyasi reallıq Azərbaycanın regional mövqeyinin möhkəmləndirilməsini və beynəlxalq münasibətlər sistemindəki rolunun daha da artmasını şərtləndirib. Yəni hərbi-siyasi qələbə ilə Azərbaycan həm də bölgədəki statusunu daha da möhkəmləndirib.**

Bu bir həqiqətdir ki, Prezident İlham Əliyevin uğurlu hərbi və siyasi diplomatiyası sayəsində onilliklərdir davam edən Azərbaycan-Ermənistan münaqişəsi yalnız hərbi qələbə ilə deyil, həm də beynəlxalq hüquq çərçivəsində təsbit olunmuş sülh razılaşması ilə başa çatmaq üzrədir. 2025-ci ilin avqustunda ABŞ-nin vasitəçiliyi ilə sülh sazişinin mətninin paraflanması prosesin strateji mərhələyə keçidini təmin edib. Bu hadisə regionda uzun müddətdir gözlənilən siyasi transformasiyanın başlanğıcı kimi qiymətləndirilir.

Tərəflər arasında imzalanacaq sazişin əsas müddəaları iki ölkənin bir-birinin ərazi bütövlüyünü tanıması, sərhədlərin delimitasiyası və demarkasiyasını, regional kommunikasiyaların açılmasını, humanitar məsələlərin tənzimlənməsi və qarşılıqlı zəmanət mexanizminin yaradılmasını əhatə edir.

Düzdür, Ermənistan ABŞ görüşünə qədər müxtəlif zamanlarda ayrı-ayrı vasitəçilərin təşkil etdikləri sülh danışıqlarında əvvəlcə razılıq bildirib, sonradan fikrini dəfələrlə dəyişmişdi. Amma Ağ Evdə keçirilən üçtərəfli görüşdən sonra Baş nazir Nikol Paşinyan Ermənistan cəmiyyətini sülhə hazırlamaq üçün fəaliyyətə başladı. Ermənistanda sülh prosesinin icra mərhələsinə keçdiyini bildirən Baş nazir Nikol Paşinyanın açıqlamalarından görünür ki, İrəvan bu mərhələni yalnız diplomatik sənəd imzalamaq kimi deyil, həm də regiondakı təhlükəsizlik arxitekturasını yenidən qurmaq şansı kimi dəyərləndirir. Paşinyanın ifadə etdiyi kimi, sülh sazişi Ermənistan üçün "strateji müqavilə"dir və ölkəni uzunmüddətli izolyasiyadan çıxarmağı hədəfləyir.

## Bu tarixi nailiyyət İlham Əliyevin siyasi iradəsinin və prinsipial qətiyyətinin nəticəsidir

Ermənistan yeni konstitusiyanın qəbulu ilə bağlı referendumun keçirilmə vaxtını müəyyənləşdirib. Baş nazir Nikol Paşinyan bildirib ki, referendum parlament seçkilərindən - 2026-cı ildən sonra təşkil olunacaq. Burada Paşinyan öncə seçkilərin necə keçəcəyini, yəni partiyasının qalib gəlib-gəlməyəcəyini əsas tutaraq söyləyir. Əgər onun partiyası qalib gələrsə, sülh sazişi 2026-cı ildə imzalana bilər: "Mən daxili legitimliyimizi gücləndirməyi fundamental məsələ hesab edirəm, bu da yeni konstitusiyanın qəbulunda öz əksini tapmalıdır", - deyə Paşinyan bildirib.

Qalib Komandan, Prezident İlham Əliyev isə sülh danışıqlarını qiymətləndirərkən qeyd ebib ki, 2020-ci il 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz, həmçinin 2023-cü ildə qətiyyətli antiterror tədbirləri nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu. Bununla da ölkəmizin ərazi bütövlüyü və əzəli torpaqlarımız üzərində suverenliyi bərpa olundu. Bu tarixi nailiyyət yalnız Azərbaycanın milli iradəsinin və əzmkar mübarizəsinin təntənəsi deyil, eyni zamanda bölgədə ədalətin, sülhün və sabitliyin bərqərar olunmasına mühüm töhfədir: "Vaşinqtonda, Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazı sülh məkanına çevirəcək. Vaşinqton Zirvəsi çərçivəsində, eyni zamanda ATƏT-in Minsk qrupunun və əlaqədar strukturların bağlanması üçün edilmiş birgə müraciətə uyğun olaraq, sentyabrın 1-də ATƏT tərəfindən qəbul edilmiş qərarla keçmiş münaqişənin bu qalıqları da aradan qaldırıldı. Beləliklə, atdığımız addımlar Azərbaycanın irəli sürdüyü sülh gündəliyini bir daha təsdiq etdi".

Prezident vurğulayıb ki, sülh, regional bağlantılar və iqtisadi inkişafla əlaqəli olan digər mühüm istiqamət enerji təhlükəsizliyidir. Ölkəmiz bu məqsədlərin qlobal səviyyədə təmin edilməsində fəal rol oynayır. Azərbaycan bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləyib.

Onu da qeyd edək ki, artıq tərəflər arasında sülhün təşviqi üçün yaradılan "Sülh Körpüsü" Təşəbbüsünün ilkin mərhələsi təqdirəlayiq hesab edilib. Belə ki, noyabrın 21-22-də "Sülh Körpüsü" Təşəbbüsü çərçivəsində Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət qrupun Azərbaycana səfəri baş tutub. Onların keçirdikləri görüşlərdə Azərbaycan və Ermənistan arasında sülh prosesinin dinamikası, vətəndaş cəmiyyətinin dialoqun bərpasındakı rolu və yaxın gələcəkdə icra olunacaq birgə layihələr müzakirə olunub, həmçinin sülh prosesi ilə bağlı hər iki cəmiyyəti maraqlandıran aktual mövzulara da toxunulub. Bundan əlavə, media məkanında birgə fəaliyyətin intensivləşdirilməsi, ekspert qrupları arasında birbaşa əlaqələrin qurulması, Azərbaycan və Ermənistan vətəndaş cəmiyyətlərinin sülh prosesinə daha geniş şəkildə cəlb edilməsi barədə razılıq əldə olunub.

"Sülh Körpüsü" Təşəbbüsü çərçivəsində işgüzar səviyyədə əlaqələrin və hər iki ölkəyə qarşılıqlı səfərlərin davam etdirilməsi də qərara alınıb.

Səfər zamanı "Sülh Körpüsü" Təşəbbüsü üzvləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə də görüşüblər. Səmimi şəraitdə keçən fikir mübadiləsi zamanı Vaşinqton görüşündən sonra Azərbaycan və Ermənistan tərəfindən sülh gündəliyinin möhkəmləndirilməsi istiqamətində atılan addımlar müzakirə olunub. Hikmət Hacıyev təşəbbüs üzvlərinin suallarını cavablandırıb.

Beləliklə, Vətən müharibəsinin 5-ci ildönümündə sülhü əldə etməyə həmişəkindən daha yaxınıq. Vaşinqton sülh sazişinin mətninnin paraflanması bir mərhələ kimi yekun deyil, başlanğıcdır. Bu mərhələnin uğurla tamamlanması üçün diplomatiya, təhlükəsizlik və iqtisadi layihələrin icrası paralel və əlaqələndirilmiş şəkildə aparılmalıdır.

Bütün bunlar reallaşarsa, sülh müqaviləsi tezliklə imzalanar və bununla da Cənubi Qafqazda yeni sülh dövrü başlayar.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanla Ermənistan arasında sülh Cənubi Qafqaza sabitlik və təhlükəsizlik gətirəcək

## Son illər bu istiqamətdə atılan addımlar regionda yeni reallıqların yarandığını göstərir

**Regionda sabitliyin, təhlükəsizliyin bərqərar olması yolunda ən böyük maneəyə çevrilmiş münaqişəyə 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində son qoyuldu. Müzəffər Azərbaycan Ordusunun işğalçı ölkənin silahlı qüvvələrini döyüş meydanlarında məğlubiyyətə uğratması nəticəsində 1990-cı illərdən bəri Ermənistanın işğalı altında olan ərazilərimiz azadlığa qovuşdu.**



2023-cü ilin sentyabrında isə Silahlı Qüvvələrimiz Qarabağı tərk etmək niyyətində olmayan, təxribat və terror əməllərindən əl çəkməyən Ermənistan silahlı qüvvələrinin tör-töküntülərini və separatçıları ağ bayraq qaldırmağa məcbur etdi.

Azərbaycanın Vətən müharibəsində və antiterror əməliyyatlarında qazandığı qələbələr Ermənistanın uzun illər davam etdirdiyi qəsbkarlığın sonu oldu. Ədalətin, haqqın təntənəsi olan, Azərbaycan xalqını dünyaya qalib xalq kimi tanıdan bu Zəfər həm də Cənubi Qafqaza sülh ümidləri gətirdi.

İstər Vətən müharibəsindən öncə, istərsə də sonra Azərbaycan hər zaman sülhün tərəfdarı olduğunu verdiyi qərarlarla, əməli işlərlə nümayiş etdirib. Bildiyimiz kimi, Vətən müharibəsindən sonra sülh sazişinin imzalanmasının təşəbbüskarı da qalib Azərbaycan dövləti olub. Rəsmi Bakı hər zaman bu istiqamətdə məqsədyönlü və qətiyyətli addımlar atıb.

Bu il avqustun 8-də ABŞ-nin vasitəçiliyi ilə sülh sazişi mətninin paraflanması sülh prosesinin yeni və həlledici mərhələyə qədəm qoyduğunu göstərdi. İki ölkənin - Azərbaycanla Ermənistanın bir-birinin ərazi bütövlüyünü tanıması, sərhədlərin delimitasiyası və demarkasiyası, regional kommunikasiyaların açılması, humanitar məsələlərin tənzimlənməsi və qarşılıqlı qarant mexanizminin yaradılması sözügedən sazişin əsas müddəalarında yer aldı.

Amma Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasının bu qədər real, yaxın olduğu, prosesin müsbət dinamika qazandığı bir vaxtda Ermənistanın həm daxilində, həm də ondan kənarda sülhdən narazı qüvvələr ortaya çıxması təəssüf doğurur. Onların məqsədlərinin regionda sabitliyin bərqərar olmasını əngəlləmək və köhnə qarşıdurma mühitinə qayıtmaq olduğu açıq-aşkardır. Halbuki Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, sülhün yaradacağı iqtisadi və kommunikasiya üstünlükləri ən çox məhz iqtisadi imkanları məhdud olan Ermənistan üçün sərfəlidir. Bu həqiqət deməyə əsas verir ki, Ermənistanın daxilində və xaricdə olan bəzi qüvvələr iki ölkə arasında sülh sazişinin imzalanmasına maneələr yaratmaq cəhdləri ilə ilk növbədə özlərini təəssübkeşi kimi göstərdikləri ermənilərə zərbə vurur, düşmən kəsilirlər.

Revanşist dairələr və onlara dəstək verən siyasi qüvvələr cəmiyyətdə çaşqınlıq yaratmağa, sülhün əleyhinə təbliğat aparmağa cəhd göstərirlər. Sarkisyan-Koçaryan cütlüyü hələ də cəmiyyəti müharibə ritorikasına qaytarmağa çalışır. Ancaq erməni xalqının böyük hissəsi bu çağırışlara laqeyd yanaşır, onlara etibar etmədiklərini nümayiş etdirirlər. Çünki uzun illər davam etmiş qarşıdurmanın nəticələrini ən ağır şəkildə yaşayan məhz sadə erməni xalqı olub.

Ermənistanın Baş naziri Nikol Paşinyanı "təslimçi siyasət yürütməkdə" ittiham edən, dövlətçiliyin təhlükə altında olduğunu deyərək haray-həşir salan müxalif qüvvələr sülh sazişinə qarşı çıxmaqla, əslində, Ermənistanı növbəti dəfə bataqlığa, fəlakətlərə sürükləməyə çalışırlar. Öz ölkəsinin real vəziyyətini və gələcəyini nəzərə alan Nikol Paşinyan isə dəfələrlə bildirib ki, münaqişənin davam etməsi Ermənistanın təhlükəsizliyini daha da zəiflədir və iqtisadi çətinliklərini dərinləşdirir. Ermənistanın Baş naziri bu reallıqdan çıxış edərək sülh sazişinin imzalanmasını ölkənin milli maraqları ilə uzlaşdırılan addım hesab edir.

Azərbaycan tərəfi Ermənistan konstitusiyasında əksini tapan "Dağlıq Qarabağ"la bağlı iddiaların aradan qaldırılmasını tələb edir. Beynəlxalq hüquq normalarına əsasən də Azərbaycanın bu haqlı tələbi dərhal yerinə yetirilməlidir. Ermənistanda sülh müqaviləsinin imzalanmasına etiraz etmək adı ilə, əslində, necə deyərlər, suyu bulandırmağa, aranı qızışdırmağa çalışan revanşist dairələr və onlara dəstək verənlər isə konstitusiyanın dəyişdirilməsi məsələsində aqressivlik nümayiş etdirirlər. Lakin baş verən proseslər göstərir ki, onlar bu məqsədlərinə də çatmayacaqlar.

Ermənistanın Baş naziri Nikol Paşinyan bu günlərdə siyasi elita ilə qapalı görüşdə bildirib: "Mən daxili legitimliyimizi gücləndirməyi fundamental məsələ hesab edirəm, bu da yeni konstitusiyanın qəbulunda öz əksini tapmalıdır". O, dövlət qulluqçuları qarşısında çıxışında beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü müdafiə etmək hüququndan, yeni Konstitusiyanın qəbul edilməsinin zəruriliyindən də danışıb: "Silah və texnika əldə etmək və müdafiə texnologiyalarına çıxış imkanları eksponent olaraq artır. Mən daxili legitimliyimizi gücləndirməyi fundamental məsələ hesab edirəm ki, bu da yeni konstitusiyanın qəbulunda öz əksini tapmalıdır".

Hazırkı mərhələdə sülh sazişinin mətni razılaşdırılıb və tərəflər arasında siyasi iradə mövcuddur. Prosesin uğurla nəticələnməsi həm diplomatik çeviklik, həm də cəsarətli siyasi qərarlar tələb edir. Bu gün atılan addımlar gələcək onilliklər üçün regionun təhlükəsizliyini müəyyənləşdirəcək, uzun illər davam etmiş gərginliyin, yerini, nəhayət əməkdaşlıq və sabitlik tutacaq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın məqsədi sülhü təmin etməkdir

**Noyabrın 8-də Bakıda keçirilən Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş parad Azərbaycanın hərbi qüdrətinin növbəti nümayişi oldu. Bir daha göründü ki, ordumuzun arsenalı müasir silah və texnika, o cümlədən ən qabaqcıl hərbi texnologiyalarla zənginləşdirilir. Eyni zamanda hərbi parad belə bir reallığı təsdiq etdi ki, Azərbaycan Ordusu 5 il əvvəllə müqayisədə döyüş imkanlarını əhəmiyyətli dərəcədə artırıb.**

## Regionun hərbi gücü

Bütövlükdə Azərbaycan Silahlı Qüvvələri döyüş hazırlığından başlamış bütün göstəricilərinə qədər regionun ən böyük və qüdrətli hərbi gücü hesab olunur. Silahlı Qüvvələrimizin bütün seqmentlərinin döyüş imkanları peşəkar kadrlar, ən müasir hərbi texnologiyalar əsasında formalaşıb. Paradda nümayiş etdirilən bir sıra silah və texnikalar isə dünyada çox az sayda dövlətlərin silahlanmasında yer alır və bu faktor Azərbaycanın mükəmməl hərbi tərəfdaşlığından xəbər verir.

155 millimetrlik uzaqmənzilli NORA, 155 millimetrlik uzaqmənzilli DİTA özüyeriyən artilleriya sistemi, PULS üzərindən buraxılan SkyStriker BLOK-4 sərbəst uçan döyüş sursatları sistemi, PULS üzərində 370 millimetrlik yüksəkdəqiqlikli "Predator Hawk" (HOUK) əməliyyat taktiki raket kompleksi, beşinci nəsil İCEBREAKER (Aysbreker) qanadlı raket kompleksi, C-27J yük təyyarələri, JF-17 çoxməqsədli qırıcı təyyarələr silahlanmaya qəbul edilmiş yeni silahlar və hərbi texnikalar kimi hər kəsə qürur yaşatdı.

Azərbaycan müdafiə qabiliyyətinin və ordunun döyüş imkanlarının artırılması işində yalnız dostları və ya strateji tərəfdaşları ilə əməkdaşlıq etmir. Respublikamızın getdikcə daha da güclənən hərbi sənayesi hərbi və müdafiə imkanlarımızın böyüməsində böyük rol oynayır. Təsadüfi deyil ki, paradda nümayiş etdirilən və silahlanmaya yeni qəbul edilmiş hərbi texnikanın bir hissəsi Azərbaycanın müdafiə sənayesinin istehsalı idi.

## Hərbi üstünlük regionda sülhün qorunmasında respublikamızın rolunu daha da möhkəmləndirir

Onu da qeyd etməliyik ki, hərbi gücümüz hər hansı dövlətə qarşı yönəlməyib. Azərbaycan üçün müharibə bitib. Torpaqlarımız işğaldan azad olunub, ərazi bütövlüyümüz bərpa edilib. Qarabağ savaşı artıq keçmişdə qalıb. Azərbaycanın hərbi gücü yalnız sülhə xidmət edir. Malik olduğumuz üstün hərbi imkanlar regionda sülhün qorunmasında və təmin edilməsində respublikamızın rolunu daha da möhkəmləndirir. Prezident İlham Əliyev avqust ayında Kəlbəcər şəhər sakinləri ilə görüşdə bildirdi ki, biz bundan sonra heç kimlə müharibə aparmaq fikrində deyilik. Lakin dövlətimizin başçısının qeyd etdiyi kimi, əgər bizə qarşı hər hansı bir təhlükə yaranarsa, onda yenə də "dəmir yumruğ"umuzu hər kəs görəcək.

Bəli, respublikamızın artan hərbi gücü hansısa tərəfə qarşı yönəlməyib. Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində son proseslər ondan xəbər verir ki, rəsmi Bakının əsas məqsədlərindən biri regionda dayanıqlı sülhün təmin edilməsidir. Hələ Vətən müharibəsindən sonra Ermənistanla sülh danışıqlarının başlanmasının təşəbbüskarı rəsmi Bakıdır. Sülhlə bağlı prinsipləri də Bakı müəyyən edib. Avqust ayında Vaşinqtonda paraflanan sülh sazişi layihəsinin mətnini də Azərbaycan tərəfi hazırlayıb. Bütün bunlar ölkəmizin niyyətinin məhz sülh olduğunu təsdiq edən çoxsaylı faktlardır. Bu baxımdan Azərbaycanın sülhə qarşı olmasını düşünmək absurddur.

Dünənə qədər Ermənistanın işğal siyasətinə dəstək verən bir sıra Qərb siyasi mərkəzlərinin də mövqelərində fərqlilik görünməkdədir. Onlar da artıq Azərbaycanın regionda yaratdığı reallıqları qəbul etməkdən başqa yollarının olmadığı qənaətindədirlər. Məsələn, avqust ayında Vaşinqtonda sülh sazişinin paraflanmasını alqışlayanlandan biri də Fransa idi.

## Azərbaycan öz yolu ilə inamla gedən dövlətdir

Sülhə qarşı çıxanlar hazırda Ermənistandakı revanşist kəsimdir. Revanşistlərə bağlı olan media orqanlarında davamlı şəkildə sülh prosesinə kölgə salınmasına, erməni ictimai rəyində yanlış təəssüratların formalaşdırılmasına cəhd edilir. O cümlədən Ermənistanda hökumət-kilsə qarşıdurmasında hakimiyyət orqanları hədəfə götürülür. Çünki Ermənistanda revanşizmi körükləyən əsas qüvvə məhz kilsədir. Revanşistlərə xidmət edən media Ermənistanda həmçinin yeni konstitusiyanın da qəbuluna qarşı çıxır. Bu cür KİV-də Azərbaycan daim hədəfdədir. Ona görə respublikamızın müdafiə qabiliyyətini gücləndirməsi Ermənistana qarşı təhdid kimi qiymətləndirilir. Amma revanşistlərin Bakıdakı hərbi paradla bağlı yazdıqlarında yalnız qərəz deyil, həm də qorxu və həyəcan görünməkdədir. Lakin qeyd etdiyimiz kimi, Azərbaycan üçün savaş bitib və Bakının məqsədi yalnız etibarlı və dayanıqlı sülhə nail olmaqdır.

Əlbəttə, Ermənistan mediasında dərc olunan yazıların və ya sapı özümüzdən olan baltaların Azərbaycanın hərbi imkanları və hərbi sənayesi barədə nə demələrinin heç bir əhəmiyyəti yoxdur. Hələ Vətən müharibəsinə qədər Avropanın bir sıra siyasi mərkəzləri və qurumları Azərbaycanı özünün haqlı yolundan dayandırmaq, işğalı əbədi etmək üçün dayanmadan dövlətimizin uğurlarına və inkişafına kölgə salmağa çalışır, Avropa Parlamentində mütəmadi olaraq sənədlər qəbul edirdilər. Lakin bütün niyyətləri puça çıxdı və nəticə etibarilə Azərbaycan dövləti 44 günlük müharibədə torpaqlarının işğaldan azad edilməsinə nail oldu. 2023-cü ilin sentyabrında isə erməni separatizminə son qoydu.

Qeyd olunan bu məsələlər göstərir ki, Azərbaycan məqsədlərinə çatan dövlətdir. Ona görə ordumuzun döyüş imkanlarının artırılması ölkəmiz üçün bundan sonra da prioritet vəzifə olacaq. O cümlədən sülh sazişinin imzalanması üçün Ermənistanın ev tapşırıqlarını yerinə yetirməsi təmin olunacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycan TDT-nin güclənməsinə xüsusi önəm verir

**Azərbaycan QHT-ləri artıq yeni müstəvidə fəaliyyət göstərir, bunun üçün olduqca münbit iqlim və böyük fürsətlər, yeni, əlçatan imkanlar yaradılıb. QHT-lərə dövlətin diqqəti və dəstəyi hər zaman hiss edilir. QHT sektoru xarici siyasətimizin prioritet məsələlərində dövlət siyasətinin gücləndirilməsinə yardımçı olur. Xarici siyasətimizin prioritet sahələrindən biri də Türk Dövlətləri Təşkilatının gücləndirilməsi, onun qlobal miqyasda vahid güc mərkəzlərindən birinə çevrilməsidir.**



Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, hazırda ölkəmizin Türk Dövlətləri Təşkilatı ilə əməkdaşlığı bir çox sahəni əhatə edir. İndi isə vətəndaş cəmiyyəti seqmenti də bu sahədə əməkdaşlığı gücləndirir. Ölkəmizdə keçirilən Türk Dövlətləri Təşkilatına üzv olan dövlətlərin vətəndaş cəmiyyəti təşkilatlarının həmrəylik forumunda 8 ölkədən QHT-lər təmsil olunur. Türk dövlətləri ilə hazırki münasibətlərin dinamikası bu əlaqələrin gələcəkdə daha da güclənəcəyini göstərir. "Etnik oxşarlıqlar, ortaq dil, din, mədəni və tarixi köklər Azərbaycan və Mərkəzi Asiya platformasını altılıq konseptinə gətirib. Prezident İlham Əliyevin xüsusi xidmətlərinə görə Türk Dövlətləri Təşkilatı artıq vahid platforma kimi çıxış edir. Dövlət başçısı TDT-nin həm ideoloji, həm də institusional baxımdan güclənməsinə mühüm töhfə verib. Şuşa və Budapeştdə keçirilən qeyri-rəsmi Zirvə görüşlərində, eləcə də bu il Qəbələdə keçirilmiş TDT 12-ci Zirvə görüşündə ölkə rəhbərinin təşəbbüsləri türk dövlətləri arasında əməkdaşlığın strateji istiqamətlərini müəyyənləşdirib", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Azərbaycan hazırda Türk Dövlətləri Təşkilatına sədrlik edən ölkə kimi, üzv dövlətlərin vətəndaş cəmiyyəti institutları arasında əlaqə və ictimai kommunikasiyanı gücləndirməyə xüsusi önəm verir. Son günlər Bakıda keçirilən Qızıl Aypara Cəmiyyətləri Prezidentlər Şurasının iclası, hazırda QHT həmrəylik forumu və yaxın zamanda təşkil olunacaq TDT-nin media və informasiya nazirlərinin toplantısı bu fəaliyyətin geniş miqyasını göstərir.

Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının gücləndirilməsinə xüsusi önəm verdiyini və bu yöndə uzaqgörən siyasət həyata keçirdiyini vurğulayan Pərvanə Vəliyeva deyib ki, 2024-cü il fevralın 14-də Prezidentin andiçmə mərasimində çıxışı zamanı "Bizim ailəmiz türk dünyasıdır" ifadəsini işlətməsi təsadüfi deyil: "Bu gün türk xalqlarının tarix boyunca at belində səfər etdikləri qədim yollardan biri olan Zəngəzur dəhlizi dövlət başçımızın uğurlu diplomatik gücü sayəsində yenidən açılacaq. Anadoludan Mərkəzi Asiyaya uzanan qədim yol - Zəngəzur dəhlizinin açılması türk dünyasının əsrlərdən bəri mövcud olan bağlarının bərpasıdır. Enerji, ticarət və logistikada türk dünyasını bir-birinə daha da bağlayacaq bu dəhliz türk dünyasının birlik vizyonudur. Mərkəzi Asiya+Azərbaycan və Avropa marşrutu alternativ, sabit və təhlükəsiz ticarət yoluna çevrilir. Bu istiqamətdə yükdaşımaları artıb, iqtisadi, humanitar, mədəni sahələrdə əlaqələr sürətlə inkişaf edir. Zəngəzur dəhlizi həm Orta dəhliz, həm də "Şimal-Cənub" dəhlizi çərçivəsində yeni nəqliyyat arteriyası və ikinci marşrut kimi mühüm əhəmiyyət kəsb edəcək. Prezident müraciətində qeyd edir ki, Qarabağda əldə etdiyimiz Zəfər türk dünyasının Zəfəridir. Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Macarıstanın dövlət və hökumət başçılarının Azərbaycanın azad olunmuş ərazilərində qardaşlıq hədiyyəsi olan məktəb, məscid, yaradıcılıq mərkəzinin tikilməsi, eləcə də gələcəkdə məktəblərin inşasının planlaşdırılması qardaş türk dövlətlərinin Azərbaycana olan dərin hörmət və yüksək etimadının nəticəsidir".

Deputat bildirib ki, 2026-cı ildə I Türkoloji Qurultayın 100 illiyinin qeyd olunması türk xalqlarının mədəni inteqrasiyasına dair yarımçıq qalmış işlərin QHT-lərin iştirakı ilə müasir çağırışlara uyğun şəkildə davam etdirilməsi baxımından əhəmiyyətlidir. Türk dünyası QHT-lərinin BMT və digər beynəlxalq platformalarda birgə və koordinasiyalı fəaliyyəti vahid mövqenin formalaşmasına, bu mövqenin qorunmasına və təbliğinə böyük töhfə verə bilər. Prezident həmçinin forum iştirakçılarına müraciətində Azərbaycanın TDT ölkələri ilə birgə, bu ölkələrin QHT-ləri üçün tarix, mədəniyyət, ekologiya, iqlim siyasəti və digər sahələri əhatə edən ortaq qrant proqramları elan etməyə və qarşılıqlı əlaqəni gücləndirən təşəbbüsləri dəstəkləməyə hazır olduğunu bildirdi.

Pərvanə Vəliyeva qeyd edib ki, bu, QHT-lərin yaratdığı ilk beynəlxalq şəbəkə deyil. Bundan öncə, Qlobal Cənub QHT Platformasının təsis olunması barədə çağırışına 120 ölkənin yer aldığı Qoşulmama Hərəkatı regionunun 116 ölkəsi dəstək verib. Bu ölkələrin hər birindən aparıcı QHT-lərin iştirakı ilə 2025-ci il aprelin 28-də Bakıda Qlobal Cənub QHT Platforması təsis olundu. Bu, Qoşulmama Hərəkatı regionunda QHT-ləri birləşdirən ilk şəbəkədir. "Bu platformanın təşəbbüskarı Azərbaycan Milli QHT Forumu olub. Platformanın növbəti Baş Assambleyasına qədər ona rəhbərliyi məhz Azərbaycan Milli QHT Forumu edir. Gələcəkdə hansı ölkənin təmsilçisinin platformaya rəhbərlik etməsindən asılı olmayaraq, onun mərkəzi qərargahı Bakıda yerləşəcək. Azərbaycan Prezidenti İlham Əliyevin bu platformanın fəaliyyətinə yüksək qiymət verməsi onun həm AQEM konfransı, həm də təsis konfransı iştirakçılarına müraciətində öz əksini tapıb. Azərbaycanın təşəbbüsü ilə 100-dən çox ölkədən 500-ə yaxın QHT-nin birləşdiyi COP29 QHT Koalisiyası iqlim diplomatiyası, qlobal ətraf mühitin qorunması hərəkatında QHT-lərin iştirakçılığını, rolunu gücləndirdi, COP-ların keçirilməsində yeni təcrübə formalaşdırdı", - deyə o əlavə edib.

Deputatın sözlərinə görə, Azərbaycan Milli QHT Forumu 2026-cı ildə Bakıda keçiriləcək Dünya Şəhərsalma Forumuna da ciddi hazırlaşır. Forumun təşəbbüsü ilə "WUF13 QHT Koalisiyası" artıq təsis olunub. Hibrid formatda keçirilən təsis konfransına 18 ölkədən 25 xarici QHT qatılıb. Xarici QHT-lərdən burada təmsil olunmaq üçün çoxsaylı müraciət qəbul olunur. "WUF13 QHT Koalisiyası" hibrid formada görüşləri davam etdirir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-ləri Azərbaycanda həmrəylik nümayiş etdiriblər

**Tarixi bağlılığa, ortaq dəyərlərə malik olan türk dövlətlərinin sıx əməkdaşlıq münasibətləri qurması və gündən-günə inkişaf etdirməsi sevindiricidir. Azərbaycanın təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin qeyri-hökumət təşkilatlarının (QHT) ilk dəfə bir platformada toplaşması bu istiqamətdə növbəti uğurlu addım olub.**






Açılış mərasimi noyabrın 24-də Bakıda keçirilən, Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Respublikasından 500-dən çox vətəndaş cəmiyyəti təmsilçisinin qatıldığı forum QHT-lərə Dövlət Dəstəyi Agentliyinin xətti ilə təşkil olunan ən böyük tədbir kimi yadda qalıb.

Dövlətimizin başçısı İlham Əliyevin Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun iştirakçılarına ünvanladığı məktubda qeyd olunub ki, türk dövlətlərinin artan potensialı və qlobal müstəvidə gündən-günə güclənən mövqeyi daha iddialı məqsədlərin qarşıya qoyulmasını, birgə səylərin artırılmasını, bütün sahələrdə əməkdaşlığın dərinləşdirilməsini, çevik mexanizmlərin yaradılmasını zəruri edir. Prezident İlham Əliyev ilk dəfə keçirilən Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunu bu istiqamətdə atılmış mühüm addım kimi dəyərləndirib.

Hazırda dünyada mürəkkəb ictimai-siyasi hadisələr baş verməkdədir. Təəssüf ki, hamımızın evi olan Yer kürəsinin yeganə xilas yoluna - sülhə, sabitliyə xidmət etməyən, dəstəklənməyən, bütün xalqların rifahına səy göstərmək yerinə, qarşıdurmalara rəvac verənlər, münaqişələri alovlandırmağa çalışanlar az deyil. Belə bir zamanda dostluq, xeyirxahlıq üzərində qurulan əməkdaşlıqlar olduqca mühüm və əhəmiyyətlidir.

Təqdirəlayiqdir ki, türk dövlətləri sülh, sabitlik, inkişaf istiqamətində qurduqları əməkdaşlığı daha da möhkəmləndirirlər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, tərəqqi ideyalarına sadiq olan dost və qardaş xalqlarımızı ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlər möhkəm bir ailə kimi birləşdirir, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsini şərtləndirir.

Dövlətimizin başçısı Azərbaycanın Türk Dövlətləri Təşkilatına hazırda sədrlik edən ölkə kimi üzv ölkələrin vətəndaş cəmiyyəti təsisatları arasında da ictimai kommunikasiyanın gücləndirilməsinə çalışdığını diqqətə çatdırıb. Qeyd edib ki, bu günlərdə Bakıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Qızıl Aypara Cəmiyyətləri Prezidentlər Şurasının iclasının keçirilməsi, QHT-lərin indiki həmrəylik forumu və ardınca TDT-nin media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin növbəti toplantısı bu sahədə aparılan işlərin miqyasını və çoxşaxəli xarakterini nümayiş etdirir: "Bu gün türk dünyası özünün yüksəliş dövrünü yaşayır. Beş il əvvəl qazandığımız Qarabağ Zəfəri türk xalqlarının ümumi sevinci və qürur mənbəyidir. İnanıram ki, hazırda yenidən qurulan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, açılacaq Zəngəzur dəhlizi türk dövlətləri arasında əməkdaşlığın inkişafında və möhkəmlənməsində mühüm rol oynayacaqdır".

Dövlətimizin başçısı onu da nəzərə çatdırıb ki, Azərbaycan Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə ikitərəfli və çoxtərəfli əsasda QHT-lər üçün tarix, mədəniyyət, ekologiya, iqlim siyasəti və digər sahələrdə ortaq qrant müsabiqələri elan etməyə, qarşılıqlı kommunikasiyanı gücləndirən layihələri dəstəkləməyə hazırdır.

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun iştirakçılarına ünvanladığı məktubda 2026-cı ildə 100 illiyi keçiriləcək I Türkoloji Qurultayın türk xalqlarının mədəni inteqrasiyası məsələləri ilə bağlı yarımçıq qalmış işlərinin QHT-lərin yaxından iştirakı ilə müasir çağırışlara uyğun davam etdirilməsinin önəmini də vurğulayıb. Dövlətimizin başçısı forum zamanı qurulacaq əməkdaşlıq əlaqələrinin türk dünyasında həmrəyliyin, birliyin və ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini ifadə edib.

Bakının evsahibliyi etdiyi forumda açılış nitqlərindən sonra iki - "Zəngəzur dəhlizi: türk coğrafiyasını birləşdirən körpü" və "Azərbaycan-Qazaxıstan QHT-lərinin I Əməkdaşlıq Forumu" panel müzakirələri keçirilib. "Zəngəzur dəhlizi: türk coğrafiyasını birləşdirən körpü"nün əsas müzakirə mövzusu regional əməkdaşlıq və vətəndaş cəmiyyətinin təşəbbüsləri olub. Zəngəzur dəhlizinin türk dünyası üçün strateji əhəmiyyətindən, bu marşrutun regiondaxili inteqrasiyanı gücləndirən mühüm nəqliyyat və əməkdaşlıq xətti kimi rolundan danışılıb, vətəndaş cəmiyyəti institutlarının bu prosesə verdiyi töhfələri diqqətə çatdırılıb. İkinci panel müzakirələrində isə iki ölkənin vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Vurğulanıb ki, gənclərin fəallığının artırılması, sosial innovasiyaların təşviqi, icmaların inkişafı və könüllülük fəaliyyətinin genişləndirilməsi gələcək əməkdaşlığın prioritet istiqamətləri sırasında yer almalıdır.

Noyabrın 25-də TDT-yə üzv ölkələrin QHT-lərinin həmrəylik forumu işini Naxçıvan şəhərində davam etdirib. Forum çərçivəsində rəsmi çıxışlar edilib. "WUF13-ə doğru - Türk dünyasında ilk" mövzusunda panel müzakirə keçirilib. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurdakı nəhəng quruculuq və bərpa işlərinin miqyasının və sürətinin dünyanın post-münaqişə bölgələri üçün nümunə olması diqqət mərkəzində saxlanılıb.

Xatırladaq ki, bu ilin aprelində Bakıda dünyanın üçdə iki hissəsini əhatə edən bölgədən olan vətəndaş cəmiyyəti təsisatlarının iştirakı ilə Qlobal Cənub QHT Platforması da təsis edilib. Eyni zamanda 2025-ci ildə dünya müsəlmanlarının 60 faizinin yaşadığı, "İslam Səkkizliyi" adlanan D8 ölkələrinin QHT-lərinin ilk görüşü də Azərbaycanda təşkil olunub. Oktyabrın 20-də Xankəndidə Azərbaycan Qeyri-Hökumət Təşkilatlarının Əməkdaşlıq Forumu çərçivəsində "Dünyaya açılmış Azərbaycan QHT-ləri: təklənməyə qarşı birləşmə texnikası" adlı panel müzakirəsində son iki ildə Azərbaycan QHT-lərinin ən böyük uğurunun dünyaya açılmaları olduğu xüsusi vurğulanıb. Bu istiqamətdə prosesin mühüm tərkib hissəsi Türk Dövlətləri Təşkilatına Üzv Dövlətlərin QHT-lərinin Platformasının təsis olunmasıdır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Dəyişən dünyanın yeni gücü - türk dünyası

### Azərbaycan bu dünyanın öncül ölkəsidir




**Məlum səbəblərdən uzun illər türk dünyası tarixin səhnəsindən siyasi güc kimi silinmişdi. Orta Asiyadakı türk dövlətləri və Azərbaycan əvvəllər çar, sonra isə sovet imperiyasının tərkibində olmuşdur. Təkcə qardaş Türkiyə müstəqilliyini qoruyub saxlaya bilmişdir. O da üç qitədə yerləşən möhtəşəm Osmanlı imperiyasının qalıqları üzərində qurulmuşdu.**

Bu üzdən əzəmətli keçmişi olan türk dünyası qlobal proseslərdə boy göstərə bilmirdi. Sovet imperiyasının dağılmasından sonra da onun varisi olan Rusiya türk dövlətlərinin müstəqilliyinə formal baxırdı. Uzun illər şimal qonşumuz bu müstəqilliklə barışmır və böyük bir regionu özünün arxa bağçası kimi görürdü.

Prezident İlham Əliyevin öncüllük etdiyi türk dünyasının birləməsi ideyasını türk dövlətləri rəğbətlə qarşıladı. Hamı anladı ki, güc birlikdədir və yenidən dünya siyasi səhnəsinə qayıtmağın yeganə yolu budur. Təbii ki, bu proses xeyli vaxt apardı. Amma qardaş ölkələr bir-biri ilə yaxınlaşıb güclü olduqca bu birliklə hesablaşmağa başladılar. Bu baxımdan, noyabrın 6-da Vaşinqtonda ABŞ, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan arasında "C5+1" formatında tədbir keçirildikdən sonra Rusiyanın reaksiyası nahaq yerdən maraq doğurmurdu. Şimal qonşumuzun hələ də imperiya təfəkküründən qurtula bilməyən siyasətçiləri həmin formata qarşı mənfi reaksiya göstərsə də, dövlətin rəsmi mövqeyi belə oldu: "Onlar müstəqil dövlətlərdir, istədiyi ölkələrlə əlaqələr qura bilər".

Şimal qonşumuzun belə rəsmi mövqe sərgiləməsi onu göstərir ki, türk dünyası real gücə çevrilib və onunla əlaqələr qurmaq lazımdır, keçmiş keçmişdə qalıb. Ancaq hələ də Rusiyada bu mövqe ilə barışmaq istəməyən yüksək ranqlı dövlət məmurları və siyasətçilər çoxdur. Buna baxmayaraq, türk dünyasının siyasi və iqtisadi cəhətdən gücü artır, beynəlxalq məsələlərdə söz sahibi olur.

Türk dünyasına qarşı çıxan ikinci bir dövlət isə cənub qonşumuz İrandır. Bu ölkə uzun illər türk dünyasının birləşməsinin əleyhinə olduğunu açıq şəkildə bəyan edir, türk birliyini özünün ərazi bütövlüyünə təhlükə kimi görürdü. İranın Zəngəzur dəhlizinin (TRIPP) açılmasına qarşı çıxmasının başlıca səbəbi də türk dünyası arasında quru sərhədin yaranması idi. İranın yeni Prezidenti Məsud Pezeşkian isə əksinə, ölkənin türk dövlətləri ilə sıx əlaqələr qurmasına üstünlük verir. İranda buna qarşı çıxan qüvvələr olsa da, əməkdaşlığı sanksiyalar altında olan ölkələri üçün faydalı olduğunu düşünənlər də çoxdur.

Hazırda türk dünyası ilə əməkdaşlığı daha da genişləndirmək üçün Rusiya, Çin və ABŞ başda olmaqla, Qərb dünyası arasında ciddi mübarizə gedir. Buna siyasi, iqtisadi və hərbi prizmadan baxmaq lazımdır. Türk dünyasına bütün tərəflərin marağı eyni olsa da, baxış bucaqları müxtəlifdir və hər bir tərəf burada öz maraqları çərçivəsində siyasət aparır.

Şimal qonşumuz anlayır ki, türk dünyası Qərbin təsiri altına düşüb onların sanksiyalarına qoşulsa, daha çıxılmaz vəziyyətə düşə bilər. Rusiya-Ukrayna müharibəsi bu ölkəni hərbi, iqtisadi və siyasi cəhətdən zəiflədib və dünya siyasətindən müəyyən qədər təcrid edib. O üzdən, Rusiya türk dünyasına təzyiq göstərmək əvəzinə, əməkdaşlığa üstünlük verir. Digər tərəfdən, Orta Asiyada ABŞ və ya NATO-nun iştirakından qorxur. Çünki bu regionda Qərbin hərbi mövcudluğu Rusiya üçün ciddi narahatlıq yaradar. Bunların olmaması üçün yeganə düzgün yol türk dünyası ilə bərabərhüquqlu əməkdaşlıqdan keçir və görünən odur ki, şimal qonşumuz istər-istəməz bu qaydaya riayət etməyə məcburdur.

Çinin Orta Asiyaya iki baxışı var: birincisi, bu regionun zəngin enerji resurslarından istifadə etmək. Hazırda Çin-ABŞ qarşıdurması Çinə İran və ərəb ölkələrindən enerji resursları əldə etməyə maneçilik törətməyə imkan verir. Bu baxımdan ki, ABŞ Çinə həmin strateji məhsulları daşıyan gəmiçilik şirkətlərinə qadağa qoya bilər. Belə olan halda yüksələn Çin iqtisadiyyatı böyük zərbə alar, ölkənin iqtisadi inkişafında problemlər yaranar. Dünyanın ən böyük istehsalçısı olan Çin isə bunu, əlbəttə, arzulamır. O səbəbdən Asiya nəhəngi Orta Asiya ölkələrinə öz sabit enerji mənbəyi kimi baxır. "Əjdahalar ölkəsi" qonşu regionla birbaşa quru sərhədlərlə bağlı olduğu üçün, necə deyərlər, araya girmək mümkünsüzdür.

Çin türk dünyası ilə sıx iqtisadi əlaqələr qurmasına böyük əhəmiyyət verir. Odur ki, bu regiona ən çox investisiya qoyan ölkə Çindir. Amma Çin strateji sahələrə sərmayə qoymaqla da kifayətlənmir. Hazırda Çin kapitalı türk dövlətlərinin bütün sahələrini əhatə edir. Məqsəd həmin ölkələri qarşılıqlı maraqlarla özünə daha sıx bağlamaqdır.

Çinin ikinci strateji marağı isə türk dövlətləri vasitəsilə Avropa və dünya bazarına çıxmaqdır. Məlum olduğu kimi, dünya ticarətinin 80 faizindən çoxu okean və dənizlər üzərindən həyata keçirilir. Dünyanın okean və dənizlərdəki ticarət yollarına isə ABŞ hərbi donanması nəzarət edir. Əgər Çin-ABŞ əlaqələri gərginləşib silahlı münaqişəyə çevrilərsə, bu ticarətin aparılması mümkünsüz olacaq. Bunu nəzərə alan Çin Avropa və dünya bazarına çıxışın türk dünyasından asılı olduğunu dərk edir və onun "bir kəmər, bir yol" layihəsi də bu amala xidmət edir. Eyni zamanda dünyada Orta dəhliz kimi tanınan mühüm qlobal ticarət marşrutunun keçdiyi ölkələr də türk dövlətləridir. Bu o deməkdir ki, Çinin Avropa və dünya ilə ticarət aparması türk dövlətləri ilə olan münasibətlərindən asılıdır.

Azərbaycan və Çin münasibətlərinin yüksək səviyyədə olması da bununla bağlıdır. Çünki Azərbaycan Orta dəhlizdə və "Şimal-Cənub" marşrutunda açar ölkədir və Çinin hər iki marşruta böyük ehtiyacı var. Zəngəzur dəhlizinin (TRIPP) açılmasına bu ölkənin xüsusi maraq göstərməsi də milli maraqları ilə bağlıdır. Üstəlik, Azərbaycanla Ermənistan arasında Vaşinqtonda Zəngəzur dəhlizinin açılması ilə bağlı razılaşmaya Çinin isti yanaşması həmin maraqdan irəli gəlir.

Qərbin türk dünyasına maraq göstərməsinin siyasi, iqtisadi və hərbi maraqları daha böyükdür. İqtisadi maraqlarda önəmli yeri enerji resursları tutur. Bildiyimiz kimi, Orta Asiyada olan türk dövlətləri zəngin neft-qaz yataqlarına sahibdir. Amerika bu resursları Avropa bazarına çıxarmaq və bununla "qoca qitə"nin Rusiya neft-qazından olan asılılığını aradan qaldırmaq istəyir. ABŞ həm də bununla xalq arasında deyildiyi kimi, "bir güllə ilə iki qaz vurmaq istəyir". Çünki zəif Rusiyaya öz şərtlərini daha asanlıqla qəbul etdirməyin mümkün olacağını düşünür.

ABŞ-nin ikinci bir hədəfi isə Qazaxıstanla Özbəkistanın uran yataqlarını birgə istismar etməklə onu öz nəzarətində saxlamaqdır. Hazırda dünyada kəşf edilən uran yataqlarının yarısı bu iki türk dövlətinə məxsusdur. Uran isə təkcə silah deyil, həm də zəngin enerji mənbəyidir. Məsələn, Fransa 50-dən çox atom elektrik stansiyasında istehsal etdiyi enerji ilə ölkənin tələbatını təmin edir. Rusiya-Ukrayna müharibəsində Fransanın şimal qonşumuza qarşı daha aqressiv siyasət yürütməsinin bir səbəbi də dolayısı bununla bağlıdır. Çünki Fransanın digər Avropa ölkələri ilə müqayisədə Rusiya qazına ehtiyacı yoxdur.

Son dövrlər Fransanın ölkəmizə qarşı apardığı sərt və qərəzli siyasətinin bir qədər yumşaldığını görürük. Hətta erməni diasporu bundan rahatsız olduğunu açıq şəkildə dilə gətirir. Fransanın siyasətində bu dönüş təsadüfi deyil. Belə ki, Fransa özünün talançı siyasəti üzündən uranla zəngin olan Afrika ölkələrindən qovulduğundan atom elektrik stansiyalarının urana olan tələbatını ödəmək üçün Qazaxıstana üz tutub. E.Makronun bu ölkəyə səfərdə müzakirə etdiyi başlıca məsələ də uranla bağlı razılaşma əldə etmək idi. Belə olan halda Fransa uranı Azərbaycan ərazisindən aparmalı olacaq. Beynəlxalq qanunlara görə, uranın daşınması üçün tranzit ölkələrin xüsusi razılığı olmalıdır. Azərbaycan isə bu marşrutda əsas tranzit ölkədir.

Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində Azərbaycan dünya üçün əhəmiyyətli ölkəyə çevrilib. Avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında imzalanan sənəd, ölkəmizin "5+1"-ə tamhüquqlu üzv olması bunu növbəti dəfə təsdiq etdi. Eyni zamanda Azərbaycan türk dünyasını həm siyasi, həm də coğrafi baxımdan birləşdirən ölkədir. Yəni türk dünyasının birliyinin yaranmasında Azərbaycan öncül rol oynayır və bunu bütün dünya qəbul edir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

## Türk Dövlətləri Təşkilatı mövqelərini gücləndirir

**"Bu gün türk dünyası özünün yüksəliş dövrünü yaşayır. Beş il əvvəl qazandığımız Qarabağ Zəfəri türk xalqlarının ümumi sevinci və qürur mənbəyidir. İnanıram ki, hazırda yenidən qurulan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, açılacaq Zəngəzur dəhlizi türk dövlətləri arasında əməkdaşlığın inkişafında və möhkəmlənməsində mühüm rol oynayacaqdır".**




Noyabrın 24-də Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun iştirakçılarına müraciətində Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın əldə etdiyi qalibiyyətlər və uğurlar bu gün həm də türk dünyasının sıx birliyinə, əməkdaşlığının daha da dərinləşməsinə zəmin yaradıb.

İkinci Qarabağ savaşında qazanılan zəfər, 2023-cü ildə Azərbaycanın suverenliyini təmin etməsi və bu silsilə qələbələrin özü ilə gətirdiyi xeyli avantajlar birbaşa TDT-yə üzv ölkələrin də inkişaf meyarına çevrilib. Məlumdur ki, bu il avqustun 8-də Vaşinqtonda regionla bağlı bir çox əhəmiyyətli razılaşmalar əldə edildi. Bunlardan biri isə Zəngəzur dəhlizinin (TRIPP) açılması məsələsi idi ki, bu özlüyündə vaxtilə geosiyasi coğrafiya baxımından məqsədyönlü şəkildə bir-birindən ayrı salınan türk dövlətlərinin yenidən birləşməsi anlamına gəlir. Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirən və Orta dəhlizin mühüm hissəsinə çevriləcək Zəngəzur dəhlizinin (TRIPP) türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsində tarixi rolu olacağı şübhəsizdir.

### Azərbaycan töhfəsi

Türkdilli dövlətlərin həmrəyliyinin günümüzün zərurətinə çevrilməsi danılmaz gerçəklikdir. Ortaq tarixə, milli köklərə, dilə, mədəniyyətə malik türk dünyası ailəsinin vahid güc mərkəzi kimi çıxış etməsi, beynəlxalq məsələlərdə birgə rəy ortaya qoyması reallıqdır. Dünyanın çoxşaxəli qütblərə bölündüyü hazırkı dövrdə türkdilli ölkələrin bir cərgədə dayanması, getdikcə TDT-nin güclənməsi və nüfuzunun dünyaya yayılması hər zaman arzu etdiyimiz böyük birliyin gerçəkləşdirilməsi anlamına da gəlir.

TDT-nin lokomotivlərindən olan Azərbaycan hər zaman türk dövlətləri arasında birliyə layiqli töhfələr verir. 2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının 9-cu Zirvə görüşü Naxçıvanda olub. Həmin zaman "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan sazişi"i imzalanıb. Naxçıvan sazişində təşkilatın yaradılmasında əsas məqsədlər kimi tərəflər arasında qarşılıqlı etimad, dostluq və xoş qonşuluğun möhkəmləndirilməsi, regionda və ümumilikdə dünyada sülhün qorunması, təhlükəsizlik və etimadın gücləndirilməsi nəzərdə tutulub. Həmçinin siyasi, ticari-iqtisadi, hüquq-mühafizə, təbiətin mühafizəsi, mədəni, elmi-texniki, hərbi-texniki, təhsil, enerji, nəqliyyat, kredit-maliyyə və ümumi maraq kəsb edən digər sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın təşviqi, türk xalqlarının böyük mədəni-tarixi irsinin təbliği, tanınması və yayılmasında kütləvi informasiya vasitələri arasında qarşılıqlı əlaqənin və tərəflər arasında təmasların təşviqi və sair yer alıb. Naxçıvan Zirvə görüşündə yaradılan Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının (Türk Şurası) adı 2021-ci ildə İstanbulda keçirilən tarixi Zirvə görüşündə dəyişdirilərək Türk Dövlətləri Təşkilatı olub.

TDT-nin üzv və müşahidəçiləri arasında siyasətdən iqtisadiyyata, nəqliyyatdan gömrüyə, enerjidən kənd təsərrüfatına, təhsildən gənclik və idmana, rəqəmsallaşmadan ədalət və təhlükəsizliyə, mədəniyyətdən turizm və sağlamlığa qədər 30-dan artıq fərqli sahə üzrə çoxistiqamətli əməkdaşlığı həyata keçirdiyi bildirilir.

### Naxçıvan səhifəsi

Noyabrın 24-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun keçirilməsi, ayın 25-də isə Naxçıvan şəhərində keçirilən həmrəylik forumu çərçivəsində TDT üzv və müşahidəçi ölkələrin qeyri-hökumət təşkilatlarını birləşdirən yeni platformanın təsis olunması da müstəsna tarixi hadisədir. Necə ki, 2009-cu ildə Naxçıvanda "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan sazişi"inin imzalanmasının timsalında türk dünyasının tarixində yeni bir səhifə yazılmışdı, 25 noyabr 2025-ci ildə bir daha bu qədim türk yurdunda tarixi hadisə yaşandı.

TDT-yə üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun iştirakçılarına müraciətində Prezident İlham Əliyev bildirib ki, Azərbaycan bu təşkilata üzv ölkələrlə ikitərəfli və çoxtərəfli əsasda QHT-lər üçün tarix, mədəniyyət, ekologiya, iqlim siyasəti və digər sahələrdə ortaq qrant müsabiqələri elan etməyə, qarşılıqlı kommunikasiyanı gücləndirən layihələri dəstəkləməyə hazırdır: "2026-cı ildə 100 illiyi keçiriləcək Birinci Türkoloji Qurultayın türk xalqlarının mədəni inteqrasiyası məsələləri ilə bağlı yarımçıq qalmış işlərinin QHT-lərin yaxından iştirakı ilə müasir çağırışlara uyğun davam etdirilməsi də xüsusi aktuallıq kəsb edir. Türk dünyası QHT-lərinin BMT və digər beynəlxalq təsisatlar çərçivəsində birgə, koordinasiyalı fəaliyyəti, vahid platformada birləşməsi ümumi işimizə və məqsədlərimizə böyük töhfə verə bilər".

TDT üzv və müşahidəçi ölkələrin qeyri-hökumət təşkilatlarını birləşdirən yeni platformanın təsis olunması türkdilli xalqların daha da yaxınlaşmasına, onların səslərini dünyaya daha gur çatdırmasına geniş imkanlar yaradacaq. Bu həm də xalqlarımız arasında ictimai kommunikasiyanı gücləndirəcək.

Ümumiyyətlə, TDT-nin siyasi, iqtisadi, təhlükəsizlik baxımından daha sıx inteqrasiya olunmuş müttəfiqlik platformasına çevrilməsi, ictimai, mədəni əlaqələrinin genişlənməsi türkdilli dövlətlərin qarşısındakı çağırışdır. Təşkilatın işinə daim əməli töhfələr verən Azərbaycan TDT-nin daha da güclənməsi, nüfuzunun artması, onun yalnız regional deyil, qlobal miqyaslı problemlərin həllinin aktiv iştirakçısına çevrilməsi üçün böyük səy göstərir və bunun uğurlu bəhrələri də əyani müstəvidə özünü göstərir. Türk dövlətlərinin təşkilatlanmasında aparıcı güc mərkəzlərindən olan ölkəmizin təşəbbüsləri və çağırışları türk dünyası ailəsinin gələcək əməkdaşlığına, inkişafına, perspektivlərinə hesablanıb.

Adıçəkilən həmrəylik forumunun iştirakçılarına müraciətində Prezident İlham Əliyev vurğulayıb ki, türk dövlətlərinin artan potensialı və qlobal müstəvidə gündən-günə güclənən mövqeyi daha iddialı məqsədlərin qarşıya qoyulmasını, birgə səylərin artırılmasını, bütün sahələrdə əməkdaşlığın dərinləşdirilməsini, çevik mexanizmlərin yaradılmasını zəruri edir.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## TDT ölkələri QHT-lərinin Platformasının təsis olunması əməkdaşlığın və inteqrasiyanın güclənməsinə təkan verəcək



**"Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin Platformasının təsis olunması bu qurumun yalnız siyasi deyil, həm də ictimai-sosial müstəvidə əməkdaşlığından xəbər verir. Bu, eyni zamanda türk dövlətləri arasında əməkdaşlığın və inteqrasiyanın güclənməsinə təkan verəcək".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında türk siyasi şərhçi İsmail Cingöz söyləyib.

Onun sözlərinə görə, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin həmrəylik forumunun ölkəmizdə keçirilməsi təsadüfi deyil. Türk dünyasının mədəni və strateji mərkəzlərindən olan Azərbaycan Türk Dövlətləri Təşkilatının müxtəlif proqramlarına evsahibliyi edir. Bu baxımdan, Azərbaycanda vətəndaş cəmiyyəti və diaspor fəaliyyətlərinin kifayət qədər inkişaf etməsi ölkəmizi bu təcrübədən faydalanmaq istəyən QHT-lər üçün əlverişli və səmərəli platformaya çevirir.

İsmail Cingöz bildirib ki, Azərbaycanın evsahibliyi etdiyi tədbirdə türk dünyası QHT-lərinin Platformasının yaradılması, humanitar fəaliyyətlərin koordinasiyası, türk dili və ortaq mədəni irs layihələri, ortaq gənclik düşərgələri, diaspor əməkdaşlığı, rəqəmsal transformasiya və əlifba birliyi kimi mövzular ətraflı şəkildə müzakirə edilib. "Əsas hədəf TDT ölkələri arasında həmrəyliyin artırılması, sosial, mədəni və humanitar istiqamətlərdə ortaq layihələrin inkişaf edilməsi, gənclik, təhsil, ətraf mühit, diaspor kimi sahələrdə birgə fəaliyyət planlarının hazırlanması və vətəndaş cəmiyyəti ilə diaspor şəbəkələrinin inteqrasiyasının gücləndirilməsidir. Bu səbəbdən tədbir türk dünyası üçün mühüm addım kimi qiymətləndirilə bilər", - deyə o əlavə edib.

Siyasi şərhçi onu da vurğulayıb ki, hazırda yeni dünya sistemi formalaşmaq üzrədir: "Şərqdə Pekin, Qərbdə London mərkəz olmaqla, ikiqütblü bir düzən qurmağa çalışırlar. Lakin bu iki qütbün tam mərkəzində, üç qitəni birləşdirən strateji məkan məhz Türk Dövlətləri Təşkilatı coğrafiyası yerləşir. Buna görə də yeni dünya düzəni formalaşdırılarkən Türk Dövlətləri Təşkilatını nəzərə almamaq mümkün deyil və bu reallığın təsdiqi getdikcə daha da güclənir".

## "Mütərəqqi düşüncəli QHT liderləri ilə əməkdaşlıq bizim üçün mühüm əhəmiyyətə malikdir"

**"Noyabrın 24-də Bakıda başlayan və Naxçıvanda davam edən Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumu türk dünyasının vətəndaş cəmiyyətləri arasında əməkdaşlığın yeni mərhələsidir. Bizim 30 il ərzində planlaşdırdığımız, ancaq həyata keçirə bilmədiyimiz çox böyük bir tədbir baş tutdu. Bu forumu türk dünyası QHT-lərinin Zirvə toplantısı da adlandırmaq olar. Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Şimali Kipr Türk Respublikası və Macarıstandan nümayəndələrin iştirak etdiyi həmrəylik forumu türk dünyası QHT-lərinin yeni bir platformasıdır".**



Bunu AZƏRTAC-a açıqlamasında Bakı İctimai Əməkdaşlıq Mərkəzinin sədri Rauf Zeyni deyib.

Onun sözlərinə görə, yaranmış yeni imkanlardan istifadə edərək vətəndaş cəmiyyətlərinin bütün istiqamətlərdə əməkdaşlığını gücləndirmək məqsədilə müzakirələr aparılıb: "Əməkdaşlıq məsələlərində ekoloji problemlərə qarşı birgə mübarizə, təhlükəsizlik məsələləri, qarşılıqlı dəstək mexanizmləri öz əksini tapıb. Bu mexanizmlər həm ölkəmiz, həm də region üçün birgə layihələrin həyata keçirilməsində yeni fürsətlər yaradır. Hesab edirəm ki, həm yerli QHT-lər, həm də türk dünyasının QHT-ləri bu mənada çox böyük imkanlar qazanıblar".

Forumun panel müzakirələrində iştirakçıların çıxışlarının maraqla qarşılandığını diqqətə çatdıran QHT sədri əlavə edib: "Demək olar ki, fikirlərimiz üst-üstə düşür. Türk dünyası Zəngəzur dəhlizi, vətəndaş cəmiyyətlərinin inkişafı, təhlükəsizlik, iqtisadi inkişaf, ictimai-mədəni əlaqələr və sairə kimi məsələlərdə eyni fikirdədir. Mütərəqqi düşüncəli QHT liderləri ilə əməkdaşlıq bizim üçün mühüm əhəmiyyətə malikdir".

## Türk dünyası irsinin Almaniyada təbliğinə dair müzakirələr aparılıb

**Berlin Xarici Siyasət Forumunda iştirak etmək üçün Almaniyada səfərdə olan Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömürəlıyev ilə Azərbaycanın Almaniyadakı səfirliyində görüş keçirilib. Görüşdə türk dövlətlərinin Almaniyadakı səfirləri də iştirak ediblər.**



AZƏRTAC xəbər verir ki, söhbət zamanı TDT-nin fəaliyyəti, həyata keçirilən layihələr və TDT Dövlət Başçıları Şurasının Qəbələdə keçirilmiş 12-ci Zirvə Görüşündə müəyyən edilmiş hədəflərin icrası, səfirliklər arasında əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə olunub.

Bundan əlavə, ortaq türk tarixi və mədəni irsinin Almaniyada tanıdılması istiqamətində planlaşdırılan tədbirlər, mədəniyyət və incəsənət sahəsində birgə fəaliyyət və layihələr, həmçinin digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev çıxışında bildirib ki, türk dünyası hazırda inkişaf və birlik baxımından yeni mərhələyə qədəm qoyub. Səfir vurğulayıb ki, türk dövlətləri arasında müxtəlif sahələrdə səmərəli əməkdaşlıq və qarşılıqlı dəstək münasibətlərin möhkəmlənməsinə və qardaş xalqlar arasında birliyin güclənməsinə xidmət edir.

## "Azərbaycan ABŞ üçün mühüm tərəfdaşa çevrilir"

**"ABŞ-nin Cənubi Qafqaz regionundakı mövqeləri inkişaf etməkdə davam edir və Azərbaycan əsas nəqliyyat və enerji marşrutlarının kəsişməsindəki strateji yerləşməsi sayəsində Vaşinqton üçün mühüm tərəfdaşa çevrilir".**



Bunu AZƏRTAC-ın "Azərbaycan və dünya" proqramının növbəti buraxılışında amerikalı politoloq Samson Katsman deyib.

Onun sözlərinə görə, Azərbaycanın rolu təkcə tranzit qovşağı və enerji resursları təchizatçısı kimi deyil, həm də regional və beynəlxalq təhlükəsizliyin əsas aktoru kimi əhəmiyyətlidir. O, terror təhdidlərinin neytrallaşdırılması, sərhəd təhlükəsizliyinin təmin edilməsi və hibrid təhdidlərin qarşısının alınması sahələrində ABŞ ilə Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi potensialını vurğulayıb.

Onun fikrincə, iki ölkənin bu sahələrdə qarşılıqlı fəaliyyəti hələ yeni başlayır, lakin artıq mühüm addımlar görünür və münasibətlərin bundan sonrakı inkişaf perspektivləri yüksəkdir.

Politoloq həmçinin Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində ABŞ-nin vasitəçi kimi rolunun güclənməsi imkanını şərh edib. O vurğulayıb ki, Azərbaycanın unikal tranzit rolu və müxtəlif beynəlxalq tərəfdaşlarla balanslaşdırılmış münasibətləri bunun üçün əsas yaradır.

Eyni zamanda S.Katsman ABŞ-nin Azərbaycana investisiya yatırılmasını məhdudlaşdıran qanunvericilik maneələrinə diqqət çəkərək bildirib ki, onların yenidən nəzərdən keçirilməsi Amerikanın daha fəal iştirakına təkan verə bilər.

"Azərbaycan Cənubi Qafqaz ilə Mərkəzi Asiya ölkələri arasında nəqliyyat və iqtisadi körpü kimi unikal mövqedə durur". O qeyd edib ki, ABŞ xüsusilə də texnoloji əməkdaşlıqla birgə Azərbaycanın bu mövqeyindən regional sabitliyin və iqtisadi inkişafın gücləndirilməsi üçün istifadə edə bilər.

Politoloq vurğulayıb ki, Ukraynadakı müharibə və İranın təsiri də daxil olmaqla, hazırkı qeyri-sabitlik yaradan amillər hələlik imkanları məhdudlaşdırır, lakin beynəlxalq vəziyyətin yaxşılaşdığı təqdirdə regionun perspektivləri kifayət qədər müsbət ola bilər.

S. Katsman həmçinin Cənubi Qafqazda əməkdaşlığın daha da inkişafına və sabitliyin möhkəmlənməsinə ümid etdiyini bildirib. O vurğulayıb ki, region kommunikasiya xətlərinin açılmasına və beynəlxalq tərəfdaşların fəal dəstəyinə ehtiyac duyur.

## "Beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı üçün Azərbaycan geniş infrastruktur layihələri həyata keçirib"



**"Azərbaycan Prezidenti İlham Əliyev uzaqgörən və müdrik addım ataraq Ermənistan ilə dəmir yolu əlaqəsinin bərpa edilməsinə icazə verdi".**

AZƏRTAC xəbər verir ki, bu sözləri "Rusiya Dəmir Yolları" ASC-nin Baş direktoru və İdarə Heyətinin sədri Oleq Belozyorov MDB Dəmir Yolu Nəqliyyatı Şurasının 83-cü iclasında çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, məhdudiyyətin aradan qaldırılması yükdaşımaların həcmini artırmaqla yanaşı, nəqliyyat dəhlizlərinin də inkişafına əsaslı təkan verəcək.

"Beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı üçün Azərbaycan geniş infrastruktur layihələr həyata keçirib. Azərbaycan ilə Rusiya "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı istiqamətində yaxından əməkdaşlıq edirlər ki, bu da həm ikitərəfli nəqliyyat əlaqələrinin, həm də tranzit yükdaşımaların həcminin artmasına imkan verir. Hazırda şuranın qarşısında dəmir yolu infrastrukturunun rəqəmsallaşdırılması, təhlükəsizliyin təmin olunması, vahid tariflərin müəyyən edilməsi kimi məsələlər dayanır", - deyə O.Belozyorov vurğulayıb.

## "Türk dövlətləri arasında əməkdaşlıq artıq yeni mərhələyə qədəm qoyub"



**"Tarixi proseslərə nəzər salsaq görərik ki, türk dövlətləri və cəmiyyətləri arasında əməkdaşlıq uzun illər ərzində arzulanan səviyyədə olmayıb. Buna xarici təsirlər və müəyyən güc mərkəzlərinin türklərin bir araya gəlməsini əngəlləmək cəhdləri səbəb olub. Bu ölkələrdə yaşayan xalqların hamısı mahiyyət etibarilə türkdür və türk kimliyinə malikdir. Lakin müxtəlif vasitələrlə bu birliyin qarşısını alınmağa, türk dünyasını parçalamağa cəhdlər edilib. Məqsəd türk xalqlarının bir yumruq kimi hərəkət etməsinin qarşısını almaq olub".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında türkiyəli Zəki Gümüş söyləyib. O qeyd edib ki, Türk Dövlətləri Təşkilatının (TDT) yaradılması ilə bu maneələr tədricən aradan qalxmağa başlayıb: "Artıq "türk dövlət ağlı" formalaşır. Bu gün əməkdaşlıq kifayət qədər yüksək səviyyəyə çatıb. Proses hələ qısa müddətdir davam edir, lakin gələcəkdə türk dövlətlərinin birgə hərəkəti dünya siyasətində ciddi cazibə mərkəzinə çevrilə bilər".

Zəki Gümüş vurğulayıb ki, Türkiyə və Azərbaycan başda olmaqla türk dövlətləri siyasi müstəvidə olduğu kimi, vətəndaş cəmiyyəti, idman, mədəniyyət, incəsənət, musiqi və kino sahələrində də əməkdaşlıq imkanlarını genişləndirir: "Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının Azərbaycanda keçirilən həmrəylik forumu çərçivəsində bir çox problemlər və layihələr müzakirə olunub. QHT-lər arasında münasibətlər artıq daha yaxşı səviyyədədir və bu istiqamətdə konkret layihələr üzərində iş aparılır".

Jurnalist əlavə edib ki, bu prosesin daha da inkişafı zaman tələb etsə də, mövcud dinamika türk dünyasının daha güclü və koordinasiyalı əməkdaşlığa doğru irəlilədiyini göstərir.

# Ankarada Türkiyə-Azərbaycan əməkdaşlığının gücləndirilməsi məsələləri müzakirə edilib



**Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfov Türkiyəyə səfər edərək, qardaş ölkənin xarici işlər naziri Hakan Fidan, Türkiyə Prezidentinin baş müşaviri Akif Çağatay Kılıç və xarici işlər nazirinin müavini Berris Ekinci ilə görüşlər keçirib.**

Ölkəmizin Ankaradakı səfirliyindən AZƏRTAC-a verilən məlumata əsasən, görüşlərdə iki ölkə arasında qardaşlıq münasibətlərinə əsaslanan əlaqələrin tarixi, habelə gələcək inkişaf perspektivləri nəzərdən keçirilib, regionumuzda və qlobal səviyyədə əməkdaşlığın bundan sonra da gücləndirilməsi məqsədilə bütün istiqamətlərdə qarşılıqlı fəaliyyətlərin artırılması məsələləri müzakirə edilib.

Tərəflər qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Bununla yanaşı, Azərbaycanın hazırda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə (AQEM) sədrliyinin gündəliyindən irəli gələn məsələləri, o cümlədən AQEM-in beynəlxalq təşkilata transformasiyası mövzusunda müzakirələr aparılıb.

# "Cinayətkarlığa qarşı mübarizənin aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib



**Noyabrın 26-da Daxili İşlər Nazirliyinin (DİN) Polis Akademiyasının təşkilatçılığı ilə "Cinayətkarlığa qarşı mübarizənin aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Tədbirdə Türkiyə, Macarıstan, Polşa, Moldova, Gürcüstan, Bolqarıstan, Serbiya, Özbəkistan, Tacikistan, Türkmənistan, Qazaxıstan və Qırğız Respublikasının nümayəndələri iştirak ediblər. Bununla yanaşı, Milli Məclis və DİN-in müxtəlif qurumlarının məsul şəxsləri, həmçinin Bakı Dövlət Universiteti, Polis Akademiyası və Milli Aviasiya Akademiyasının əməkdaşları, magistrant və doktorantları da tədbirə qatılıblar.

Bu barədə AZƏRTAC-a DİN-in Mətbuat xidmətindən məlumat verilib.

Konfransı açan Azərbaycan Respublikasının daxili işlər nazirinin müavini polis general-leytenantı İsmət Əliyev əsas məqsədin cinayətkarlığa qarşı mübarizədə innovativ yanaşmaların müzakirəsi, effektiv hüquqi mexanizmlərin təhlili və qlobal təcrübənin paylaşılması olduğunu vurğulayıb.

Tədbir panel çıxışlarla davam edib.

İştirakçıların təqdimatlarında cinayətkarlığa qarşı mübarizənin cinayət-hüquqi və kriminoloji aspektləri, müasir cinayət formaları və inkişaf tendensiyaları geniş şəkildə müzakirə olunub. Həmçinin cinayətlərin yeni növləri, onlara qarşı mübarizənin nəzəri və praktiki problemləri, hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi perspektivləri, istintaq və məhkəmə təcrübəsi barədə fikirlər səsləndirilib.

Konfrans çərçivəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi, hüquq sisteminin müasir çağırışlara uyğunlaşdırılması, kibertəhlükəsizlik və rəqəmsal sübutlarla bağlı yeni normativ tənzimləmələrin hazırlanması prioritet istiqamətlər kimi önə çıxarılıb. Bundan başqa, hüquq-mühafizə orqanları arasında əməkdaşlığın gücləndirilməsi, operativ məlumat mübadiləsinin daha da sürətləndirilməsi, birgə təlim və hazırlıq proqramlarının təşkili, mərkəzləşdirilmiş məlumat bazalarının genişləndirilməsi və elmi-analitik fəaliyyətin gücləndirilməsi üzrə fikir mübadiləsi aparılıb. Cinayətkarlığın statistik və kriminoloji təhlilinə dair yeni elmi layihələrin hazırlanması da prioritet istiqamətlərdən biri kimi qeyd olunub.

Tədbirdə iştirak edən qonaqlar beynəlxalq konfransın təşkilini yüksək qiymətləndirib və əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər.

Konfrans işgüzar və səmərəli mühitdə başa çatıb.

# "Elektron Prokurorluq İnformasiya Sistemi" beynəlxalq mükafata layiq görülüb

**Noyabrın 24-25-də Niderland Krallığının Haaqa şəhərində Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsinin (EACN) 24-cü illik Peşəkar Konfransı və Baş Assambleyasının iclası keçirilib.Tədbirdə EPAC/EACN-ə tərəfdaş olan korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış 100-dən çox qurumun 180-dən artıq nümayəndəsi iştirak edib.**

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, konfransda ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi İsfəndiyar Hacıyev və Baş İdarənin Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru Elşən Orucov təmsil edib.

Tədbirdə çıxış edən nümayəndələrimiz ölkəmizdə maliyyə cinayətlərinin istintaqı, aktivlərin qaytarılması, süni intellekt və müasir texnologiyaların tətbiqi sahəsində əldə edilmiş təcrübə barədə iştirakçıları məlumatlandırıblar.

Eyni zamanda qeyd edilib ki, "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası" rəqabətqabiliyyətli süni intellekt ekosisteminin yaradılması, süni intellekt həllərinin dövlət qurumlarının fəaliyyətində tətbiq edilməsi, milli məlumat infrastrukturunun genişləndirilməsi və bu sahədə analitik imkanların gücləndirilməsi kimi istiqamətləri özündə əks etdirir.

Bundan əlavə, nümayəndələrimiz EPAC/EACN tərəfindən təqdim olunan "Ən yaxşı antikorrupsiya təşəbbüsü" layihəsində iştirak etmiş və təqdim olunan "Elektron Prokurorluq İnformasiya Sistemi"nin (EPİS) fəaliyyəti yüksək innovasiya kimi qiymətləndirilərək beynəlxalq sertifikata layiq görülmüşlər.

Tədbirin sonunda qurumun Baş Assambleyasının iclası çərçivəsində yeni 3 qurum təşkilatın üzvlüyünə qəbul edilib, Litvanın Xüsusi İstintaq Xidmətinin direktoru Linas Pernavas EPAC/EACN-in sədri seçilib və təşkilatın növbəti illik konfransının Monteneqroda keçirilməsi qərara alınıb.

# ABŞ-nin Mərkəzi Asiya siyasətində Azərbaycanın strateji rolu

**"Cari ildə ABŞ-nin Mərkəzi Asiyaya yönəlik siyasətində müşahidə olunan dönüş bölgənin geoiqtisadi arxitekturasını yenidən formalaşdırır, xüsusilə də Azərbaycan burada yeni səviyyəli əlaqələndirici platforma kimi ön plana çıxır".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında İsrailin Yaxın Şərq üzrə eksperti Abraham Şmuleviç səsləndirib.

Ekspertin sözlərinə görə, 2025-ci il noyabrın 6-da Vaşinqtonda keçirilən tarixi "C5+1" sammiti ABŞ-nin regiona iqtisadi baxımdan genişmiqyaslı açılımını nümayiş etdirdi. "Sammit çərçivəsində 130 milyard dollardan artıq kommersiya öhdəliklərinin razılaşdırılması, eləcə də Özbəkistanın və Qazaxıstanın investisiya və strateji minerallar sahəsində ABŞ ilə imzaladığı sənədlər göstərir ki, Vaşinqton rəqabəti yalnız diplomatik deyil, iqtisadi vasitələrlə də formalaşdırır" deyən ekspert bildirib ki, formatın iqtisadi komponenti güclənir, təhlükəsizlik məsələləri isə ikinci plana keçir.

A.Şmuleviç vurğulayıb ki, regiondakı dəyişikliklər fonunda Azərbaycanın mövqeyi keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. 2025-ci il noyabrın 16-da Azərbaycan Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı statusunu alaraq formatı "C6" səviyyəsinə yüksəldib. "Bu qərar Azərbaycanın Mərkəzi Asiya ilə vahid geoiqtisadi məkanda hərəkət etməsinin institusional təsdiqidir. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Bakının "C5+1" mexanizminə daxil edilməsinə dair təşəbbüsü ABŞ üçün də mühüm siqnaldır", - deyə politoloq bildirib.

Ekspert Azərbaycanın "körpü" rolunu dörd əsas müstəvidə qiymətləndirib: "Birincisi, nəqliyyat sahəsində Orta dəhlizin genişlənməsi fonunda Ələt limanının rolu əhəmiyyətli dərəcədə artıb. 2022-ci ildən bəri yükdaşımalar 50 faiz artaraq 3,2 milyon tona çatıb. Mövcud proqnozlara əsasən, 2030-cu ilə qədər yükdaşımaların həcminin 10 milyon tona çatacağı gözlənilir. Uzunmüddətli və dayanıqlı inkişafın təmin edilməsi üçün dəhlizin modernləşdirilməsi və genişləndirilməsi məqsədilə investisiya tələbatı 20 milyard ABŞ dollarını ötür.

İkincisi, Bakı artıq Xəzər hövzəsinin əsas neft və qaztoplama mərkəzinə çevrilib. ABŞ Dövlət Departamentinin 2025-ci ilin noyabrında Türkmənistan qazının Trans-Xəzər marşrutları ilə bazarlara çıxarılmasına dair açıqlaması bu istiqamətdə siyasi iradənin olduğunu göstərir.

Üçüncüsü, regional siyasi platforma kimi Azərbaycanın rolu daha da möhkəmlənir. Bakı Cənubi Qafqaz, Türkiyə və Mərkəzi Asiya arasında dialoq məkanı kimi çıxış edir. Bu, ABŞ üçün bölgədə monopoliya yaranmadan sabit, çoxmərkəzli format qurmaq baxımından əhəmiyyətlidir.

Dördüncüsü isə müdafiə sahəsində əməkdaşlıqdır. Azərbaycanın hərbi modernizasiya təcrübəsi, xüsusilə pilotsuz aviasiya sahəsində əldə etdiyi nailiyyətlər Mərkəzi Asiya ölkələri üçün alternativ model kimi diqqət çəkir".

Politoloq bildirib ki, Azərbaycanın uğuru üç əsas amildən asılı olacaq: regional formatlarda institusional iştirakın gücləndirilməsi, investisiya mənbələrinin diversifikasiyası və xarici siyasətdə müstəqil qərarvermənin davam etdirilməsi. Özbəkistan-Azərbaycan ticarət dövriyyəsinin 2025-ci ilin ilk doqquz ayında 87,5 faiz artması bu inteqrasiyanın real iqtisadi zəminə malik olduğunu göstərir.

A.Şmuleviç sonda qeyd edib ki, Azərbaycan artıq təkcə tranzit dəhlizi deyil, enerji, nəqliyyat və rəqəmsal əlaqələrin kəsişdiyi strateji "qovşaq" kimi formalaşır. Bu mövqe ABŞ üçün Avrasiya materikində sabitlik və proqnozlaşdırıla bilən iqtisadi halqanın yaradılmasında mühüm strateji əhəmiyyət daşıyır.

# "ABŞ-nin yeni geosiyasi prioritetləri fonunda Azərbaycanın rolu daha da artır"

**"Dünya siyasətində son illər müşahidə olunan yeniliklər ABŞ-də administrasiya dəyişikliyindən sonra daha da sürətlənib. Yeni mərhələdə Vaşinqton beynəlxalq münasibətlərdə fəallığını artıraraq qlobal geosiyasi proseslərə daha çevik yanaşma sərgiləyir. Bu kontekstdə ABŞ-nin Avrasiya məkanına diqqətinin artması region ölkələri üçün həm yeni imkanlar, həm də diplomatik həssaslıqlar doğurur".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında türkiyəli politoloq Hasan Oktay bildirib.

Politoloqun sözlərinə görə, ABŞ-nin xarici siyasət gündəliyində əsas istiqamətlərdən biri dünya ticarət və nəqliyyat marşrutlarında sabitliyin qorunması, qlobal iqtisadi rəqabət mühitində balansın saxlanmasıdır. Onun fikrincə, Vaşinqton yeni mərhələdə Asiya-Sakit okean regionundan tutmuş Avrasiyanın qərb kənarına qədər uzanan strateji xətt üzrə əməkdaşlıq formatlarını yenidən dəyərləndirir.

"ABŞ beynəlxalq nəqliyyat yollarında dayanıqlı ticarət axınını təşviq etmək, regional qarşıdurmaların risklərini azaltmaq və tərəfdaş ölkələrlə iqtisadi əlaqələri genişləndirmək niyyətindədir. Bu çərçivədə Avrasiya məkanında baş verən proseslər Vaşinqton üçün strateji əhəmiyyət daşıyır", - deyə politoloq bildirib.

Hasan Oktayın sözlərinə görə, Rusiya-Ukrayna münaqişəsi, Asiya istiqamətində rəqabət mühiti və qlobal ticarət marşrutlarının yenidən formalaşması ABŞ-nin regional siyasətinə təsir göstərən əsas amillərdəndir. Bu proseslərdə həm Avropa İttifaqının, həm də Asiya ölkələrinin siyasi və iqtisadi qərarları bütövlükdə qlobal təhlükəsizlik arxitekturasına təsir edir.

Politoloq vurğulayıb ki, Avrasiyanın mərkəzində və mühüm nəqliyyat xətlərinin kəsişməsində yerləşən Azərbaycan regionda sabitlik, qarşılıqlı faydalı əməkdaşlıq və iqtisadi inteqrasiya baxımından əhəmiyyətli aktor kimi çıxış edir. "Azərbaycanın enerji, nəqliyyat və tranzit sahələrində son illərdə əldə etdiyi nailiyyətlər ölkəni qlobal ticarət xəritəsində mühüm tərəfdaşa çevirib. Xəzər hövzəsi üzərindən keçən marşrutlar regional əməkdaşlıq üçün böyük imkanlar yaradır", - deyə o əlavə edib.

Orta dəhliz, "Şimal-Cənub" və digər nəqliyyat xətlərinin həm region ölkələri, həm də qlobal bazarlar üçün əhəmiyyətinin artdığını qeyd edən Hasan Oktay bildirib ki, müxtəlif dövlətlər arasında balanslaşdırılmış əməkdaşlıq bu marşrutların sabit işləməsi üçün əsas şərtdir. Onun sözlərinə görə, Azərbaycan bu prosesdə həm Türk Dövlətləri Təşkilatı çərçivəsində, həm də digər regional əməkdaşlıq platformalarında fəal rol oynayır.

Politoloq avqustun 8-də ABŞ-də imzalanmış, Azərbaycan, Ermənistan və ABŞ arasında humanitar və etimad quruculuğuna dair müsbət istiqamətləri ehtiva edən niyyət bəyannaməsinə də toxunaraq, bu sənədin regionda sülhə yönəlmiş diplomatik səylərin bir parçası olduğunu bildirib. "Son illər Cənubi Qafqazda yaranan yeni imkanlar davamlı sülh üçün zəruri olan dialoqun genişlənməsinə töhfə verə bilər", - deyə Hasan Oktay qeyd edib.

Politoloq əlavə edib ki, Türk Dövlətləri Təşkilatı və Xəzəryanı ölkələr arasında genişlənən əməkdaşlıq formatları Avrasiya məkanında sülh, təhlükəsizlik və iqtisadi inteqrasiya baxımından yeni perspektivlər açır.

"Regionda davamlı sabitlik, etibarlı ticarət marşrutları və qarşılıqlı etimada əsaslanan münasibətlər bütün ölkələrin ortaq marağıdır. Bu baxımdan dialoqun genişlənməsi və əməkdaşlıq imkanlarının artırılması Cənubi Qafqazda və ətraf məkanlarda daha dayanıqlı inkişafı təşviq edə bilər", - deyə H.Oktay bildirib.

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2025-ci ilin dekabr ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Cavad oğlu ƏHMƏDOV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini | 3 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 11 |
| **Musa Cəfər oğlu QASIMLI**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 4 |
| **Rafael Baba oğlu HÜSEYNOV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 8 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ**<br>Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 1 |
| **Arzu Nəsib oğlu NAĞIYEV**<br>Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 10 |
| **Zahid Məhərrəm oğlu ORUC**<br>Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 18 |
| **Sadiq Haqverdi oğlu QURBANOV**<br>Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 5 |
| **Azər Kamal oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 23 |
| **Tahir Musa oğlu RZAYEV**<br>Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 9 |
| **Musa İsa oğlu QULİYEV**<br>Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 15 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin Səhiyyə komitəsinin sədri | 22 |
| **Hicran Kamran qızı HÜSEYNOVA**<br>Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 16 |
| **Şahin Əmir oğlu İSMAYILOV**<br>Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 17 |
| **Fazil Qəzənfər oğlu MUSTAFA**<br>Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 19 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV**<br>Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 11 |
| **Anar Camal oğlu İSGƏNDƏROV**<br>Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 24 |
| **Polad BÜLBÜLOĞLU**<br>Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 25 |
| **Səməd İsmayıl oğlu SEYİDOV**<br>Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 26 |
| **Eldar Rza oğlu İBRAHİMOV**<br>Milli Məclisin İntizam komissiyasının sədri | 5 |
| **Fərid Famil oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 2 |
| **Firudin Süleyman oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri | 12 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD**<br>Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 19 |
| **Məhəmməd İmran oğlu BAZIQOV**<br>Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 24 |
| **Adil İsrayıl oğlu VƏLİYEV**<br>Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 26 |
| **Şakir Himalay oğlu ŞABANOV**<br>Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 23 |
| **Ayan Zəfər qızı MURTUZOVA**<br>Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 16 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Qəbul otağında qəbul olunur.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini təmin etmək məqsədi ilə;**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edirlər.**

**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05.**

# "İƏT Mədəniyyət Festivalı: Bakı Yaradıcı Həftə 25" çərçivəsində MyForum panel müzakirələri keçiriləcək

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İslam Əməkdaşlıq Təşkilatının birgə dəstəyi ilə keçirilən "İƏT Mədəniyyət Festivalı: Bakı Yaradıcı Həftə 25" çərçivəsində MyForum panel müzakirələri təşkil olunacaq.**

Nazirlikdən bildirilib ki, bu il MyForum İƏT ölkələrinin mədəni, yaradıcı və texnoloji sahələrdə əməkdaşlığını gücləndirməyi hədəfləyən dünyamiqyaslı bir platforma olacaq.

Proqram çərçivəsində nazirlərin iştirakı ilə yüksəksəviyyəli panel, C-HUB konsepsiyasının təqdimatı, İnfluenserlər Günü, rəqəmsal dövrdə islam mədəniyyətinin yeni çağırışları, G-HUB oyun texnologiyaları müzakirələri, startap və yaradıcı sahələrə investisiya mövzuları, eləcə də AI master-klasları kimi bir çox innovativ sessiya yer alacaq. Bununla yanaşı, qadınların yaradıcılığı, gənclərin maraqdan peşəyə gedən inkişaf yolu, 4SİM strategiya müzakirələri, film komissiyaları və "Turkic GameJam"ın final mərhələsi kimi tədbirlər də festivalın əsas diqqət mərkəzində olacaq. MyForum regionun yaradıcı potensialını bir araya gətirərək yeni əməkdaşlıqlara, qlobal əlaqələrin qurulmasına və İƏT ölkələrinin yaradıcı iqtisadiyyat sahəsində birgə inkişafına təkan verəcək.

*AZƏRTAC*



# Nayrobidə BMT-nin Məskunlaşma Proqramının İcraiyyə Şurasının 3-cü sessiyası başa çatıb

**Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) milli koordinatoru Anar Quliyevin başçılıq etdiyi nümayəndə heyətinin iştirakı ilə Keniya Respublikasının Nayrobi şəhərində keçirilən BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) İcraiyyə Şurasının 3-cü sessiyası işini başa çatdırıb.**



Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən AZƏRTAC-a bildirilib ki, iki gün davam edən tədbir çərçivəsində nümayəndə heyətləri və Keniyada akkreditə olunmuş diplomatik missiyaların rəhbər şəxsləri üçün brifinq təşkil olunub. 200-dən çox nümayəndənin təmsil olunduğu tədbirdə 2026-cı il mayın 17-22-də Bakıda keçiriləcək WUF13-ün mahiyyəti, hazırlıq prosesi, təşəbbüslər, planlaşdırılan tədbirlər və fəaliyyətlər, eləcə də iştirak və əməkdaşlıq imkanları barədə ətraflı məlumat verilib.

Brifinqdə çıxış edən Anar Quliyev "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusunda keçiriləcək WUF13-ün dayanıqlı şəhər inkişafı sahəsində beynəlxalq əməkdaşlığı gücləndirmək, Azərbaycanın beynəlxalq tərəfdaşlarla birgə qlobal proseslərə töhfələrinin təqdim olunması baxımından əhəmiyyətini vurğulayıb. O, forum tarixində ilk dəfə olaraq dövlət və hökumət başçılarının iştirakı ilə Liderlərin Zirvə Görüşünün keçiriləcəyini diqqətə çatdırıb.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax foruma hazırlıq prosesi ilə bağlı Azərbaycan hökumətinə təşəkkür edib, ölkəmizin qlobal şəhər gündəliyinə sadiqliyini və nümunəvi fəaliyyətini yüksək qiymətləndirib. Qeyd edib ki, WUF13 bütün tərəfdaşların hər kəs üçün layiqli mənzil təmin etmək öhdəliklərini yeniləməsi üçün mühüm mərhələ olacaq.

Brifinqdən sonra mətbuat nümayəndələri ilə görüş keçirilib və WUF13-lə bağlı onları maraqlandıran suallar cavablandırılıb.

Sessiyanın gündəliyi çərçivəsində BMT-nin Məskunlaşma Proqramı Assambleyasının "Hər Kəs üçün Münasib Mənzil" qətnaməsi üzrə Hökumətlərarası İşçi Qrupun ötən ay 2025-2026-cı illər üzrə həmsədrləri seçilən Azərbaycan və Somalinin adından Azərbaycan nümayəndə heyətinin başçısı Anar Quliyevin məruzəsi dinlənilib. Məruzədə həmsədrlik dövrü ərzində bu prosesin irəli aparılması planları barədə məlumat verilib. Həmçinin WUF13-ün ev sahibi Azərbaycanın adından sessiyada iştirak edən nümayəndə heyətləri və diplomatik korpusun rəhbərləri üçün rəsmi qəbul təşkil edilib. Sessiya ərzində Anar Quliyev digər ölkələrdən iştirak edən nümayəndə heyətlərinin başçıları ilə müxtəlif müzakirələr də keçirib.

İki gün ərzində UN-Habitatın mənzil-qərargahında qurulan WUF13-ün tanıtım stendi ziyarətçilər tərəfindən maraqla qarşılanıb.

Tədbirlərdə Azərbaycanın Keniya və Konqoda (Brazzaville) fövqəladə və səlahiyyətli səfiri, BMT-nin Nayrobidə daimi nümayəndəsi Sultan Hacıyev, Azərbaycan Respublikasının Prezident Administrasiyası, Xarici İşlər Nazirliyi və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təmsilçiləri iştirak ediblər.

# Bakıda MDB Dəmiryol Nəqliyyatı Şurasının 83-cü iclası keçirilib

**Bakıda Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçı dövlətlərinin Dəmiryol Nəqliyyatı Şurasının 83-cü iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan, Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan, Gürcüstan, İran, Ermənistan, Latviya və Estoniya dəmiryol administrasiyalarının, eləcə də Dəmir Yolları Əməkdaşlıq Təşkilatı (OSJD), MDB-nin İcraiyyə Komitəsi, Dəmiryolçuların Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının rəhbər heyətləri iştirak ediblər.

İclasda çıxış edən "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov MDB ölkələri arasında nəqliyyat və logistika sahəsində əməkdaşlığın regionun iqtisadi inteqrasiyasının əsas amillərindən biri olduğunu, dəmir yolu nəqliyyatında qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsinin bütövlükdə regionun sabit inkişafına xidmət etdiyini vurğulayıb.

ADY sədri qeyd edib ki, son illərdə Azərbaycan ərazisindən keçən beynəlxalq dəhlizlərin inkişafı istiqamətində genişmiqyaslı işlər görülüb. Bakı-Tbilisi-Qars dəmir yolu, Orta dəhliz və "Şimal-Cənub" nəqliyyat dəhlizi üzrə strateji layihələr Azərbaycanın qlobal nəqliyyat xəritəsində aparıcı mövqeyini təmin edib: "ADY Orta dəhliz üzrə əməliyyatların daha da səmərələşdirilməsi üçün infrastruktur quruculuğu istiqamətində işlərini davam etdirir, o cümlədən şərq-qərb istiqamətində əsas magistral dəmir yolu olan Bakı-Böyük Kəsik xəttinin dəyişən cərəyana keçidi üzrə işlər uğurla aparılır. Bakı-Tbilisi-Qars dəmir yolu artıq Avropa ilə Asiya arasında etibarlı körpü kimi fəaliyyət göstərir. BTQ xəttinin modernləşdirilməsindən sonra bu xəttin yükötürmə qabiliyyəti illik 1 milyondan 5 milyon tonadək artırılıb. "Şimal-Cənub" dəhlizinin Azərbaycandan keçən hissəsinin mühüm seqmenti olan Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulması işləri ilin sonunadək başa çatdırılacaq. Həmçinin ADY İran ərazisində Astara Terminalının tikintisi üzrə əsaslı işlər görüb və terminalın inşası 2026-cı ilin 1-ci rübündə tamamlanacaq".

R.Rüstəmov bildirib ki, cari ilin fevral ayından ADY-yə inteqrasiya edilən Bakı Beynəlxalq Dəniz Limanı bu gün yalnız Azərbaycanın deyil, bütövlükdə regionun qlobal ticarət zəncirinə inteqrasiyasını təmin edən əsas qovşaqlardan biridir. Orta dəhlizin dayanıqlı və səmərəli fəaliyyətinin əsas dayaqlarından olan Bakı Limanının buraxılış qabiliyyətinin ildə 15 milyondan 25 milyon tona çatdırılması planlaşdırılır.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev isə çıxışında deyib ki, Azərbaycan üzv ölkələrlə birgə nəqliyyat siyasətinin inkişafına, logistika zəncirinin rəqabət qabiliyyətinin artırılmasına və yeni marşrutların formalaşdırılmasına böyük önəm verir. Nazir 2024-cü il dekabrın 21-də Moskva şəhərində Azərbaycan və Rusiya arasında imzalanmış "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi ilə tranzit yük daşımalarının inkişafı məqsədilə əməkdaşlıq haqqında Saziş"in əhəmiyyətindən, eləcə də "Şimal-Cənub" və Orta dəhlizin Azərbaycandan keçən hissəsi üzrə dəmiryol infrastrukturunun təkmilləşdirilməsi üçün görülən işlərdən danışıb.

Qeyd edilib ki, son illərdə ölkəmizdə aparılan genişmiqyaslı infrastruktur layihələri regionun tranzit xəritəsini əhəmiyyətli dərəcədə dəyişib. Yenilənən dəmir yolu xətləri, müasir terminallar və rəqəmsal idarəetmə sistemləri nəqliyyatın səmərəliliyini və təhlükəsizliyini artırır.

İclasda gündəlikdə dayanan məsələlər müzakirə edilib. Müzakirələrin əsas mövzusunu MDB dəmir yolu şəbəkəsinin 2025-ci ilin ilk doqquz ayındakı fəaliyyəti, beynəlxalq sərnişin daşımalarının inkişafı, beynəlxalq daşımalar üçün yük və konteyner qatarlarının formalaşdırılması, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı, 2026-cı il üçün beynəlxalq yükdaşıma tarifi siyasəti, maliyyələşmə, elmi-tədqiqat və təkmilləşdirmə proqramları və digər məsələlər təşkil edib.

İştirakçılar region üzrə logistika proseslərində şəffaflıq və sinxronlaşmanın artırılmasının vacibliyini vurğulayıb, 2026-cı il üçün tarif siyasətinin razılaşdırılmasının beynəlxalq yük daşımalarında rəqabət və tranzit axınlarının optimallaşdırılması baxımından strateji əhəmiyyət daşıdığını qeyd ediblər.

Tədbirin yekununda iclasın protokolu imzalanıb.

# Görüşdə Gürcüstan və Azərbaycan arasında imzalanmış memorandumun əhəmiyyəti vurğulanıb

**"Gürcüstan və Azərbaycan arasında kənd təsərrüfatında sektorlar üzrə əməkdaşlığın artırılması üçün işçi qrupu yaradılacaq".**



AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri Davit Sonqulaşvili ilə Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədovun görüşündə bildirilib.

Görüşdə tərəflər ölkələr arasında kənd təsərrüfatı sahəsində gələcək əməkdaşlıq imkanlarını, o cümlədən ticarət-iqtisadi əlaqələrin dərinləşdirilməsi perspektivlərini müzakirə ediblər.

D.Sonqulaşvili azərbaycanlı həmkarını aqrar sektorun inkişafına dəstək verən dövlət proqramları ilə tanış edib, kənd təsərrüfatı məhsulları və ərzaq ticarətinin təşviqi məqsədilə Gürcüstan və Azərbaycan arasında imzalanmış memorandumun əhəmiyyətini vurğulayıb. O, əsas diqqəti ixrac potensialına malik Gürcüstan məhsullarına yönəldib.

Görüşdə qida təhlükəsizliyi, baytarlıq, fitosanitariya, eləcə də elmi tədqiqatlar və sahəvi təhsil proqramları sahələrində əməkdaşlığın, bilik və təcrübə mübadiləsinin vacibliyi müzakirə edilib. Söhbət zamanı ölkələr arasında kənd təsərrüfatı sahəsində sektorlararası əməkdaşlığın səmərəliliyinin artırılması üçün işçi qrupların yaradılması məqsədəuyğun hesab olunub.

"Biz nazirliklərimiz arasında birgə işçi qrupunun yaradılması barədə razılığa gəldik. İnanırıq ki, bu birgə işçi qrup ölkələrimiz arasında, xüsusən də kənd təsərrüfatı və qida sektorunda əməkdaşlığa kömək edəcək. Biz kənd təsərrüfatı sektorunda ticarətin genişləndirilməsi barədə danışdıq, əlbəttə ki, bu, nazirlə görüşdə həlledici və müzakirə etdiyimiz əsas mövzulardan biri idi", - deyə Məcnun Məmmədov bildirib.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Gürcüstanın ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı nazirinin birinci müavini Nino Tandilaşvili, nazir müavinləri Laşa Dolidze, Laşa Avaliani, nazirliyin müvafiq struktur bölmələrinin rəhbərləri iştirak ediblər.

# "Azərbaycan rəqəmsal transformasiya üçün böyük potensiala malikdir"

**Azərbaycanın maliyyə sektoru aktiv rəqəmsal transformasiya mərhələsindədir və ölkə müasir fintex-həllərin tətbiqi baxımından yüksək potensial nümayiş etdirir. Nağdsız ödənişlərin artması, rəqəmsal bankçılığın inkişafı və dövlət dəstəyi maliyyə əlçatanlığının yüksəldilməsinə, innovativ texnologiyaların tətbiqinə əlverişli mühit yaradır.**



AZƏRTAC-ın suallarını beynəlxalq bazarlarda fintex, rəqəmsal ödənişlər və innovativ maliyyə həlləri üzrə ekspert, elektron pul və ödəniş xidmətləri sahəsində ixtisaslaşan Türkiyənin "SiPay Elektronik Para ve Ödeme Hizmetleri A.Ş." fintex şirkətinin təsisçisi və qlobal baş direktoru Nezih Sipahioğlu cavablandırır.

*- "SiPay"in vizionu və missiyası, eləcə də şirkətin qlobal fintex bazarında mövqeyi barədə fikirlərinizi bölüşə bilərsinizmi?*

- "SiPay" sadə bir məqsədlə yaradılıb - maliyyə xidmətlərini hər kəs üçün daha sürətli, daha ağıllı və daha əlçatan etmək. Bizim missiyamız insanların və şirkətlərin bütün maliyyə ehtiyaclarını bir məkanda idarə edə biləcəyi qlobal maliyyə platformasına çevrilməkdir. Biz Türkiyədə başladıq və eyni ambisiya ilə, yəni insanları, biznesi və texnologiyanı fasiləsiz maliyyə həlləri vasitəsilə birləşdirmək məqsədilə hazırda dünyanın müxtəlif ölkələrinə genişlənirik.

*- "SiPay" kimi fintex-həllərin, xüsusən maliyyə ekosisteminin dəstəklənməsi baxımından Azərbaycanın potensialını necə qiymətləndirirsiniz?*

- Azərbaycan rəqəmsal transformasiya üçün böyük potensiala malikdir və fintex maliyyə əlçatanlığının artırılmasında əsas rol oynaya bilər. "SiPay" kimi həllər daha çox insana və kiçik biznesə müasir ödəniş alətlərinə, rəqəmsal cüzdanlara və onlayn maliyyə xidmətlərinə çıxış imkanı yarada bilər. Biz hesab edirik ki, texnologiyalar maliyyəni sadələşdirməlidir, çətinləşdirməməlidir. Biz Azərbaycanın daha inklüziv və nağdsız iqtisadiyyat qurmaq hədəfini dəstəkləmək istəyirik.

*- Azərbaycan kimi inkişaf edən bazarlarda fintex innovasiyaları üçün hansı unikal imkanları və çağırışları görürsünüz?*

- Azərbaycan kimi inkişaf etməkdə olan bazarlar inanılmaz enerji və innovasiyaya açıq mühitə malikdir. Əsas imkanları gənc, texnoloji biliklərə sahib əhali və rəqəmsal transformasiyanı dəstəkləyən dövlətdir. Adətən çətinlik infrastruktur və etimadla bağlı olur, lakin düzgün tərəfdaşlıqlar və maarifləndirmə işləri aparıldıqda fintexin tətbiqi çox sürətlə artır. Biz bunu Türkiyədə gördük və eyni prosesin burada da baş verəcəyinə əminik.

*- Azərbaycanın nağdsız ödənişlərə və rəqəmsal bankçılığa keçidini nəzərə alaraq "SiPay"in hansı texnologiya və xidmətləri yerli istehlakçı, biznes üçün daha faydalı ola bilər?*

- Bizim əsas həllərimizə rəqəmsal cüzdanlar, onlayn və oflayn ödənişlər, açıq bankçılıq alətləri, eləcə də kiçik və orta biznes üçün maliyyə imkanları daxildir. Azərbaycan üçün xüsusilə dəyərli hesab etdiyimiz "Xidmət kimi cüzdan" (Wallet-as-a-Service) modelimizdir ki, bu model də yerli banklara, telekommunikasiya şirkətlərinə və ya e-ticarət platformalarına öz rəqəmsal cüzdan sistemlərini sürətli və təhlükəsiz şəkildə istifadəyə verməyə imkan yaradır. İstehlakçılar üçün bu, daha çox rahatlıq, biznes üçün isə daha sürətli ödənişlər və təkmilləşdirilmiş məlumat deməkdir.

*- Yeni bazarlarda, o cümlədən Azərbaycanda fintex xidmətlərinin genişləndirilməsi zamanı yerli tənzimləyicilər və maliyyə institutları ilə əməkdaşlıq nə dərəcədə vacibdir?*

- Əməkdaşlıq son dərəcə vacibdir. Biz hər zaman mərkəzi banklarla və yerli tənzimləyicilərlə sıx işləyirik ki, tələblərə tam uyğunluğu təmin edək və etimadı gücləndirək. Hər bir bazarda, o cümlədən Azərbaycanda ilk addımımız diqqətli təhlil, öyrənmək və yerli maliyyə ekosistemini gücləndirən tərəfdaşlıqlar qurmaqdır. Biz inanırıq ki, tənzimləmə və innovasiya bir-birini tamamlayan proseslər ola bilər.

*- Yaxın gələcəkdə "SiPay" ilə Azərbaycan maliyyə təşkilatları arasında hər hansı tərəfdaşlıq və ya layihələr gözlənilirmi?*

- Bəli, biz artıq bir neçə Azərbaycan maliyyə qurumu və fintex tərəfdaşı ilə uğurlu danışıqlar aparırıq, həmçinin birləşmək və alqı-satqı imkanlarını da nəzərdən keçiririk. Məqsədimiz qlobal təcrübəmizi nümayiş etdirmək və onu yerli tələblərə uyğunlaşdırmaqdır. Biz Azərbaycanı strateji bazar və regional fintex infrastrukturunun qurulmasında uzunmüddətli tərəfdaş kimi görürük.

# Azərbaycan regionun ən rəqabətədavamlı investisiya mühitinə malik ölkələrindəndir

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı Belçikanın Antverpen şəhərində Federal Hökumət Evində "Azərbaycanda biznes mühitinin gücləndirilməsi: sərmayələr, islahatlar və innovasiya" mövzusunda konfransda çıxış edib.**

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, konfrans Azərbaycan Respublikasının Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğunda səfirliyi və Avropa İttifaqı yanında nümayəndəliyinin dəstəyi ilə təşkil olunub.

Konfransda 50-dən çox iştirakçı, o cümlədən dövlət və hökumət nümayəndələri, Antverpen biznes dairələrinin təmsilçiləri və nüfuzlu iş adamları iştirak ediblər. Tədbirin məqsədi sahibkarlıq subyektlərinə Azərbaycanın iqtisadi rayonlarının investisiya imkanlarını və biznes perspektivlərini təqdim etmək, həmçinin dövlət-özəl tərəfdaşlığı modeli üzrə müzakirələr aparmaq olub.

Açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikasının Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğundakı səfiri Vaqif Sadıqov Azərbaycanda əlverişli biznes mühiti ilə bağlı beynəlxalq ictimaiyyətin məlumatlandırılması üçün bu cür konfransların keçirilməsinin vacibliyini vurğulayıb. Vüsal Qasımlı çıxışında Azərbaycanın qeyri-neft sektorunun inkişafı, kənd təsərrüfatı, bərpaolunan enerji, rəqəmsal iqtisadiyyat və sənaye istehsalı üzrə geniş investisiya potensialı barədə məlumatları konfrans iştirakçılarının diqqətinə çatdırıb. O bildirib ki, hazırda ölkənin sənaye zonaları 1540 hektar ərazini əhatə edir və burada 161 rezident fəaliyyət göstərir. Bu zonalara indiyədək 4,6 milyard dollar həcmində investisiya yatırılıb və 18 mindən çox iş yeri yaradılıb. 2024-cü ildə sənaye zonalarında ümumi istehsal həcmi 1,943 milyard dollar, ixrac isə 629 milyon dollar təşkil edib.

İİTKM-in icraçı direktoru vurğulayıb ki, Azərbaycanın gömrük və ticarət siyasətində həyata keçirilən islahatlar xarici ticarətin genişlənməsinə və ixrac imkanlarının artırılmasına şərait yaradır. İndiyədək Azərbaycan 12 ölkə ilə azad və preferensial ticarət sazişi, 49 ölkə ilə ikitərəfli investisiya sazişi, 57 ölkə ilə ikiqat vergitutmanın aradan qaldırılması üzrə razılaşma imzalayıb. Bu hüquqi baza investorlara yüksək səviyyədə təminat yaradır və regional bazarlara çıxışı asanlaşdırır. Bakıdan 4 saatlıq uçuş radiusu 38 ölkəni əhatə etməklə dünya əhalisinin yarısına birbaşa çıxış imkanı yaradır və bu üstünlük Azərbaycanın logistika və xidmət sektorunda regional mərkəz kimi rolunu artırır.

Vüsal Qasımlı Azərbaycanın ticarət siyasətinə toxunaraq bildirib ki, gömrük və vergi mühitində həyata keçirilən islahatlar ölkənin ticarət dinamikasına mühüm təsir göstərib. O vurğulayıb ki, 300 adda aralıq məhsulun idxal gömrük rüsumlarından azad edilməsi barədə qəbul edilən qərar həm ixracın artmasına, həm də yerli məhsulların xarici bazarlarda rəqabət qabiliyyətinin yüksəlməsinə şərait yaradıb. Xarici və yerli investorlar üçün bərabər hüquqlar, kapital və valyuta əməliyyatlarına məhdudiyyətin olmaması və əlverişli hüquqi çərçivə Azərbaycanı regionun ən rəqabətədavamlı investisiya mühitinə malik ölkələrindən birinə çevirir.

Panel müzakirələrində Avropa İttifaqı əlaqələri üzrə baş məsləhətçi Lük Van Luveren, nəqliyyat, logistika və informasiya texnologiyaları üzrə məsləhətçi Mark Şerlink, Antverpen Limanının sabiq rəhbəri Mark Van Pil, Avropa Təchizat Zənciri üzrə mütəxəssis Aleks Van Bridam çıxış ediblər.

Konfrans zamanı tərəflər qarşıdakı dövr üçün əməkdaşlıq istiqamətlərini ətraflı müzakirə edib, müxtəlif sahələr üzrə birgə təşəbbüslərin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıblar. Danışıqlar çərçivəsində investisiya, maliyyə, ticarət, sahibkarlığın inkişafı, nəqliyyat və logistika kimi prioritet sahələrdə tərəfdaşlıq imkanları nəzərdən keçirilib. Vüsal Qasımlı Avropanın ikinci ən böyük dəniz ticarət limanı olan Antverpen Limanına səfər edib və əməkdaşlıq imkanları barədə müzakirələr aparıb.

# Azərbaycan avtonəqliyyat vasitəsi sahiblərinin icbari sığortası növü üzrə region ölkələri arasında birincidir

**Azərbaycanın yerli sığorta bazarı Türk Dövlətləri Təşkilatına üzv ölkələrin bazarları arasında böyüklüyünə və inkişaf dinamikasına görə 3-cü yerdə qərarlaşır.**

Bu barədə Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) icraçı direktoru Elmar Mirsalayev AZƏRTAC-a bildirib.

"ASA bu geriliyin səbəbini nə ilə izah edir və hansı islahatları təklif edir?" sualına cavab olaraq icraçı direktor bildirib ki, sığorta sektoru hazırda yeni inkişaf mərhələsindədir.

"Xüsusilə son 5 ilin bazar dinamikasına nəzər salsaq görərik ki, yığımlarda qeydə alınan artım tendensiya olaraq tam təmin olunmuş vəziyyətdədir. Belə ki, Azərbaycanın sığorta bazarı 2021-ci ildə 16 faiz, 2022-ci ildə 18 faiz, 2023-cü ildə 26 faiz, 2024-cü ildə 11 faiz böyüyüb. Sevindirici haldır ki, müvafiq böyümə cari il üzrə hesabat dövrlərində də davam etməkdədir. Azərbaycan Mərkəzi Bankının bu gün açıqladığı və 2025-ci ilin yanvar-oktyabr aylarını əhatə edən sığorta icmalına da diqqət yetirsək görərik ki, sığorta bazarımızda qeyd olunan hesab dövrü ərzində 1 milyard 256 milyon manat sığorta haqqı təmin olunub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 12,9 faiz çoxdur. Maraqlıdır ki, analoji artım sığorta ödənişlərində də müşahidə olunur. Belə ki, hesabat dövrü ərzində baş vermiş sığorta hadisələrinə görə 772,6 milyon manat ödəniş edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 24,2 faiz çoxdur", - deyə qurum rəhbəri bildirib.

Elmar Mirsalayev onu da əlavə edib ki, ölkəmiz avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası növü üzrə 100 faizlik penetrasiyaya sahib olmaqla region ölkələri arasında birinci yerdədir. Bu, gənc respublikamızın gənc sığorta sektoru üçün çox yaxşı nəticədir: "Lakin təbii ki, bununla kifayətlənmirik. Bu gün yerli sığorta bazarının davamlı və dayanıqlı inkişafı məqsədilə nəzarətedici orqan olan Azərbaycan Mərkəzi Bankı tərəfindən məqsədyönlü addımlar atılır, aktual sektorial islahatlar həyata keçirilir".





# Mədəniyyət





● Tarixin əmanəti



# Ədəbi dil normaları bütün sahələrdə düzgün tətbiq olunmalıdır

**Ümummilli Lider Heydər Əliyev müstəqillik illərində Azərbaycan dilinin qorunub saxlanılması, onun zənginləşdirilməsi istiqamətində böyük işlər gördü. Azərbaycan dilinin milli-mənəvi, siyasi-hüquqi haqqının bərpa olunması istiqamətində atılmış vacib addımlardan biri isə Prezident Heydər Əliyevin 18 iyun 2001-ci ildə imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman oldu.**

Fərmanda Azərbaycan dilinin tarixi inkişaf yolları, habelə müstəqil dövlətçilik atributu kimi rolu və funksiyası göstərilmiş, on il ərzində tətbiqi vəziyyəti hərtərəfli nəzərdən keçirilmişdir. Eyni zamanda problem və nöqsanlar müəyyənləşdirilərək onların aradan qaldırılması barədə müvafiq tapşırıqlar verilmişdir. Xatırladaq ki, bu istiqamətdə Ulu Öndərin hələ 2002-ci ildə imzaladığı "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunda Azərbaycan dili müstəqil dövlətçiliyin əsaslarından biri olaraq qəbul edilmiş, onun digər dillər arasında yaşaması və təkmilləşdirilməsi sahəsində konseptual ideyalar irəli sürülmüşdür.

Bu siyasət Ulu Öndərin sadiq davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət dilinin qorunması məsələsini həmişə diqqət mərkəzində saxlayan Prezident 2018-ci il iyulun 18-də Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi haqqında sərəncam, 1 noyabr 2018-ci ildə "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərman imzalamışdır. Bu sənədlərdə cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində Azərbaycan dilinin daha geniş işlədilməsinin təmin edilməsi nəzərdə tutulur.

Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley tədbirində iştirak edən Prezident İlham Əliyevin çıxışında qoyduğu məsələlər, problemlər cəmiyyətin və elmi mühitin yeni inkişaf meyarlarını müəyyənləşdirmək baxımından olduqca əhəmiyyətlidir. Azərbaycan dilinin taleyi barədə təməl düşüncələri şərtləndirən dil quruculuğu haqqında ideya istiqaməti bu gün də dövlət siyasətinin tərkib hissəsi kimi müasir siyasi baxışlara uyğun səviyyədə aparılır. Prezidentin "Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır" çağırışı dövlətin apardığı dil siyasətinin manifestidir.

Azərbaycanda dil siyasətinin qorunması, ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi, ana dilinin beynəlxalq aləmdə nüfuzunun yüksəldilməsi, gənc nəslin ana dilinin zənginliklərini öyrənməsi, onların milli dilə sevgi və hörmət ruhunda tərbiyə olunması, ədəbi dil normalarına ciddi surətdə əməl edilməsi daim diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyev çıxışında demişdir: "Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram. Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları biz - müstəqil Azərbaycan dövləti".

Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra yaranmış tarixi şəraitə uyğun olaraq xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açaraq latın qrafikalı Azərbaycan əlifbasını bərpa etmişdir. Bu amil isə dil haqqında müvafiq qanunun, eləcə də digər normativ aktların qəbul olunmasını sürətləndirmişdir. Prezident İlham Əliyevin ana dilinin dövlət dili kimi geniş, maneəsiz işləkliyi üçün göstərdiyi siyasi qətiyyət, milli iradə, gördüyü məqsədyönlü işlər isə Azərbaycan dilinin nüfuzunun yüksəlməsinə və türk dilləri arasında mötəbər mövqe qazanmasını təmin etmişdir.

Dövlətimizin başçısının çıxışında son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi xüsusi narahatlıq doğuran məsələ kimi qeyd edilir: "Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. Daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik. Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır". Göründüyü kimi, Prezidentin çıxışında ana dilinin dövlət dili kimi geniş, maneəsiz işləkliyi, yalnız ölkəmizdə deyil, bütün türk dilləri arasında nüfuzunun yüksəlməsi əsas məsələ kimi önə çəkilir.

Həqiqətən hazırda Azərbaycan dilinin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq büruzə verir. İnformasiya texnologiyalarının sürətli inkişafı, rəqəmsal kommunikasiya mühitinin genişlənməsi, xüsusilə internet, sosial şəbəkələr insanların gündəlik ünsiyyətini köklü şəkildə dəyişmiş, yazı və nitq formalarına yeni dinamika gətirmişdir. Bu prosesdə sosial şəbəkə dilə sürət, qısalıq və ekspressivlik üzərində qurulan daha çevik, qeyri-formal kommunikasiya formalarını təqdim edir, ədəbi dilin normalarının pozulması, orfoqrafiya normalarına laqeyd yanaşma halları müşahidə olunur, ingilis dilinin təsiri ilə yeni hibrid yazı modelləri meydana çıxır. Sosial şəbəkədə dilin ən səciyyəvi xüsusiyyətlərindən biri olan ixtisar, sadələşmə və səs qənaəti kimi proseslər ədəbi dilin normalarına təsir edir. Unudulur ki, ədəbi dil sabit norma üzərində qurulan sistemdir. Sosial şəbəkə isə dilin dinamik inkişafı, impulsiv şəkildə baş verən formalar kommunikasiya mühitində qarşılıqlı təsir mexanizmi yaradır. Ədəbi dil sosial dilin formalarını süzgəcdən keçirərək normalara uyğun olanı qəbul edir və dilin təkamülünün özəyini təşkil edir. Lakin sosial şəbəkədə işlənən ixtisarlar ədəbi norma sayılmır və dil normalarını pozur.

Bununla yanaşı, terminlərin əsas xüsusiyyəti müəyyən bir elm sahəsi ilə bağlı ixtisaslaşmış sözlərdir və bu sahədə çalışan mütəxəssislər arasında onların anlaşmasını təmin edir. Sosial mediada işlənən terminlər isə yalnız mütəxəssislər arasında deyil, demək olar ki, hamı tərəfindən işlədilərək ümumi sözlərə çevrilir. Bu proses ədəbi dilin normativ sistemini pozmur, əksinə, onun sosial reallıqla əlaqəsini gücləndirir. Lakin sosial şəbəkələrdə, reklamlarda, ictimai iaşə obyektlərinə adların verilməsində ədəbi dil normaları pozulur. Xüsusilə, ictimai iaşə obyektləri, o cümlədən restoran və şadlıq sarayları milli sözlərlə deyil, daha çox alınma sözlərlə adlandırılır. Dövlət Reklam Agentliyi, Bakı Şəhər İcra Hakimiyyəti bu məsələlərə xüsusi diqqət verməlidir. 2002-ci ildə "Dövlət dili haqqında qanun"da Azərbaycan dilinin dövlət səviyyəsində tətbiqi məsələləri dəqiq şəkildə müəyyənləşdirilmişdir. Bu qanunların yerinə yetirilməsi dilin qorunmasına və inkişafına təminat verir.

Məlumdur ki, elmi-texniki tərəqqi, sosial mühitdə baş verən proseslər dilə yeni sözlər gətirir, həmin sözlərin Azərbaycan dilində qarşılıqları yaradılır. Qarşılıqlar yaradılan zaman ana dilimizin daxili imkanlarından geniş şəkildə istifadə edilir. Cənab İlham Əliyev çıxışında qeyd edir: "Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün Ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir".

Ağır, amma haqlı iraddır. Ona görə də yeni anlayışların adlandırılmasında, termin yaradıcılığı prosesində Prezidentin qeyd etdiyi prinsiplər nəzərə alınmalıdır. Çünki hər bir dilin özünəməxsus lüğət tərkibi, söz yaradıcılığı və başqa dildə təkrar edilməyən sistemi vardır. Onun vasitəsilə bizi əhatə edən mühit qavranılır, başa düşülür və hər bir dilin lüğət tərkibi onun daxili imkanları hesabına zənginləşdirilir.

Beynəlxalq əlaqələrin inkişafı, dünya elminə inteqrasiya dilin lüğət tərkibinin zənginləşməsinə səbəb olur. Müxtəlif elm sahələri üzrə kəşflər, ixtiralar və yeniliklər termin və anlayışlarda ifadə olunur. Elmi-texniki tərəqqi ilə bağlı Azərbaycan dilinin lüğət tərkibində də terminlərin xüsusi çəkisinin artması müşahidə edilir. Dil dünya sivilizasiyasının, ictimai həyatın əksi olan müxtəlif elm sahələri kimi, ayrı-ayrı dillərin fonetik, leksik, qrammatik xüsusiyyətlərini də özündə birləşdirir. Dilə daxil olan alınma söz və beynəlmiləl termin axını onların tənzimlənməsi və dilimizin tələblərinə uyğunlaşdırılması kimi aktual problemlər meydana çıxarır. Çünki elmi-texniki tərəqqi, ictimai-siyasi həyatın inkişafı terminoloji sistemlərin fasiləsiz olaraq dəyişməsinə və inkişafına təsir göstərir. Terminologiyada baş verən bu dəyişikliklər diqqətlə izlənilir və düzgün istiqamətləndirilir.

Müasir şəraitdə Terminologiya Komissiyasının fəaliyyəti məhz belə tələblər nəzərə alınmaqla qurulur. Digər tərəfdən, teleradiolarda və digər kütləvi informasiya vasitələrində verilən materiallar ədəbi dil normalarına cavab verməlidir. Ancaq son zamanlar ölkəmizdə KİV-in fəaliyyətinin genişlənməsi, internetin cəmiyyətin bütün sahələrinə nüfuz etməsinin sürətlənməsi nəticəsində sosial şəbəkədə ədəbi dil normalarının qorunmasını nəzarətdə saxlamaq çətinləşmişdir. Belə şəraitdə dilin yad təsirlərdən qorunması, inkişaf etdirilməsi mühüm vəzifələrdən hesab edilir.

Azərbaycan dilində müxtəlif elm sahələrinə aid terminoloji baza dilin öz daxili imkanlarından əlavə rus və Avropa dillərindən alınmış beynəlxalq terminlər əsasında formalaşır. Yaranan terminlər dilin qrammatik qaydalarına uyğun olmaqla bərabər, anlayışı da məntiqi cəhətdən düzgün təyin etməlidir. Bu məsələnin həlli həm vahid beynəlxalq terminologiyanın yaradılmasına şərait yaradır, həm də elmlərin inkişafına təkan verir. Elmlərin inteqrasiyası, elmi biliklərin müxtəlif istiqamətdə inkişafı, elmi təcrübələrin, informasiyaların asanlıqla yayılması, başa düşülməsi üçün vahid terminoloji bazaya üstünlük verilməlidir.

Ölkəmizin iqtisadi-siyasi həyatında, ictimai fikrində baş verən proseslər, yeniliklər dilin lüğət tərkibində dəyişmələrə səbəb olur. Bu nəzərə alınaraq müstəqillik illərində Avropa dillərindən Azərbaycan dilinə daxil olan alınma sözlər dilimizin tələblərinə uyğunlaşdırılaraq qəbul edilir və terminlərin izahlı lüğətini hazırlamaq üçün Azərbaycan dilində orfoqrafiya prinsipləri təkmilləşdirilir. Bununla yanaşı, dildə yaranan terminləri vahid mərkəzə toplamaq, müxtəlif sahələrdə çalışanlara terminlərin izahını və müxtəlif dillərdə qarşılığını asanlıqla əldə etməyə yardımçı olmaq, həmçinin termin yaradıcılığına cəmiyyətin müxtəlif təbəqələrini, o cümlədən xaricdə yaşayan soydaşlarımızı cəlb etmək üçün elektron terminoloji baza yaratmaq lazımdır.

Heç şübhəsiz, Azərbaycan mədəniyyəti, elmi inkişaf etdikcə Azərbaycan dili daha da zənginləşir, daha müasir, daha qlobal, analitik düşüncə dilinə çevrilir. Buna görə də Azərbaycan dilində işlənən, o cümlədən yeni yaranan terminləri toplayaraq izahlı yeni terminlər lüğətlərinin nəşri vacibdir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "...biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm". Cənab İlham Əliyevin çağırışı, çıxışında sadaladığı problemlərin aradan qaldırılması ictimai-mənəvi həyatımızın bütün sahələrində Azərbaycan dilinin tam tətbiqinə imkan verir. O səbəbdən dövlət dilinin tətbiq olunduğu bütün sahələrdə ədəbi dil normaları düzgün tətbiq olunmalıdır. Unudulmamalıdır ki, dünya azərbaycanlılarının ümumi ünsiyyət vasitəsi olan Azərbaycan dilinin qorunması milli-ictimai ehtiyac, mənəvi-mədəni borcumuzdur.

***Sayalı SADIQOVA,***
***Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, filologiya elmləri doktoru, professor***

## Amaliya Pənahovanın 80 illik yubileyi qeyd olunub

**Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin və Azərbaycan Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə milli teatr və kino sənətimizə böyük töhfələr vermiş Xalq artisti, Dövlət mükafatı laureatı, "Şöhrət" və "Şərəf" ordenli Amaliya Pənahovanın 80 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**

Bu barədə muzeydən məlumat verilib. Tədbiri muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova açıb.

Tədbirdə Azərbaycan Teatr Xadimləri İttifaqının sədri Xalq artisti Hacı İsmayılov, teatr və kino aktyoru, Xalq artisti Rafiq Əzimov, teatrşünas, professor Məryəm Əlizadə, Bakı Bələdiyyə Teatrının baş rejissoru, Xalq artisti Mərahim Fərzəlibəyov, Xalq artisti Əli Nur, eləcə də sənətkarın digər sənət dostları və ailə üzvləri iştirak ediblər. Onlar Amaliya Pənahova ilə bağlı öz xatirələrini bölüşüb, sənətkarın zəngin yaradıcılığından danışıblar.

Tədbir çərçivəsində sənətkarın həyat və yaradıcılığını əks etdirən fotoşəkillərdən ibarət videoçarx nümayiş olunub, həmçinin aktrisanın rol aldığı tamaşalardan və filmlərdən fraqmentlər göstərilib. Eyni zamanda Amaliya Pənahovanın vaxtilə "Unuda bilmirəm" tamaşasında ifa etdiyi eyniadlı məşhur əsər səsləndirilib.



Sənətkarın övladı, Bakı Bələdiyyə Teatrının direktoru Aynur Muxtarova muzeyin rəhbərliyinə və kollektivinə tədbirin təşkilinə görə minnətdarlığını bildirib. Daha sonra Amaliya Pənahovanın səhnə fəaliyyətindən qalan ən dəyərli yadigarlardan birini - aktrisanın 1971-ci ildə Tofiq Kazımovun quruluşunda Bəxtiyar Vahabzadənin "Yağışdan sonra" əsəri əsasında hazırlanan tamaşada geyindiyi libas və həmin tamaşadan bir nadir fotoşəkli Azərbaycan Dövlət Teatr Muzeyinin fonduna hədiyyə edib.

## Sumqayıt Dövlət Dram Teatrı "Qaravəlli" əsəri əsasında hazırlanan eyniadlı tamaşa ilə çıxış edib

**Sumqayıt Dövlət Dram Teatrı Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində Xalq yazıçısı Anarın "Qaravəlli" əsəri əsasında hazırlanan eyniadlı tamaşa ilə çıxış edib.**



Tamaşanın nümayişində Milli Məclisin deputatları, Mədəniyyət Nazirliyinin nümayəndələri, eləcə də Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri Xalq artisti Hacı İsmayılov və tanınmış ictimaiyyət nümayəndələri iştirak ediblər.

Yaradıcılıq işinin quruluşçu rejissoru Abdulla El, quruluşçu rəssamı Nizami Dadaşov, musiqi tərtibatçısı Elay Xasiyev, tamaşanın rejissoru isə Rəvan Hüseynzadədir. Səhnə əsərinin ritmikası Ramazan Xanlarova, musiqilərin ifası isə "Dərviş" qrupuna aiddir.

Tamaşanın əsas mövzusu cəmiyyətdə insanların bir fağır, zəif, ehtiyaclı insanı necə linç etməsi üzərində qurulub.

Səhnə əsərində obrazları Əməkdar artist İzaməddin Bağırov, aktyorlar Kamran Muradlı, Şəmistan Süleymanlı, İlham Səfərli, Elmir Mehdiyev, Habil Xanlarov, Elay Xasiyev, Aynur Hümmətova, İlahə Səfərova, Ramazan Xanlarov və Etibar Cəbiyev canlandırıblar.

## Filarmoniyada Dövlət Kamera Orkestrinin konserti olub

**Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında dirijor Əyyub Quliyevin rəhbərliyi ilə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin kamera musiqisi gecəsi keçirilib.**



Filarmoniyadan bildirilib ki, gecənin solisti skripkaçı Dilarə Mehdiyeva-Kurtaran olub.

Konsert proqramına Cüzeppe Verdinin "Simli alətlər üçün kvartet" və "Mi minor" (Bakıda ilk dəfə simli orkestr tərəfindən ifa olunur), Aqşin Əlizadənin "Pastoral və Aşıqsayağı", Valentin Silvestrovun "Gecə serenadası" və Astor Pyatsollanın "Buenos-Ayresdə ilin fəsilləri" silsiləsi (dördhissəli) daxil edilib.

# İqtisadiyyat və sosial həyat

## Əmək miqrasiyası kvotasına dair təkliflər müzakirə edilib

**Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevin sədrliyi ilə "Əmək miqrasiyası kvotasının müəyyən edilməsi üçün təkliflərin hazırlanması və bu sahədəki işin əlaqələndirilməsi üzrə komissiya"nın növbəti iclası olub.**

2025-ci il üçün təsdiqlənmiş əmək miqrasiyası kvotasından istifadə vəziyyətinin nəzərdən keçirildiyi iclasda 2026-cı il üçün hazırlanmış əmək miqrasiyası kvotasına dair təkliflər aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət komissiya üzvləri ilə birgə müzakirə edilib.

Anar Əliyev Prezident cənab İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin nailiyyətlərindən biri kimi ölkəmizin əmək bazarında davamlı xarakter alan inkişaf meyillərini diqqətə çatdırıb. Qeyd edilib ki, işəgötürənlərin müasir peşə və ixtisaslara malik işçilərə olan tələbləri, habelə ölkə iqtisadiy-



yatında yaranan çoxsahəlilik, ixtisaslı işçi qüvvəsi ilə bağlı təhlillər, əmək bazarı ilə bağlı proqnozlar əsasında gələn il üçün əmək miqrasiyası kvotasına dair təkliflər hazırlanıb.

Əmək bazarına daxil olan ixtisaslı kadrların sayı hər il artır, eyni zamanda işçi qüvvəsinin bacarıqlarının və rəqabətədavamlılığının artırılması üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Bu baxımdan, ölkə iqtisadiyyatının işçi qüvvəsinə olan tələbatının yerli əmək ehtiyatları hesabına ödənilməsi prinsipi əsas götürülür. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən geniş tikinti-quruculuq işləri ilə yanaşı, son illərdə bərpaolunan enerji istehsalı ilə bağlı yeni layihələrin icrası yüksəkixtisaslı mütəxəssislərə tələbatı artırır.

2026-cı il üçün əmək miqrasiyası kvotasına dair təkliflər, eyni zamanda 2025-ci ilin təsdiq olunmuş əmək miqrasiyası kvotasına nəzərdə tutulan dəyişikliklərlə bağlı təkliflər müzakirə edilib. Qeyd edilən təkliflərin baxılmaq üçün Nazirlər Kabinetinə təqdim olunması qərara alınıb.

## Ələt Azad İqtisadi Zonasının həm ərazisi, həm də fəaliyyəti genişlənəcək



**Prezident İlham Əliyev bu il noyabrın 25-də Ələt Azad İqtisadi Zonası ilə bağlı yeni fərman imzalayıb. Bu sənəd Prezidentin "Ələt Azad İqtisadi Zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" 2020-ci il 22 may tarixli fərmanında dəyişiklik edilməsi barədədir.**

Fərmana əsasən, Nazirlər Kabineti Bakı şəhər Qaradağ rayonu Ələt qəsəbəsinin inzibati ərazisində kənd təsərrüfatı təyinatlı torpaqlar kateqoriyasına aid, dövlət mülkiyyətində olan ərazidən Ələt Azad İqtisadi Zonasına ayrılması nəzərdə tutulan 1453,09 hektar torpaq sahəsinin "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunun tələblərinə uyğun alınması istiqamətində zəruri tədbirlər görməlidir.

Ölkəmiz son iki onillik ərzində iqtisadi inkişaf və islahatlar sahəsində mühüm addımlar atmışdır. Bu addımlardan biri də ölkə iqtisadiyyatını diversifikasiya etmək, qeyri-neft sektorunu inkişaf etdirmək və xarici investisiyaları cəlb etmək məqsədilə azad iqtisadi zonaların yaradılmasıdır. Bu kontekstdə Ələt Azad İqtisadi Zonası Azərbaycanın iqtisadi strategiyasının ən mühüm sütunlarından birinə çevrilmişdir.

Bu zona üçün məkan nə üçün məhz Ələtdə seçilib? Bu barədə Prezidentimiz belə deyib: "Ələt qəsəbəsinin ərazisində böyük boş torpaq sahələri var və bu torpaq sahələrinin mütləq əksəriyyəti kənd təsərrüfatı üçün yararsız torpaqlardır. Digər tərəfdən, Ələt qəsəbəsi Bakı şəhərinə yaxındır. Bu da vacib şərtlərdən biridir. İnfrastruktur layihələrinin icrası üçün artıq bütün ilkin şərtlər vardır. Səngəçalda 300 meqavat gücündə elektrik stansiyası mövcuddur və infrastruktur layihələrinə qoyulan xərclər də nisbətən az olacaq. Burada beynəlxalq dəniz limanı yerləşir. Bu da iqtisadi zonanın fəaliyyəti üçün önəmli amillərdən biridir. Hesab edirəm ki, Ələtin inkişaf perspektivi də çox uğurlu ola bilər. Əgər bu zona istədiyimiz kimi formalaşsa, - mən buna əminəm, - bu bölgənin inkişaf dinamikası ümumi inkişafımıza da böyük müsbət təsir göstərəcək. Bax, bu amillər bu yerin seçilməsində əsas rol oynamışdır. Eyni zamanda buradan bizim beynəlxalq dəhlizlərimiz də keçir. "Şərq-Qərb" dəhlizi, "Şimal-Cənub" dəhlizi Ələtin ərazisindən keçir. Ona görə logistika, nəqliyyat baxımından bu yer çox əlverişlidir. Məhz buna görə Ələt bu məqsədlər üçün seçilmişdir".

Xatırladaq ki, Ələt Azad İqtisadi Zonasının təməli 2021-ci il iyulun 1-də dövlətimizin başçısı tərəfindən qoyulub. Zonanın yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etməkdir. İnnovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu şirkətlərin Azərbaycan şirkətləri ilə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir.

Başqa sözlə, Ələt Azad İqtisadi Zonası bu əsas məqsəd və vəzifələri yerinə yetirmək üçün yaradılmışdır: xarici və yerli investorlar üçün əlverişli biznes mühitinin təmin olunması; rəqabətqabiliyyətli məhsul və xidmətlərin istehsalının təşviqi; əmək bazarında aktivliyin artırılması və işsizliyin azaldılması; ixrac potensialının yüksəldilməsi və ticarət balansının yaxşılaşdırılması; yüksək texnologiyalara əsaslanan istehsalın təşviqi; regionda sənaye kooperasiyasının və klasterləşmənin inkişafı; ekoloji və sosial məsuliyyət daşıyan müəssisələrin formalaşdırılması və s.

Qeyd edək ki, dünyada 1200-dən çox azad iqtisadi zona mövcuddur. Elə ölkələr var ki, orada bir neçə belə zona yaradılıb. Ən çox yayılanı sənaye zonalarıdır. Mütəxəssislərin fikrincə, Ələt Azad İqtisadi Zonası daha çox bu qrupa aiddir. Burada sənaye müəssisələri, istehsal və emal şirkətlərinin qurulacağı planlaşdırılıb. Azərbaycanda xammalın çoxluğunu nəzərə alsaq, Ələtdə metallurgiya, polad istehsalı, inşaat sektoru və s. üçün münbit şərait var. Sənaye zonası əmək tutumluluğu və dövriyyə baxımından daha yaxşıdır.

Azad iqtisadi zonaların harada yerləşməsi önəmli məsələdir. Adətən, onlar limanlarda və nəqliyyat qovşaqlarında salınır. Həmin zonalarda çalışan müəssisələr ixracla məşğul olduğu üçün dənizə çıxış vacibdir. Azərbaycanın dünya okeanına birbaşa çıxışı olmasa da, Xəzər dənizinin imkanlarından maksimum yararlanmaq potensialı var. Həm yüklərin Orta Asiyaya daşınması, həm də oradan gələn yüklərin qəbul olunaraq Türkiyə və ya Gürcüstan üzərindən (Poti limanı) Avropaya göndərilməsi baxımından ölkənin imkanları böyükdür. Ələt Azad İqtisadi Zonasının yerləşməsinin uğurlarından biri həm Bakı-Astara yolunun, həm də Bakı-Qazax yolunun üzərində olmasıdır. Başqa sözlə, Ələt Azad İqtisadi Zonası həm İran və Rusiya (Cənub-Şimal), həm də Bakı-Tbilisi, Bakı-İstanbul (Şərq-Qərb) magistralının üzərindədir. Ələtin dənizin kənarında yerləşməsi, liman olması daha bir böyük üstünlükdür.

Prezident İlham Əliyev demişdir: "Aydın məsələdir ki, Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkələrdəndir və belə ölkələrdə azad iqtisadi zonaları yaratmaq daha çətindir. Çünki əlverişli coğrafi vəziyyəti olan ölkələrdə bu zonalar çox böyük uğur qazanıb və ilk növbədə, coğrafi yerləşməyə görə. Ona görə bizə gəldikdə, bu coğrafi vəziyyəti nəzərə alaraq daha da səmərəli işləməli idik və investorlar üçün daha da cəlbedici şərtlər təqdim etməli idik. İlk növbədə, qanunvericilik sahəsində işlər görülməli idi və mən 2017-ci ildə Ələt Azad İqtisadi Zonasının yaradılmasının sürətləndirilməsinə dair müvafiq sərəncam imzaladım, 2018-ci ildə qanun qəbul edildi. Bu, həm dövlət maraqlarımızı, həm investorların maraqlarını tam təmin edən çox mütərəqqi qanundur. Bu, çox önəmlidir. Çünki əgər qanunvericilikdə investorlar üçün hansısa qeyri-müəyyən məqamlar olsaydı, əlbəttə ki, onları buraya cəlb etmək mümkün olmazdı".

Dövlətimizin başçısının Ələt Azad İqtisadi Zonası ilə bağlı imzaladığı yeni fərman, əslində, təkcə bu zonanın inkişafına deyil, ümumən iqtisadiyyatımızın şaxələndirilməsinə, ölkəmizin güc-qüdrətinin artmasına yönəldilən növbəti addımdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Strateji məsələnin həllinə yeni yanaşma

### "Ərzaq təminatı xəritəsi" informasiya sistemi ərzaq təhlükəsizliyinin çevik, şəffaf və dayanıqlı idarə olunması modelini formalaşdıracaq

**Bu gün ərzaq bazarında balansın qorunması, məhsul qıtlığının qarşısının alınması və təhlükəsizlik standartlarının təmin edilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir. Həmin proseslərin vaxtında izlənməsi isə müasir texnologiyaların tətbiqini tələb edir. Prezident İlham Əliyevin imzaladığı "Ərzaq təminatı xəritəsi" informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" fərman məhz bu ehtiyaca uyğun atılmış strateji addımdır.**



Fərmanla müəyyən edilib ki, "Ərzaq təminatı xəritəsi" informasiya sistemi ölkədə ərzaq təminatı sahəsində mövcud vəziyyətin müəyyənləşməsini, bunun əsasında qərarların qəbul edilməsi üçün etibarlı və dayanıqlı informasiyanın yaradılmasını, toplanılmasını, işlənilməsini, saxlanılmasını, axtarışını və məlumatlara əlçatanlıq səviyyəsinin artırılmasını təmin edir. Sistemin sahibi və operatoru funksiyalarını İqtisadiyyat Nazirliyi həyata keçirir. Bu gün ərzaq məhsullarının hansı regionda nə qədər istehsal edildiyi, hansı məhsullar üzrə idxala və ya ixraca ehtiyacın olduğu, eləcə də bazarda təhlükəsizliyin təmini təkcə mütəxəssisləri deyil, hər bir istehlakçını da maraqlandırır. Həmin marağın təmin olunmasını özündə ehtiva edən yeni sənəd ölkədə ərzaq sahəsində məlumat dövriyyəsini vahid platformaya toplamaqla həm dövlət qurumlarının koordinasiyasını gücləndirir, həm də bazarda baş verən dəyişikliklərin çevik təhlilini mümkün edir.

"Ərzaq təminatı xəritəsi" vasitəsilə istehsal göstəricilərindən tutmuş idxal-ixrac dinamikasına, qida təhlükəsizliyi nəzarətindən logistika marşrutlarına qədər geniş məlumat spektri sistemli şəkildə izlənəcək. Bu, mövcud vəziyyətin analizi və potensial risklərin qabaqcadan müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Xüsusən strateji ərzaq məhsulları üzrə ehtiyatların idarə olunması, mövsümi qıtlıqların qarşısının alınması, həmçinin regionlar üzrə istehsal potensialının daha dəqiq qiymətləndirilməsi üçün yeni imkanlar yaranır.

Qeyd edək ki, bu vaxta qədər ərzaq təminatı ilə bağlı məlumatların toplanması müxtəlif qurumların ayrı-ayrı bazalarında aparılır, statistik göstəricilərin müqayisəsi və təhlili əlavə vaxt və resurs tələb edirdi. Regionlarda istehsal potensialının qiymətləndirilməsi, idxal olunan məhsulların həcmi və bazarda mövcud risklərin müəyyənləşdirilməsi çox zaman sistemləşdirilməmiş, pərakəndə, tam olmayan məlumatlara əsaslanırdı. Bu isə həm qərarvermə prosesini ləngidir, həm də real vəziyyətin tam mənzərəsini görməyi çətinləşdirirdi. Ərzaq məhsullarının istehsalı və dövriyyəsi üzrə monitorinq, əsasən, illik və ya dövri statistika üzərində qurulduğundan bazardakı operativ dəyişikliklərə vaxtında reaksiya vermək imkanları məhdud olurdu.

Azərbaycanda ərzaq təminatı uzun illər, əsasən, kənd təsərrüfatı istehsalının həcmi, dövlət proqramları və idxal əməliyyatları üzərində qurulub. Məsələn, 2008-2015 və 2019-2023-cü illəri əhatə edən dövlət proqramları ərzaq təhlükəsizliyinin gücləndirilməsi, yerli istehsalın artırılması, aqrar sahəyə investisiyaların genişləndirilməsi kimi hədəfləri daşıyırdı. Bu proqramlar nəticəsində bəzi məhsullar üzrə yerli istehsal artsa da, ümumi sistem tam inteqrasiya olunmadığından qərarvermə prosesləri müxtəlif qurumların ayrı-ayrı məlumatlarına əsaslanırdı. 2023 cü ildə ölkədə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 12,2 milyard manat olub ki, bu da 2022-ci illə müqayisədə 3,1 faiz artım deməkdir. Eyni dövrdə heyvandarlıq sahəsində ət (diri çəkidə), süd və yumurta istehsalı artaraq istehsalda müsbət dinamika göstərib. Amma buna baxmayaraq, idxal da artmaqda davam edib. 2024-cü ildə ölkəyə idxal olunan ərzaq məhsullarının ümumi dəyəri 2 milyard 474 milyon 815 min dollar olub ki, bu da Azərbaycan tarixində ərzaq idxalı üzrə rekord göstəricidir.

Bu rəqəmlər göstərir ki, daxili istehsalda artım olsa da, bazarda balansın qorunması və strateji məhsullar üzrə vəziyyətin dəqiq izlənməsi hələ də çətinlik yaradır. Məhz bu boşluğu aradan qaldırmaq üçün yaradılmış "Ərzaq təminatı xəritəsi" informasiya sistemi əvvəlki idarəetmə modelinin sərhədlərini genişləndirərək real vaxt rejimində izləmə, təhlil və proqnozlaşdırma imkanları açır. Sistemlə dövlət qurumlarının fəaliyyəti daha inteqrasiya olunmuş şəkildə təşkil ediləcək, istehsalçı və idxalçıların məlumat öhdəlikləri tənzimlənəcək, ən əsası isə ölkənin ərzaq təhlükəsizliyi üzrə vahid informasiya bazası formalaşacaq. Bu sistemin üstünlüyü ondadır ki, o, adi vətəndaşlar üçün də faydalıdır. İstehlakçılar platforma vasitəsilə regionlarda istehsal səviyyəsini, ərzaq çatışmazlığı riskini, idxal məhsullarının payını və digər statistik məlumatları izləyə biləcəklər.

Nəticə etibarı ilə fərmanın icrası ölkədə ərzaq təhlükəsizliyi təminatının çevik, şəffaf və dayanıqlı idarə olunması modelinin formalaşmasına xidmət edəcək. Sənəd həmçinin hökumətin daha dəqiq qərarlar qəbul etməsi, istehsalçıların planlamada üstünlük qazanması və istehlakçıların daha təhlükəsiz ərzaq mühitinə sahib olması üçün mühüm addım kimi qiymətləndirilə bilər.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Azərbaycan-Qətər Birgə Biznes Şurasının ilk iclası keçirilib

### İki ölkənin iş adamları arasında əməkdaşlığın inkişafı və şuranın fəaliyyət istiqamətlərinə dair fikir mübadiləsi aparılıb

**Dohada Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın 4-cü iclası çərçivəsində Azərbaycan-Qətər Birgə Biznes Şurasının ilk iclası keçirilib.**

İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Qətər Ticarət və Sənaye Palatasının təşkilatçılığı ilə keçirilən tədbirdə Birgə Komissiyanın həmsədrləri - Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Qətərin Xarici Ticarət Məsələləri üzrə dövlət naziri Əhməd bin Məhəmməd Əl Sayed, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, Qətər Ticarət və Sənaye Palatasının sədrinin birinci müavini Məhəmməd bin Əhməd bin Tvar, Azərbaycan-Qətər Birgə Biznes Şurasının həmsədrləri - KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və Qətər Ticarət və Sənaye Palatasının İdarə Heyətinin üzvü Məhəmməd bin Cövher Al Məhəmməd çıxış ediblər.

Tədbirdə Azərbaycan-Qətər iqtisadi-ticarət əlaqələri, əməkdaşlığın genişləndirilməsi perspektivləri, işgüzar dairələrin iştirakı ilə birgə layihələrin və təşəbbüslərin reallaşdırılması imkanları müzakirə edilib. Birgə Biznes Şurasının investisiya layihələrinin reallaşdırılması, eləcə də KOB subyektləri arasında tərəfdaşlığın dərinləşdirilməsi üçün səmərəli platforma olacağına inam ifadə edilib. Yeni tərəfdaşlıq istiqamətləri və Biznes Şurasının qarşıdakı dövrdə fəaliyyət istiqamətləri müzakirə edilib.

İclas çərçivəsində Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO, Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumu, Qətərin İnvestisiyaların Təşviqi Agentliyi və "Qətər Turizm" tərəfindən müvafiq olaraq Azərbaycanın və Qətərin biznes və investisiya imkanlarına, Ələt Azad İqtisadi Zonasının fəaliyyətinə dair təqdimatlar edilib.

Biznes Şurasının iclasında hər iki ölkədən 50-yə yaxın iş adamı iştirak edib. Azərbaycan və Qətər iş adamları təmsil etdikləri şirkətlərin fəaliyyəti barədə məlumat veriblər və işbirliyi imkanları ilə bağlı fikir mübadiləsi aparıblar.

Tədbir çərçivəsində iş adamları arasında "B2B" formatda görüşlər keçirilib.

Jurnalist araşdırması

# Xəzərin suyu çəkilməkdə davam edir

## Bu, iqtisadi və ekoloji fəsadlara səbəb olur



**Xəzər dənizinin səviyyəsi enməkdə davam edir. İqlim dəyişiklikləri ilə əlaqədar yağıntıların az olması, buxarlanmanın artması dəniz suyunun azalmasına təsir edən səbəblərdəndir. Dəniz səviyyəsinin azalması balıqçılıq, kənd təsərrüfatı, neft sənayesi və gəmiçilik kimi sahələrə mənfi təsir göstərir. Alimlər Xəzərin səviyyəsinin enməsinin qarşıdakı illərdə də davam edəcəyini proqnozlaşdırırlar.**

Son məlumatlara əsasən, Qazaxıstan sahilləri yaxınlığında Xəzər dənizinin orta səviyyəsi mənfi 29,31 metrə qədər enib və son 18 ildə dənizin səthinin sahəsi 36 min kvadratkilometr azalıb. Məlumata əsasən, Xəzərin şimal-şərq hissəsində dəniz səviyyəsi mənfi 29,15 metrə, şərq hissəsində isə mənfi 29,46 metrə çatıb.

Dünyanın ən böyük qapalı su hövzəsində gedən hazırkı proseslər dəniz sahilində yerləşən 5 ölkənin iqtisadiyyatına təsirsiz ötüşmür. Bu baxımdan son illər Xəzəryanı dövlətlərin əsas müzakirə predmetlərindən biri də dənizin son vəziyyətidir. Çünki bu problemin həlli region ölkələrinin əməkdaşlığını tələb edir. Xəzər vasitəsilə həyata keçirilən qlobal layihələrə nəzər saldıqda isə həm də beynəlxalq səylərin birləşdirilməsi vacibdir.

### Dənizdəki geriçəkilmənin Xəzəryanı ölkələrin iqtisadiyyatına təsirləri

Xəzərin səviyyəsinin enməsinin iqtisadi fəsadları ilə bağlı Milli Məclisin deputatı Vüqar Bayramov qəzetimizə açıqlamasında bildirdi ki, dənizdəki geriçəkilmələr həm də iqtisadi baxımdan arzuolunan deyil. Çünki bu, bir tərəfdən Xəzəryanı ölkələr arasında iqtisadi əlaqələrə təsir göstərir, digər tərəfdən isə Xəzərin potensial və imkanlarından daha geniş şəkildə istifadə ilə bağlı gələcəkdə müəyyən çətinliklər yarada bilər. "Bu həm də ekoloji məsələdir. Ətraf mühitin qorunması, ekoloji sağlamlıq baxımından da dəniz səviyyəsinin enməsi yaxşı hal deyil. Hazırkı proses Xəzər ilə əlaqəli layihələrin icrasına da maneə yarada bilər", - deyə o əlavə edib.

Deputat qeyd etdi ki, müşahidə olunan məsələlərdən biri Xəzəryanı ölkələrin daha çevik şəkildə bu problemlə bağlı tədbirlər həyata keçirməyə çalışmasıdır. Azərbaycan Xəzər problemi ilə bağlı Mərkəzi Asiya ölkələri ilə apardığı danışıqlarda öz mövqeyini, eyni zamanda təkliflərini təqdim edib. Azərbaycan Xəzər dənizinin mövcud biosisteminin qorunmasında və dəniz səviyyəsinin azalmasının qarşısının alınması ilə bağlı tədbirlərin görülməsində maraqlıdır.

Xəzərin hazırkı durumunun bütün Xəzəryanı ölkələrə mənfi təsir göstərdiyini deyən V.Bayramov bildirib ki, dəniz suyunun azalması həm layihələrin icrasına maneə baxımından, həm də nəqliyyat və logistika aspektindən arzuolunan deyil: "Məhz buna görə Azərbaycanın digər Xəzəryanı dövlətlər, xüsusilə Mərkəzi Asiyadakı tərəfdaşlarla birlikdə bu istiqamətdəki sistemli fəaliyyətində məqsəd problemin bu ölkələrin iqtisadiyyatına neqativ təsirlərini minimuma endirməkdir".

### Xəzərin enməsinə təsir göstərən əsas amillər

Dəniz suyunun azalması onun biomüxtəlifliyinə də təsir edir. Belə ki, bəzi növlərin populyasiyası zəiflədiyi halda, bəziləri isə yox olmaq təhlükəsi ilə üz-üzə qalır. Bu da dəniz sahilində yerləşən əhalinin sosial-iqtisadi həyatına mənfi təsir göstərir. Ümumilikdə Xəzərin üzləşdiyi problem ekosistemə ciddi zərbə vurmaqla yalnız dənizin fauna və florasına deyil, həm də cəmiyyətin yaşayışına neqativ təsir edir.

Elm və Təhsil Nazirliyinin Həsən Əliyev adına Coğrafiya İnstitutunun Xəzər dənizinin sahillərinin və dibinin geomorfologiyası şöbəsinin müdiri professor Əmir Əliyev qəzetimizə açıqlamasında bildirdi ki, hazırda Xəzər dənizinin səviyyəsi enmə dövründədir. Dənizin səviyyəsi 1995-ci ildən bu günə qədər təxminən 2,1 metr aşağı düşüb. O qeyd etdi ki, ötənilki məlumata görə, təxminən 18 sm, ondan əvvəlki ildə isə 20 sm enmə müşahidə olunub. "Amma səviyyənin düşmə tempi son illər azalıb. Xəzərin səviyyəsinin dəyişməsi periodikdir və təbii proseslə bağlıdır. Dənizin səviyyəsi 200-250 il qalxır, daha sonra bu müddətdə enir. Ən yüksək səviyyə 1805-ci ildə qeydə alınıb ki, o da bugünkü səviyyədən 5 metr yuxarı olub. Ərsin ortasına qədər səviyyənin enməsi davam edəcək", - deyə professor əlavə edib.

Şöbə müdiri bildirdi ki, Xəzər dənizinin səviyyəsinin dəyişməsinin əsas səbəbi onun su balansı ilə bağlıdır. Su balansı dedikdə dənizə gələn və gedən suların fərqli tutumu nəzərdə tutulur. Xəzərə gələn daxili çayların gətirdiyi və yeraltı sulardır. Çıxan hissəsi isə Xəzərdən gedən, xüsusilə Qaraboğazgöl körfəzinə axan su və orada gedən sürətli buxarlanmadır. Qidalandırıcı suyun 80 faizi Volqa çayının payına düşür. Son 20 ildə Xəzər dənizinin səviyyəsinin enməsində iqlim faktorundan əlavə, antropogen amillərin də mühüm rolu var. Müəyyən olunub ki, səviyyənin dəyişməsində 85 faiz iqlim faktoru, 10 faiz antropogen, 5 faiz isə tektonik proseslər rol oynayır.

Ə.Əliyev vurğulayıb ki, son illərdə Xəzərə gələn çaylara olan antropogen təsirlər dəniz səviyyəsinin enmə prosesini sürətləndirib: "Volqa çayı təxminən 3,5 min kilometr məsafədə Rusiya ərazisindən keçərək Xəzər dənizinə tökülür. Bu ərazidə təxminən 120 milyona qədər əhali yaşayır. Burada yaşayan əhalinin içməli su ilə təminatına, kənd təsərrüfatına, sənayeyə, hidroelektrik stansiyalarının qurulmasına, su anbarlarının tikilməsinə ildə təxminən 40-50 kub kilometr su sərf olunur. Qlobal istiləşmə nəticəsində gələn suların, yəni qar və yağış gətirən siklonların sayında da 30 faizə qədər azalma müşahidə olunur. Bundan başqa, son illərdə antropogen təsirlər və Xəzərin suyunun temperaturunun artması nəticəsində də dənizdə buxarlanma da artıb".

Alim Xəzərin səviyyəsinin əsrin ortasına qədər daha 1-1,5 metr düşəcəyinin proqnozlaşdırıldığını deyərək bildirib ki, son yüz ildə Xəzər dənizinin səviyyəsində kəskin dəyişmə üç dəfə müşahidə olunub: "1930-cu ildən 1977-ci ilə qədər səviyyə 3,2 metr aşağı düşüb, 1978-ci ildən 1995-ci ilə qədər səviyyə 2,5 metr qalxıb, 1996-cı ildən bu günə qədər isə səviyyə enməyə davam edir. Yəni bu hadisə 60-70 il öncə də baş verib".

### Ziyan çəkən əsas sahələr

Şöbə müdiri dəniz səviyyəsinin enməsinin neqativ təsirləri olduğunu vurğulayaraq ən çox təsirin gəmiçilik sahəsinə olduğunu bildirib. Gəmilər limanlara kanallar vasitəsilə daxil olduğundan, kanallardakı su çəkildikcə problemlər yaranır. İkincisi, neft-qaz sənayesinə mənfi təsir göstərir. Su səviyyəsi endiyindən dənizdə olan platformalara yaxınlaşmaq, iş aparmaq gəmilər üçün çətin olur. Digər təsir balıqçılıq sənayesinədir. Eyni zamanda kənd təsərrüfatı mənfi təsirə məruz qalan sahələrdəndir. "Elə yerlər var ki, dəniz 100-200 metr çəkilib. Qızılağac körfəzi ərazisində dənizin 2 kilometrə qədər çəkilməsi müşahidə edilir. İqlimlə əlaqəli proses olduğundan dənizin geri çəkilməsinin nə qədər davam edəcəyini dəqiq demək olmaz, çünki havanı proqnozlaşdırmaq çox çətindir. Xəzər canlı orqanizm kimi nəfəs alır, gah qalxır, gah da enir. Xəzər nə çox qalxa, nə də enə bilir", - deyə o bildirib.

Ə.Əliyevin fikrincə, Xəzər dənizindəki periodik dəyişmələr onun pasportudur. Yəni bu proses davamlıdır, amma antropogen təsirləri azaltmağa çalışmaq, dənizi qidalandıran çayların suyundan qənaətlə istifadə etmək lazımdır. Xəzər 5 milyon il ərzində mövcud olub, səviyyəsi həmişə dəyişib və hər zaman dəyişəcək. Bəzən dəniz suyunun 18-20 metr enəcəyi bildirilir, amma bunlar doğru deyil. Şimal hissəsində 4 metr enmə olarsa, ərazi bataqlığa çevrilər. Xəzərin bioloji resurslarının isə 90 faizi oradadır. Bu hadisə tarixdə heç vaxt olmayıb, yəqin ki, olmayacaq.

Deyilənlər də göstərir ki, Xəzərdə suyun enmə sürəti bir qədər azalsa da, ümumi fonda dəniz səviyyəsi enməyə davam edir. Hazırda qlobal problemlərdən olan iqlim dəyişmələri ilə mübarizə bütün dünya dövlətlərinin ən ümdə vəzifələrindən biridir. Görünən odur ki, qlobal istiləşmədən əlavə, antropogen amillər də dünyanın ən böyük gölünə mənfi təsir göstərir. Bu təsirlər birbaşa olaraq Xəzəryanı ölkələrdə, dolayısı ilə isə daha geniş coğrafiyada özünü büruzə verir.

*Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"*

# Sağlamlığın dostu, yoxsa düşməni?



**Qida rasionumuzun ayrılmaz hissəsi olan duz həm dadlandırıcı, həm konservant, həm də müalicəvi mineral kimi istifadə edilir. Bu təbii maddə haqqında deyilənlərin sayı-hesabı yoxdur: kimisi onu "ağ zəhər" adlandırır, kimisi isə orqanizmin həyat mənbələrindən biri olduğunu vurğulayır. Bu qədər fərqli yanaşmanın səbəbi isə duzun həm fayda, həm də zərər potensialına malik olmasıdır.**

Tərkibindəki natrium və digər minerallar sayəsində orqanizmdə vacib funksiyaları tənzimləsə də, həddindən artıq duz qəbulu sağlamlıq üçün ciddi risklər yaradır. Bu səbəbdən duzla bağlı məlumatlı olmaq, həm növlərini, həm də təsirlərini düzgün dəyərləndirmək lazımdır.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) gündəlik natrium qəbulunu 2300 milliqram, təxminən bir çay qaşığı duzla - məhdudlaşdırmağı məsləhət görür. Lakin tədqiqatlar göstərir ki, əksər insanlar tövsiyə ediləndən iki dəfə artıq duz istifadə edir. Üstəlik, duzun böyük hissəsi yeməklərə əlavə edilən duzdan yox, hazır və emal edilmiş məhsullardan gəlir. Çips, kolbasa, pendir, çörək, bulyonlar, konservləşdirilmiş məhsullar - bütün bunlar gündəlik həyatımızda "gizli duz bombaları" rolunu oynayır.

### Ağ mineralın dəyəri

Diyetoloqlar bildirirlər ki, duzun sağlamlığa təsiri, ilk növbədə, onun növündən və tərkibindəki minerallardan asılıdır. Bu baxımdan, dəniz duzu, qaya duzu, çəhrayı Himalay duzu və Naxçıvan duzu kimi növlər fərqli xüsusiyyətləri ilə seçilir. Təmizlənməmiş dəniz duzu okean və dəniz sularının buxarlanması nəticəsində əldə olunur və təxminən 93 müxtəlif mineral ehtiva edir. Tərkibində maqnezium, kalium, kalsium və təbii yod olan bu duz minimal emal olunduğu üçün əsas iz elementlərini saxlaya bilir. Qaya duzu yerin alt qatlarından çıxarılır və 84 növ mineral ehtiva edir. Bu duzun təbiiliyi və kimyəvi proseslərə məruz qalmaması onu süfrə duzundan daha üstün edir.

Himalay duzu isə dünyada ən saf duz növlərindən biri sayılır. Onun çəhrayı rəngi tərkibindəki dəmir oksidindən gəlir və o da təxminən 80 müxtəlif mineral daşıyır. Bununla belə, mütəxəssislər həm Himalay, həm də dəniz duzundakı əlavə mineralların miqdarının çox az olduğunu, buna görə də insan sağlamlığına xüsusi "möcüzəvi" fayda vermədiyini bildirirlər. Yəni bu duzların əsas üstünlüyü dad fərqi və daha az emaldan ibarətdir.

Ölkəmizdə məşhur olan Naxçıvan duzu da keyfiyyəti ilə seçilir. Natrium xloridin miqdarı burada 93-95 faiz təşkil edir, yerdə qalan hissə isə təbii mineral qalıqlardır. Bu səbəbdən Naxçıvan duzu həm təmizliyi, həm də kimyəvi qatqısızlığı ilə seçilir.

Əks tərəfdə isə ən geniş istifadə olunan süfrə duzu dayanır. Rafinə edildiyi üçün tərkibindəki təbii mineralların böyük hissəsi itirilir. Buna baxmayaraq, süfrə duzuna əlavə edilən yod onun qida rasionundakı vacib rolunu qoruyur. Xüsusilə hamilə qadınlar, uşaqlar və qalxanabənzər vəzi problemi olanlar üçün yodlaşdırılmış duz əvəzolunmazdır. Lakin ciddi emal prosesi və aşırı natrium konsentrasiyası səbəbindən bu duzun həddindən artıq istifadəsi yüksək qan təzyiqindən tutmuş böyrək xəstəliklərinə qədər bir çox problem yarada bilər.

### Əsas şərt düzgün miqdarda istifadədir

Duzun insan sağlamlığına təsiri iki kəskin qütbdən ibarətdir. Bir tərəfdən, natrium bütün həyati funksiyalar üçün vacibdir: su-duz balansını tənzimləyir, sinir impulslarını ötürür, əzələ fəaliyyətini təmin edir və qanın tərkibində mühüm rol oynayır. Duzun çatışmazlığı halsızlıq, aşağı təzyiq, əzələ spazmı, mərkəzi sinir sisteminin zəifləməsi, hətta depressiya kimi problemlərə gətirib çıxara bilər.

Digər tərəfdən, duzun həddindən artıq qəbulu bədəni ciddi risklərlə üz-üzə qoyur. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, bütün insultların 62 faizi, ürəyin işemik xəstəliklərinin isə 49 faizi yüksək qan təzyiqi ilə əlaqəlidir. Həmçinin 35 il ərzində aparılan 13 böyük araşdırmanın nəticələri göstərib ki, gündəlik duz qəbulunun cəmi 5 qram artırılması belə ürək-damar xəstəlikləri riskini 17 faiz, insult ehtimalını isə 23 faiz artırır.

Həddindən artıq duz istifadəsi bədəndə suyun tutulmasını artıraraq ödəm yaradır, böyrəklərin fəaliyyətini çətinləşdirir, zamanla böyrək çatışmazlığına səbəb ola bilər. Duzun çoxluğu sümüklərdən kalsiumun xaric olmasına səbəb olduğundan osteoporoz riskini də yüksəldir. Bundan əlavə, yüksək duzlu qidalar mədə selikli qişasını qıcıqlandıraraq qastrit və reflü problemlərini gücləndirir.

Duz yalnız qida kimi yox, həm də təbii təmizləyici vasitə kimi istifadə olunur. Əlləri duzla ovxalamağın dərini mikroblardan təmizləmək, məsamələri açmaq, yağlılığı azaltmaq kimi təsirləri var. Duzun yumşaq masaj effekti əllərdə qan dövranını artırır və dərini daha hamar edir - əlbəttə ki, dərini qıcıqlandırmayacaq həcmdə istifadə edildiyi təqdirdə.

Bütün hallarda əsas şərt duzun düzgün miqdarda istifadəsidir. Çünki onun həm azlığı, həm də çoxluğu sağlamlığa mənfi təsir göstərir. Mütəxəssislər duzu tamamilə qida rasionundan çıxarmağın düzgün yanaşma olmadığını bildirirlər. ÜST-nin məqsədi dünya üzrə duz qəbulunu 30 faizədək azaltmaqdır. Bu istiqamətdə müxtəlif strategiyalar tətbiq edilir. Ev şəraitində duzdan istifadənin tədricən azaldılması, yeməkləri duz əvəzinə ətirli otlar, limon suyu və ədviyyatlarla dadlandırmaq, restoran masalarından duz qablarının yığışdırılması, duzlu şirniyyat və qəlyanaltıların rasiondan çıxarılması - bütün bunlar duz qəbulunun azalmasına real töhfə verə bilər. Eyni zamanda kaliumun artırılması da çox mühümdür, çünki kalium natriumun damar sisteminə mənfi təsirini balanslaşdırır. Paxlalılar, ispanaq, banan, xurma və digər kaliumla zəngin qidalar rasionda daha çox yer almalıdır.

Nəticə olaraq deyə bilərik ki, duz nə "tamamilə zərərli", nə də "hər dərdin dərmanı" deyil. O həm həyat, həm xəstəlik mənbəyi ola bilər - fərq yalnız miqdarda və seçimdədir.

*Ülkər XASPOLADOVA,
"Azərbaycan"*

# " Uşaqlarda mobil telefon asılılığı təhlükəli həddə çatır"

**Azərbaycanda 3-12 yaş arası uşaqlar arasında mobil telefon və onlayn oyun asılılığı geniş yayılıb və bu tendensiya həm fiziki, həm də psixoloji sağlamlıq üçün ciddi risklər yaradır.**

Bu barədə AZƏRTAC-a açıqlamasında "Soullightcenter"in təsisçisi və psixoloq Zümrüd Nəcməddin qızı məlumat verib.

Psixoloqun sözlərinə görə, son illər qəbuluna gələn uşaqların böyük hissəsində aqressiya, davranış pozuntuları, diqqət çatışmazlığı, hiperaktivlik, qavrama zəifliyi kimi problemlər müşahidə olunur. Araşdırmalar göstərir ki, bu hallar, əsasən, uşaqların gün ərzində uzun müddət - bəzən 2-3 saatdan 8 saata qədər mobil telefonlardan istifadə etməsi və müxtəlif onlayn oyunlara aludə olması ilə bağlıdır.

O bildirib ki, xüsusilə silah, döyüş və ölüm səhnələri üzərində qurulmuş oyunlar uşaqlarda aqressiyanı artırır, onları real həyatdan uzaqlaşdırır: "Bu cür oyunlara bağlanan uşaqların artıq öz virtual dünyası formalaşır. Real ünsiyyəti bacarmayan uşaqlar oyun zamanı bir-birilərini ilə danışır, özlərini qəhrəman kimi görür və bu, onların davranışında ciddi dəyişikliklər yaradır".

Mütəxəssis vurğulayıb ki, həddindən artıq telefon istifadəsi təkcə psixoloji deyil, fiziki problemlərə də yol açır. Uşaqlarda onurğa əyrilikləri, boyun və kürək ağrıları, görmə zəifliyi, iştahsızlıq və yuxu pozuntuları daha çox müşahidə olunmağa başlayıb. O bildirib ki, bəzən 5-7 yaşlı uşaqlarda gecə qorxuları və yuxudan qışqıraraq oyanma halları - psixologiyada "gecə terroru" adlandırılan vəziyyət - məhz uzunmüddətli ekran təsirinin nəticəsidir.

Psixoloq qeyd edib ki, bir çox valideynlər körpəlikdən telefon və planşetləri uşaqlara verərək bununla fəxr edirlər. Lakin bu, əslində, uşağın dil inkişafını, ünsiyyət bacarığını və sosial adaptasiyasını zəifləDİr. "Valideynlər əvvəlcə sakitlik əldə etdiklərini düşünürlər, lakin sonradan 3 yaşa çatan uşağın cümlə qura bilməməsi və diqqətinin zəif olması ilə üzləşirlər", - deyə psixoloq əlavə edib.

Onun fikrincə, telefon asılılığının əsas səbəblərindən biri valideynlə uşaq arasındakı emosional bağın zəif olmasıdır. Uşaqlar çox vaxt nənə-baba və ya baxıcının yanında qalır, valideynlər isə iş başında olduqları üçün onların psixoloji ehtiyaclarını yetərincə qarşılamırlar.

Mütəxəssis valideynlərə uşaqlarla daha çox səmərəli vaxt keçirməyi, söhbət etməyi, oyun oynamağı, eləcə də gündlük rejim və qaydalar cədvəli yaradıb uşağın görə biləcəyi yerdə saxlamağı tövsiyə edir: "Telefon və planşetdən istifadə müddətini ciddi şəkildə məhdudlaşdırmaq məktəbəqədər yaşda maksimum yarım saat olmalıdır. "Valideyn saatları" müəyyən edin - ata-oğul, ana-qız vaxtı, birgə idman, oyun və ya gəzinti gündəlik həyat rejiminə daxil edilməlidir".

O, uşağın izlədiyi cizgi filmlərinin və oynadığı oyunların məzmununa nəzarət etməyi də vurğulayır: "Valideynlərin özləri də telefon istifadə vərdişlərinə diqqət etməlidirlər. Uşaq gördüyünü təkrarlayır".

Psixoloq əlavə edib ki, dünya təcrübəsinə görə, 2 yaşına qədər uşaqlar nə telefona, nə də televizora yaxın buraxılmır. Daha sonrakı yaşlarda isə ekran vaxtı minimum səviyyədə saxlanmalı, uşaqla emosional əlaqə gücləndirilməlidir.

Sonda Zümrüd Nəcməddin qızı bildirib ki, uşaqlar valideynlərin güzgüsüdür və onların sağlam inkişafı üçün ilk addımı böyüklər atmalıdır.



# Paytaxtda qarlı havalara hazırlıq işləri başa çatıb

**Qış mövsümü ilə bağlı paytaxt rayonlarında təsdiq edilmiş planlara uyğun qarlı havalara hazırlıq tədbirləri başa çatıb. Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat Xidmətindən verilən məlumata görə, hazırda şəhərin və rayon kommunal xidmətlərinin xüsusi təyinatlı texnikaları hazır vəziyyətə gətirilib, əlavə tədbirlər görülüb. Görülən işlərə nəzarət məqsədilə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən hər bir rayona cavabdeh şəxs təyin edilib.**



Paytaxtda qarlı havalara hazırlıq tədbirlərinin vəziyyəti məsələləri sonuncu olaraq Bakı şəhərinin Suraxanı, Səbail və Nəsimi rayonlarında müzakirə edilib. Müşavirələrdə Bakı Şəhər İcra Hakimiyyətinin məsul şəxsləri, rayon rəhbərliyi, kommunal-təsərrüfat və digər aidiyyəti qurumların rəhbərləri, həmçinin özəl sektorun nümayəndələri də iştirak ediblər. Müşavirələrdə hər bir sahənin rəhbərinin hesabatı dinlənilib.

Qeyd olunub ki, rayonlardakı hər bir təşkilat mövsümə hazırlıq tədbirlərinin həyata keçirilməsində fəal iştirak etməli və yağıntılar zamanı bitişik ərazinin qardan və buzdan təmizlənməsi üçün müvafiq tədbirlər görməlidirlər. Qarın təmizlənməsi işlərinə kommunal qurumların texnikası ilə yanaşı, idarə, təşkilat, bələdiyyə və özəl qurumların da mövcud texnikalarının cəlb edilməsi qərara alınıb.

Eyni zamanda ictimai iaşə müəssisələrinin, özəl qurumların rəhbərlərinə və ictimaiyyət nümayəndələrinə özlərinə aid ərazilərin təmizlənməsində yaxından iştirak üçün çağırış edilib.

*"Azərbaycan"*




# Kəlbəcərdə daha 27 ailəyə mənzillərinin açarları təqdim edilib







**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam etdirilir.**





AZƏRTAC xəbər verir ki, bu mərhələdə Kəlbəcər şəhərinə 27 ailə - 112 nəfər köçürülüb. Kəlbəcərə köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Dünən köç karvanı ilə yenidən qurulan Kəlbəcər şəhərinə çatan ailələrə mənzillərinin açarları təqdim olunub.

Ailələrə evlərinin açarlarının təqdimatı mərasimində Azərbaycan Respublikası Prezidentinin Kəlbəcər rayonunda xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri iştirak ediblər.

Kəlbəcər şəhərində daimi yaşayış üçün köçürülən ailələr yeni tikilmiş binalarda mənzillərlə təmin olunublar.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

# Bu günlər kəlbəcərlilər üçün ən sevincli, ən qürurlu günlərdir

**"Kəlbəcərdən məcburi köçkün düşəndə 32 yaşım var idi, bu gün isə artıq 66 yaşım var. Həyatımızın ən ağır, ən ağrılı günlərini geridə qoyduq".**







Bu sözləri AZƏRTAC-a açıqlamasında Kəlbəcər şəhərinə köçən keçmiş məcburi köçkün Əhməd Məmmədov söyləyib.

Keçmiş məcburi köçkün bildirib ki, uzun illər həsrətini çəkdikləri doğma yurdlarına qayıtmaq, nəhayət, nəsib oldu: "Bu günlərə çatdığımıza görə Allaha şükür edirik. Yenidən Kəlbəcər torpağını görmək, onun havasını udmaq, suyundan içmək bizim üçün ən böyük xoşbəxtlikdir".

"İndi qayıdırıq və niyyətimiz odur ki, orada fəaliyyətimizi davam etdirək, yurdumuzu yenidən dirçəldək, ona həyat verək. Nə qədər ömrümüz varsa, onu doğma torpaqda, öz elimiz-obamızda yaşamalıyıq. Bu torpaqlar bizim keçmişimizdir, yaddaşımızdır, eyni zamanda gələcəyimizdir", - deyə Ə.Məmmədov vurğulayıb.

Daha bir kəlbəcərli məcburi köçkün Səmayə Ağalarova sevincini gizlətməyib: "Bu gün öz doğma yurdumuza qayıdırıq, çox sevincliyik. Allah qazilərimizə cansağlığı versin, şəhidlərimizə rəhmət eləsin. Prezident İlham Əliyevə də minnətdarıq ki, bizi bu gözəl torpaqlarımıza qovuşdurdu".

Sevincinin həddi-hüdudu olmadığını deyən S.Ağalarova bildirib: "Vaxtilə dörd azyaşlı övladımla bu torpaqlardan çıxmışdım. Bu gün isə 65 yaşımda övladlarımla, 9 nəvəmlə birlikdə yenidən doğma yurduma qayıdıram".

Keçmiş məcburi köçkün Mahmud Ələsgərov isə ötən günlərə qayıdıb: "Bir vaxtlar köçkün həyatının çətinliklərini yaşamışıq, indi isə çox şükür ki, bu günlər arxada qaldı, o ağır dövr sona çatdı".

O, şəhidlərimizi dərin ehtiramla anıb, qazilərimizə cansağlığı arzulayıb.

"Prezident İlham Əliyevə təşəkkür edirik ki, bizi yenidən doğma vətənimizə qovuşdurdu. Bu günlər bizim üçün ən sevincli, ən qürurlu günlərdir. Artıq doğma yurdumuzda daha rahat, daha firavan və daha təhlükəsiz həyat sürəcəyik. Vətənimizə qayıtmaq bizə böyük sevinc və ümid bəxş edir", - deyə məcburi köçkün vurğulayıb.

Keçmişi xatırlayanda ağır günlər yada düşdüyünü deyən M.Ələsgərov bildirib ki, qarlı-boranlı aşırımlardan, çətin yollarla, acınacaqlı vəziyyətdə gəldiyimiz günlər göz önünə gəlir.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 28.11.2025-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə edilməsi imkanı təmin ediləcəkdir.


## BEYNƏLXALQ HƏYAT

# NATO Baş katibi: "Ukraynada sülh yolunda məqsəddən uzağıq"

**NATO-nun Baş katibi Mark Rutte Ukraynada nizamlanmanı uzun proses hesab edir. Şimali Atlantika Alyansının rəhbəri Redaktionsnetzwerk Deutschland (RND) media qrupuna və İspaniyanın "El Pais" qəzetinə müsahibəsində belə deyib.**



Ruttenin dediyinə görə, Cenevrədə keçirilən görüş ABŞ və Ukrayna arasında həqiqi dialoqun qurulması üçün təməl rolunu oynayıb. "Danışıqlar həqiqətən uğurlu keçdi. Lakin onlardan sonra əlavə görüşlər, daha sonra isə müəyyən məsələlər üzrə Aİ və NATO ilə ayrıca danışıqlar aparılmalıdır. Biz hələ də sülh yolunda məqsəddən uzağıq", - deyə Alyans lideri vurğulayıb.

"Mən Prezident Trampın Ukraynadakı qan tökülməsinə son qoyulması ilə bağlı fikrini tamamilə bölüşürəm. Hazırda təxminən bir milyon rusiyalı öldürülüb və ya ağır yaralanıb. Rusiya hər ay təxminən 20 min əsgər itirir... Ukrayna tərəfində də çoxlu sayda ölü və yaralı var", - deyə Rutte bildirib və əlavə edib ki, Rusiya Silahlı Qüvvələri 18 aydır Pokrovsk şəhərini ələ keçirməyə çalışır, lakin hələ də tam buna nail ola bilmir.

Alyans lideri qeyd edib ki, davamlı razılaşma Rusiya Prezidenti Vladimir Putinin bir daha hücum etməyə cəsarət etməyəcəyinə dair zəmanət tələb edir, çünki yalnız bu zaman o, "onun üçün nəticələrin fəlakətli olacağını" dəqiq biləcək.

NATO-nun Baş katibi həmçinin Prioritised Ukraine Requirements List (Ukraynanın Prioritet Tələblər Siyahısı) - PURL təşəbbüsü vasitəsilə Kiyevə silah çatdırılmasını xatırladıb. Bu təşəbbüs çərçivəsində müttəfiqlər Ukraynanın Prioritet Tələblər Siyahısında yer alan Amerika silahlarının pulunu ödəyirlər.

Xatırladaq ki, bundan əvvəl - noyabrın 25-də ABŞ Prezidenti Donald Tramp Ukraynadakı müharibə bitdikdən sonra Avropanın Kiyevə təhlükəsizlik zəmanətinin verilməsində fəal iştirak edəcəyinə əminliyini ifadə edib. "Biz bununla razıyıq... Avropa həqiqətən də bunun (Rusiyanın Ukraynaya qarşı müharibəsinin - red.) mümkün olduqda bitməsini istəyir", - deyə Amerika lideri Air Force One prezident təyyarəsində bildirib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Bəzi yerlərdə zəif duman, çiskin olacaq

**Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə zəif duman, çiskin olacaq. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 9-12, gündüz 15-17 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 770 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-85, gündüz 67-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin günün birinci yarısında bəzi şərq rayonlarında çiskinli yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-9, gündüz 16-20, dağlarda gecə 1-6, gündüz 12-17 dərəcə isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək, 5-10 metr/saniyə təşkil edəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 11-16° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 15-20° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 13-18° isti olacağı bildirilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 15-20° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi şərq rayonlarda çiskinli yağış yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 15-20° isti, dağlarda gecə 1-6°, gündüz 12-17° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi şərq rayonlarında dumanlı, çiskinli olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-9° isti, gündüz 16-20° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadın bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 15-18° isti, dağlarda gecə 5-8°, gündüz 14-16° isti olacağı gözlənilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları iş yoldaşları Turan Abaslıya əzizi

**NAZİRƏ RZAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Aparatın əməkdaşı Mikayıl Bayramova əzizi

**FİRƏNGİZ BAYRAMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Yeni Azərbaycan Partiyasının Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşova qardaşı

**MƏZAHİR BALAQADAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4071**
**Sifariş 2388**

**Qiyməti 60 qəpik**